RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 98 (9553) 12 may 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# ŞUŞA QƏHRƏMANLIQ, ZƏFƏR VƏ SÜLH RƏMZİDİR



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimində iştirak ediblər

**Mayın 11-də Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Dövlət başçısı tədbirdə çıxış etdi.



2-3

## Dağıdılmış məscidlərin yerində yeni məscidlər inşa edilir

### Prezident İlham Əliyev Şuşada ICESCO-nun baş direktorunu qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Şuşada ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Maliki qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Şuşada keçirilən VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının əhəmiyyəti qeyd olundu. Söhbət zamanı bundan əvvəl keçirilən görüşlər məmnunluqla xatırlandı.

ICESCO-nun baş direktoru Şuşaya budəfəki səfərində burada çox böyük inkişaf proseslərinin və dəyişikliklərin şahidi olduğunu bildirdi, işğal zamanı ermənilər tərəfindən tamamilə dağıdılmış məscidlərin yerində yeni məscidlərin inşa edilməsinin islam dininin dəyərlərinin qorunması baxımından əhəmiyyətini vurğuladı.

Görüşdə işğaldan azad edilmiş ərazilərdə böyük bərpa və yenidənqurma işlərinin getdiyi məmnunluqla qeyd olundu.

ICESCO ilə Azərbaycan arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu və perspektivlər barədə fikir mübadiləsi aparıldı.

ICESCO-nun baş direktoru Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

## İlham Əliyev xəbərdarlığını etdi:

### "Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar peşman olacaqlar"

Azərbaycanın qazandığı qələbələr və ərazisində separatizmin kökünü kəsməsi sayəsində Cənubi Qafqazda münaqişələrdən uzaq, təhlükəsiz həyat vəd edən sülh üçün münbit tarixi şərait formalaşıb. Amma bu, bölgədə müharibə ssenarisi gerçəkləşdirmək istəyən Qərb üçün barış arzuolunmaz vəziyyətdir və buna görə də ölkəmizin sülh təşəbbüslərinə vaxtaşırı kölgə salmaq istəyirlər. Həmçinin Ermənistana dəstək verərək, silahlandıraraq revanşa qızışdırırlar.

"Bu gün də baxın bizə qarşı, kimlər, necə deyərlər, əsas rol oynayırlar - Fransa və Amerika. Bunu açıq demək lazımdır, daha çox Fransa. Onlar da bilməlidirlər ki, bizim iradəmizdən kənar bu bölgədə heç bir məsələ həll olunası deyil", - deyə Şuşadakı görüş zamanı Prezident İlham Əliyev altını cızdı ki,



əgər bu gün yenə də görsək ki, Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin.

Dövlət başçısı onu da vurğuladı ki, hər kəs bilir ki, biz nəyə qadirik, ordumuz nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir. Heç kim bizim qabağımızda dura bilməz. Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz. Nəyi lazım biliriksə, onu da edəcəyik.

7

# ŞUŞA QƏHRƏMANLIQ, ZƏFƏR VƏ SÜLH RƏMZİDİR

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimində iştirak ediblər**





## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli ICESCO-nun baş direktoru cənab əl-Malik.

Hörmətli qonaqlar, əziz dostlar.

Bildiyiniz kimi, Şuşa şəhəri islam dünyasının mədəniyyət paytaxtı elan olunmuşdur. Bu qərara görə ICESCO-ya, onun rəhbərliyinə, ICESCO-ya üzv ölkələrə - qardaş ölkələrə öz təşəkkürümü bildirmək istəyirəm. Şuşa bu şərəfli ada layiq görülüb və biz bunu İslam dünyasının Azərbaycana növbəti dəstəyinin, hörmətinin əlaməti kimi qəbul edirik.

Birinci dəfə deyil ki, Azərbaycan şəhəri bu şərəfli ada layiq görülür. 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhəri də islam dünyasının mədəniyyət paytaxtı elan edilmişdir. Bu dəfə isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa bu şərəfli adı daşıyacaq.

Biz islam həmrəyliyi istiqamətində ardıcıl fəaliyyət göstəririk. Azərbaycan islam dünyasının birləşməsi, islam həmrəyliyinin gücləndirilməsi üçün böyük səylər göstərir.

Ölkəmizdə bir çox beynəlxalq tədbirlər, musiqi festivalları, mədəni tədbirlər keçirilir. Təbii ki, Şuşa şəhərinin islam dünyasının mədəniyyət paytaxtı olması bizə əlavə imkan verəcək ki, öz mədəniyyətimizi həm müsəlman ölkələrinin ictimaiyyətinə, həm də dünya ictimaiyyətinə çatdıraq.

Şuşa Azərbaycanın bir çox dahi mədəniyyət xadimlərinin vətənidir. Şuşada doğulmuş, burada boya-başa çatmış görkəmli və dahi mədəniyyət xadimləri bizim qürur mənbəyimizdir. Şuşa nəinki Azərbaycanda, bütövlükdə Qafqaz bölgəsində və daha böyük coğrafiyada tarixən mədəniyyət ocağı kimi tanınırdı. Şuşanın mədəniyyət xadimlərinin fəaliyyəti hər zaman böyük diqqət cəlb edirdi.

Biz 28 il Şuşasız yaşayırdıq. Həm şuşalılar, həm bütün Azərbaycan xalqı bu illəri mənəvi əzab illəri kimi öz yaddaşlarında saxlayırlar və saxlayacaqlar. Dünən Şuşa şəhərinin dirçəldilməsi istiqamətində növbəti addım atılmışdır, ilk sakinlər uzun fasilədən sonra öz doğma şəhərinə qayıdıb burada məskunlaşmışlar. Şuşanın tarixi simasının bərpası istiqamətində fəal işlər gedir. Şuşa, sözün əsl mənasında, dirçəlir. Şuşanın bir çox tarixi və dini abidələri işğal dövründə işğalçılar tərəfindən tamamilə dağıdılmışdır. Hazırda dörd məscid yenidən qurulub, digər məscidlərdə təmir-bərpa işləri aparılır.








Bu işğala baxmayaraq, Şuşa öz ruhunu - Azərbaycan ruhunu qoruyub saxlaya bildi. Biz Şuşa azad olunandan sonra Şuşaya qayıtdıqda bir daha hər birimiz bunu görmüşük və dəfələrlə görürük. Şuşaya gələn hər bir insan əyani şəkildə görür ki, burada Azərbaycan ruhu var. Şuşa işğal, əsarət dövründə əyilmədi və biz - Azərbaycan xalqının nümayəndələri Şuşaya qayıtmalı idik. Qan tökərək, şəhidlər verərək, - Allah bütün şəhidlərimizə rəhmət eləsin, - Şuşanın azad edilməsi, şəhər döyüşləri nəticəsində azad edilməsi tariximizin parlaq səhifəsidir.

Qeyd etdiyim kimi, Şuşa mədəniyyət ocağı kimi tanınsa da, hazırda, eyni zamanda qəhrəmanlıq rəmzidir, zəfər rəmzidir və sülhün rəmzidir. Çünki məhz Şuşanın azad olunmasından sonra işğalçılar tam anladılar ki, müqavimət göstərmək onlara heç nə verməyəcək və beləliklə, bu gün biz Şuşanı tam haqlı olaraq sülhün rəmzi kimi qiymətləndirə bilərik.

Mən xarici qonaqları səmimiyyətlə salamlayıram. Builki "Xarıbülbül" festivalı bu hadisəyə - Şuşanın islam dünyasının mədəniyyət paytaxtı elan olunmasına həsr edilib. Bu gün bir çox müsəlman ölkələrinin kollektivləri bizim üçün müqəddəs olan Cıdır düzündə öz məharətlərini ifadə edəcəklər. Bu, birlik bayramı olacaq, bu, həmrəylik bayramı olacaq. Eyni zamanda Azərbaycan xalqının əyilməz ruhunu nümayiş etdirən bu məkan həm işğala qədər, həm işğal dövründə, həm də işğala son qoyulandan sonra hər birimiz üçün doğma və əzizdir. Bizim qəhrəman əsgər-zabitlərimiz, bax, bu sıldırım qayalara dırmaşaraq yüngül silahlarla şəhəri düşməndən azad etmişlər.

Əminəm ki, bundan sonra Azərbaycan torpaqlarında daim sülh olacaq. Arzum budur, əminəm, bütün Azərbaycan xalqının arzusu budur ki, qoy, heç vaxt bu səma altında bir daha top səsləri eşidilməsin. Qoy, bundan sonra burada ancaq musiqi sədaları səslənsin. Sağ olun.

❖ ❖ ❖

Sonra ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik çıxış etdi.

*Ardı 3-cü səh.*

# ŞUŞA QƏHRƏMANLIQ, ZƏFƏR VƏ SÜLH RƏMZİDİR

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimində iştirak ediblər









*Əvvəli 2-ci səh.*

### Salim bin Məhəmməd əl-Malikin çıxışı

- Rəhimli və mərhəmətli Allahın adı ilə.

Aləmlərin Rəbbi olan Allaha həmd olsun!

Məhəmməd Peyğəmbərə salam və dua olsun!

Azərbaycan Respublikasının Prezidenti hörmətli cənab İlham Əliyev.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva.

Hörmətli iştirakçılar, hörmətli nazirlər, səfirlər, hörmətli qonaqlar.

Allahın salamı, rəhməti və bərəkəti sizə olsun.

O, sanki əzəmətli dağlarının zirvələrinə yüksəlib ki, yeni nailiyyətini fəxrlə bildirsin. 2021-ci ildə Azərbaycanın mədəniyyət paytaxtı oldu. 2023-cü ildə isə o, türk dünyasının mədəniyyət paytaxtı seçildi. Amma 2024-cü ilin bu günündə o, islam dünyasının mədəniyyət paytaxtı kimi özünəməxsusluq bayrağını və dühasını daşıyır. Hər dəfə əhatə genişlənir, coğrafiya böyüyür. Üç il mədəniyyət paytaxtı adına layiq olan az sayda belə şəhər var. Bu, dərin bir işarədir. Bu, nailiyyətə, imkanlara və ehtirama işarədir. Bu, Şuşa şəhəridir - paklıq, saflıq və xoş ab-hava şəhəri. Şəhərin adı da elə buradan gəlir. Bizlərdən kimsə dünyada adı saflığa və təmizliyə uyğun gələn başqa şəhər tanıyırmı? Buranın havası təmiz, insanların hissləri pakdır. Buna görə də təəccüblü deyil ki, Şuşa bütünlüklə Qafqazda musiqinin paytaxtıdır, təsviri sənətin məkanıdır, gözəl Azərbaycan xalçasının vətənidir, musiqi, fikir və şairlər yurdudur. Görəsən, bütün bunlar paklığın və saflığın hədiyyəsidirmi?

Şuşa 1751-ci ildə banisi Pənahəli xan tərəfindən ümidlərlə salınıb. Dünya şəhərlərini qoynuna alaraq öz mədəniyyəti ilə onları tanış edib, öz ticarət əlaqələrini möhkəmləndirib. Onun tacirlərinin əks-sədası bütün dünyadan gəlib. Onlar oralara təkcə xalça, qumaş parçalar və mərmər deyil, həm də şeir, poeziya, fəlsəfə, gözəl tablolar göndəriblər. Göndərilənlər içərisində musiqi alətləri də var idi. Ustalar onları sevgi ilə hazırlayıb və nadir yaradıcılıq nümunələri kimi şəhərlərə paylayıblar.

Şuşa daim yüksəklikdə, ucalıqdadır. Onun mütəfəkkirləri, yaradıcı insanları Şuşanın Qafqaz müsəlman kimliyini öz qələmlərində və mürəkkəbqablarında daşımışlar. Onunla Azərbaycan insanının şəxsiyyətini, mədəniyyət hüdudlarını qoruyub saxlamışlar. Buna görə də şəhərin bayrağı daim uca olmuşdur. Qəddar düşmənlər onun şirinliyini ələ keçirmək üçün hər zaman pusquda durmuşlar, lakin şəhər çox keçməmiş öz əziz vətəninin qoynuna qayıtmışdır, qəlblərdə əbədi qalmışdır. Onun zənginliyinə aşiq olmuş mütəfəkkirlər, şairlər, sənətkarlar yaddaşlara əbədi həkk olmuşdur. Biz bunlara şairlər Xurşidbanu Natəvanı, Molla Pənah Vaqifi, Qasım bəy Zakiri, xanəndə Cabbar Qaryağdıoğlunu, ifaçı Mirzə Sadıqı, yazıçı Nəcəf bəy Vəzirovu, bəstəkar Üzeyir bəy Hacıbəylini, dramaturq Əbdürrəhim bəy Haqverdiyevi, bəstəkar Fikrət Əmirovu, mütəfəkkir Əhməd Ağaoğlunu və başqalarını aid edə bilərik. Dünən böyük xanəndə Bülbülün evində olanda divarlar, mebellər, ağacların kölgələri dil açıb bizə deyirdi ki, bu ev Şuşada keçmişlə indinin əlaqəsini göstərir, övladların ata-babalarının irsi ilə əlaqəsini sübut edir, enməyən bir bayrağa işarə edir.

Birinci vitse-prezident, birinci xanım, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu qarşısına nəcib hədəflər qoyub. Belə ki, bu fond, Qarabağın başqa yerlərində olduğu kimi, Şuşa şəhərinin abadlaşdırılması, yenilənməsi yükünü də öz üzərinə götürüb. Biz bu işlərin hər yerdə vüsət aldığının şahidiyik. Bu nümunəvi fond qısa vaxt ərzində əldə etdiyi nailiyyətlərə görə təbrikə layiqdir. Biz burada yeni yolları, yaraşıqlı binaları, gözəl hotelləri, yenilənən muzeyləri, xalçaları və məscidləri görürük. Bütün bunlar məsuliyyətin dərk edilməsinə, çağırışa hazır olmağa dəlalət edir.

Bu, hərtərəfli inkişaf çağırışıdır. Bunu Prezident İlham Əliyev zəkası ilə böyük həvəslə həyata keçirir və bu da təəccüblü deyil, çünki məhz o, torpaqların azadlığı bayrağını qaldırmışdır. Məhz o, əbədi qayıdış anını xalqına bildirmişdir. Məhz o, öz ayıq-sayıqlığı ilə şəhərin azadlığını planlaşdırmışdır. Bu isə başqa hekayədir.

Şuşa 30 il ərzində Vətənin gözündən uzaq qalsa da, Azərbaycan xalqının övladlarının qəlblərində qorunub saxlanılırdı. Şuşa öz övladlarının sevgisinin və fədakarlığının miqyasını ölçürdü. Şuşa övladlarının ona qayıtmaq üçün çəkdikləri həsrətin səmimiliyinə əmin idi. Xalq dürüstlük, etibarlılıq sınağından uğurla keçərək Qafqaz şəhərlərinin incisini Azərbaycana qaytardı, özü də müzəffər şəkildə qaytardı. Şuşanın əzəmətini bilənlərdə iftixar hissləri coşdu.

Həmin dövrdə ICESCO uzaqda deyildi, Azərbaycan xalqını sevindirən onu da sevindirdi, cəmiyyətin sevincinə qoşuldu. Buna görə də təşkilat vədlərinə sadiq qaldı. ICESCO fəxr edir ki, Prezident İlham Əliyev onun planlarını və Azərbaycanla bağlı proqramlarını dəstəkləyir və təşkilat da öz növbəsində ona öz vəfa borcunu yerinə yetirir. Azərbaycanın zəkalı oğulları ICESCO-da fəaliyyət göstərir, orada təcrübəli ekspertlər kimi çalışırlar.

ICESCO həmçinin buraya irs missiyası göndərib və bu, azad olunmuş torpaqlara ayaq basan ilk beynəlxalq missiyadır. Bu, tarix kitablarında və vəfa dəftərində qalacaq həqiqətdir. ICESCO bu işə dünən başlamışdır. Amma təşkilat bu gün və sabah da Azərbaycanla olan özünəməxsus etibarlı əlaqələrinə sadiq qalacaq, onun yanında olacaq, onun sivilizasiyada tutduğu yolu müdafiə edəcək, sevinc və qürur anlarını onunla birlikdə qeyd edəcək. Onun oğullarının və qızlarının həyata keçirdiyi quruculuq işlərini dəstəkləyəcək. Paklıq ətrinin və saflıq müşkünün daşıyıcısı olan şuşalı islam dünyası mübarək olsun. Onun sevgisini bölüşən, hər zaman onu görməyə can atan islam dünyalı Şuşaya eşq olsun!

Cənab Prezident, Sizə, Birinci vitse-prezidentə, hökumət və parlament üzvlərinə, bütün Azərbaycan xalqına mübarəkdir deyirəm. Allah Şuşanı hifz etsin. Allah Azərbaycanı qorusun. Qoy, həmişə qələbə və nailiyyətimizi bayram edək. Qarabağ Azərbaycandır! Sağ olun.

❖ ❖ ❖

Çıxışlardan sonra açılış konserti keçirildi.

Konsertdə "Xarıbülbül"ün bütün iştirakçılarının yer aldığı açılış kompozisiyasının müşayiəti ilə 27 Qarabağ atından ibarət süvari dəstə ICESCO-ya üzv ölkələrin bayraqları ilə Cıdır düzünə daxil oldu.

Qeyd edək ki, Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən ilin noyabrında bununla bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən festivalın proqramı ifaçıların və repertuarın zənginliyi, fərqli təqdimatlar ilə seçilir. Builki festivalın iştirakçıları arasında həm də ICESCO-ya üzv ölkələrdən ifaçılar və yaradıcı kollektivlər yer alıb. Möhtəşəm mədəniyyət hadisəsinə çevrilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Birləşmiş Ərəb Əmirlikləri, İndoneziya, İran, Qazaxıstan, Qətər, Qvineya, Mərakeş, Özbəkistan, Türkiyə də təmsil olunur.

Açılış konsertində müxtəlif ölkələrdən məşhur ifaçılar - Azərbaycandan Xalq artistləri Arif Babayev, Gülyanaq Məmmədova, Polad Bülbüloğlu, Zeynəb Xanlarova, Zülfiyyə Xanbabayeva, Sevda Ələkbərzadə, Əməkdar artist Rəşad İlyasov, Qazaxıstandan Əməkdar artist Əlişer Kərimov, Qvineyadan Aboubakar Silla, Özbəkistandan Xalq artisti Nəsibə Abdullayeva, Türkiyədən Hüsnü Şenlendirici, həmçinin "Aşıqlar qrupu", Azərbaycan Dövlət Rəqs Ansamblı, "Natiq" ritm qrupu, Birləşmiş Ərəb Əmirliklərindən "Almazyood", İndoneziyadan "Sendja Community", Qətərdən "Qılınc rəqqasları", Mərakeşdən "Tizwit" qrupları, Özbəkistandan "Navbahor" Mahnı və Rəqs Ansamblı, Türkiyədən "Anadolu atəşi" rəqs qrupu və digərləri çıxış etdilər. Konsert iştirakçıların ifasında festivalı rəmzi olaraq təcəssüm etdirən "Səsin gəlsin, Xarıbülbül" mahnısı ilə yekunlaşıb.

Xatırladaq ki, festival mayın 12-də Şuşada, 13-də isə Laçında davam edəcək.

❖ ❖ ❖

Şuşanın rəmzi olan gülün adını daşıyan "Xarıbülbül" Musiqi Festivalı 1989-cu ildən keçirilir. Festival həmin ilin may ayında məşhur xanəndə, pedaqoq, Xalq artisti Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar Ağdam rayonunun Abdal Gülablı kəndində başlayıb, Şuşada davam edib və Ağdamda yekun konsertlə başa çatıb. "Xarıbülbül" festivalı 1990-cı ildə beynəlxalq status alıb. Qarabağ münaqişəsinin başlaması ilə əlaqədar əsas konsertlər Ağdamda təşkil edilib. Festivalın bir sıra konsertləri Ağcabədi və Bərdədə təşkil olunub.

Vətən müharibəsindəki tarixi Zəfərimiz nəticəsində torpaqlarımız işğaldan azad olunduqdan sonra festival yenidən Şuşada keçirilir. Bu il isə festivalın məkanı genişlənərək Laçını da əhatə edir.

Dünyanın bir çox ölkələrindən çoxsaylı musiqiçilərin iştirak etdikləri bu dostluq və musiqi bayramı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, müxtəlif ölkələri təmsil edən musiqiçilərə ünsiyyət və əməkdaşlıq üçün əlverişli şərait yaradaraq mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə töhfə verir.

# Dünyanı bizə, bizi dünyaya tanıdan "Xarıbülbül"

## Şuşa növbəti dəfə "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalına evsahibliyi edir
















**Mayın 11-də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşada "Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalı öz işinə başlayıb.**

AZƏRTAC xəbər verir ki, bu il 35 yaşını qeyd edən festival Şuşa və Laçın şəhərlərində mayın 13-dək davam edəcək.

Şuşa şəhəri budəfəki "Xarıbülbül" festivalına həm də "İslam dünyasının mədəniyyət paytaxtı" kimi evsahibliyi edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən ilin noyabrında bununla bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

Festivala Cıdır düzündə "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin və "Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalının açılış konserti ilə start verilib.

Builki festivalın iştirakçıları arasında həmçinin ICESCO-ya üzv ölkələrdən ifaçılar və yaradıcı kollektivlər yer alıb. Möhtəşəm mədəniyyət hadisəsinə çevrilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında Azərbaycan ilə yanaşı, Birləşmiş Ərəb Əmirlikləri, İndoneziya, İran, Qazaxıstan, Qətər, Qvineya, Mərakeş, Özbəkistan və Türkiyə təmsil olunur.

Hər bir azərbaycanlının qəlbində xüsusi yer tutan, qədim mədəniyyət beşiyi olan Şuşa 28 ildən çox davam etmiş işğal dövründə mənfur düşmənin vurduğu ziyanlara, törətdiyi dağıntılara baxmayaraq, özünün bənzərsiz aurasını, milli ruhunu qoruyub saxladı. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsində Azərbaycanın qazandığı şanlı Qələbədən sonra əziz Şuşamızın yeni növrağı - qonaqlı-qaralı, çal-çağırlı günləri başlayıb.

Bu gözəl bayrama, çal-çağıra tamaşa edənlərin gözlərindəki sevinci sezməmək mümkün deyil. Onlar sevinc dolu təəssüratlarını AZƏRTAC-la bölüşürlər.

Azərbaycanın Xalq artisti **Arif Babayev** deyir ki, Şuşanın azadlığını görmək, hər qarışı, hər cığırı doğma olan bu yerləri dolaşmaq onun üçün çox böyük xoşbəxtlikdir: "Şuşa təkcə orada doğulub boya-başa çatan, uşaqlığı, gəncliyi həmin diyarda keçənlərin deyil, hər bir azərbaycanlının vətənidir. Düşünürəm ki, burada təşkil olunan tədbirlərin hamısı bir-birindən gözəl və qiymətlidir. Belə gözəl tədbirlərdə iştirak etdiyim üçün çox xoşbəxtəm. Allahımdan çox razıyam ki, dualarım çin oldu və mən Qarabağı azad görə bildim".

Cıdır düzündə səhnəyə çıxmağın böyük xoşbəxtlik olduğunu söyləyən Xalq artisti **Zeynəb Xanlarova** deyib: "Buraya dəfələrlə gəlsəm də, burada ilk dəfədir səhnəyə çıxıram. Bu, böyük xoşbəxtlikdir. Çox sevinirəm ki, belə gözəl festivalda həm iştirak etdim, həm də mahnı ifa etdim".

Qala-şəhərdə təşkil olunan hər bir tədbirin onun üçün əlamətdar olduğunu söyləyən Xalq artisti bu sırada "Xarıbülbül" festivalının özünəməxsus yeri olduğunu vurğulayıb: "Bu festival bir daha xalqımızın sülhsevərliyini, qurub-yaratmaq əzmini, bəşəri dəyərlərə sonsuz hörmətini, ən əsası, milli musiqimizə, mədəniyyətimizə sonsuz sevgisini göstərir".

Azərbaycan tar ifaçılığı sənətində öz yeri olan, Xalq artisti **Ramiz Quliyev** festivalla yanaşı, son vaxtlar ölkəmizdə yaşanan əlamətdar günləri belə dəyərləndirir: "Bu günlər ölkəmiz bir-birindən maraqlı və yaddaqalan hadisələrə şahidlik edir. Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü, Heydər Əliyev Fondunun yaradılmasının 20 illiyi, ardınca da "Xarıbülbül" festivalı ölkəmizdə əsl bayram əhvali-ruhiyyəsi yaradıb. Bunlar unudulmaz, əziz günlərdir. Mən yüzlərlə festival görmüşəm, amma tam səmimi deyim ki, nə Şuşanın, nə də "Xarıbülbül" festivalının əvəzi yoxdur".

"Şuşada böyük məmnuniyyətlə həm gedib yaşayacağam və yaradacağam, həm də ürəyimdə bəzi arzularım var ki, onları həyata keçirəcəyəm", - deyən Xalq artisti **Firəngiz Mütəllimova** da doğma şəhərində festivalı izləyənlər arasındadır. Artıq dördüncü dəfədir ki, festivalda iştirak etdiyini söyləyən Xalq artisti ona bu sevinci yaşadanlara dərin minnətdarlığını bildirib. "Çox şadam ki, doğma şəhərimdə belə gözəl bir musiqi bayramında iştirak edirəm. "Xarıbülbül" festivalının proqramı çox zəngindir. Hər dəfə buraya gələndə qəlbən cavanlaşıram, sanki Şuşada mən tamam başqa adam oluram. Ona görə ki, bura mənim ruhumun, gəncliyimin şəhəridir. Burada olmaq mənim üçün tamam başqa bir aləmdir, onu sözlə ifadə etmək çox çətindir".

Festival bir daha sübut edir ki, musiqi sərhəd tanımır. Xalqın tarixini və mübarizə yolunu, arzu və düşüncələrini tərənnüm edən muğam və el havaları milliyyətindən, dinindən asılı olmayaraq, hamının qəlbini ehtizaza gətirir.

Xalq artisti **Nurəddin Mehdixanlı** da son günlər bir-birini tamamlayan tarixi günləri yüksək qiymətləndirir: "Mayın 10-da anadan olmasının 101-ci ildönümünü qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyev bütövlükdə öz ömrünü, həyatını Azərbaycana həsr etmişdir. Bizim Ulu Öndər Heydər Əliyevin irsindən öyrənəcəyimiz çox şeylər var. Heydər Əliyev deyəndə gözlərimiz önündə böyük azərbaycanlı, siyasi lider, dövlət xadimi, dünya miqyasında tanınan bir şəxsiyyət, Azərbaycanın müstəqilliyini xilas edən bir dövlət adamının portreti canlanır. Bu yaxınlarda 20 illiyi tamam olan Heydər Əliyev Fondu da yarandığı gündən mədəniyyətimizin hamisi rolunda çıxış edir. Məhz bu fondun təşkilatçılığı ilə bu gün biz azad Şuşada gözəl bir musiqi bayramına toplaşmışıq. Festivalda dünyanın bir çox yerlərindən ifaçılar çıxış edirlər. Əvvəlki illərdə olduğu kimi, bugünkü festival da çox yüksək səviyyədə təşkil olunub. Ölkəmizdə təşkil olunan möhtəşəm beynəlxalq tədbirlər bir daha sübut edir ki, Azərbaycan xalqı sülhsevər, qonaqpərvər, dostluq, barış içində yaşamaq istəyən xalqdır".

Qeyd edək ki, Şuşanın rəmzi olan gülün adını daşıyan "Xarıbülbül" Musiqi Festivalı 1989-cu ildən keçirilir. Festival həmin ilin may ayında məşhur xanəndə, pedaqoq, Xalq artisti Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar Ağdam rayonunun Abdal Gülablı kəndində başlayıb, Şuşada davam edib və Ağdamda yekun konsertlə başa çatmışdı. 1990-cı ildən isə "Xarıbülbül" festivalı beynəlxalq status alıb.

Qarabağ münaqişəsi dövründə əsas konsertlər Ağdamda təşkil edilib. Festivalın bir sıra konsertləri Ağcabədi və Bərdədə keçirilib.

Vətən müharibəsindəki tarixi Zəfərimizlə torpaqlarımız işğaldan azad olunduqdan sonra festival yenidən Şuşada keçirilir. Bu il festivalın məkanı genişlənərək Laçın şəhərini də əhatə edir.

Festivalda səslənən bütün musiqi nümunələri gözəlliyi, məhəbbəti tərənnüm edir. Dünyanın bir çox ölkələrindən çoxsaylı musiqiçilərin iştirak etdiyi bu dostluq və musiqi bayramı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, müxtəlif ölkələri təmsil edən musiqiçilərə ünsiyyət və əməkdaşlıq üçün əlverişli şərait yaradaraq mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə öz töhfəsini verir.

"Xarıbülbül" festivalı 270 ildən çox yaşı olan qala-şəhərimizin, Pənahəli xan yadigarının çal-çağırlı günlərinə daha bir möhtəşəm qayıdış oldu. Musiqi bayramı bir sıra ölkələrdən ifaçı və kollektivləri Cıdır düzünə yığaraq yenidən beynəlxalq statusunu təsdiqlədi.



# "Xarıbülbül"ün sorağı dünyaya yayılır

**Möhtəşəm mədəniyyət hadisəsinə çevrilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Birləşmiş Ərəb Əmirlikləri, İndoneziya, İran, Qazaxıstan, Qətər, Qvineya, Mərakeş, Özbəkistan və Türkiyə təmsil olunur.**







Cıdır düzündə qurulmuş səhnədə, açıq səma altında təqdim olunan konsert proqramlarında müxtəlif ölkələrdən tanınmış ifaçılarla yanaşı, musiqi qrupları, rəqs kollektivləri də çıxış edirlər.

Festivalın iştirakçıları arasında qardaş Özbəkistandan gəlmiş "Abbos" qrupunun da maraqlı çıxışı oldu. Qrupun yaradıcısı **Abbos Qasımov** AZƏRTAC-a müsahibəsində artıq 3-cü dəfədir ki, Azərbaycanda olduğunu söyləyib.

2015-ci ildə Şəkidə beynəlxalq zərb alətləri festivalında iştirak etdiyini xatırladan qrupun rəhbəri deyib ki, elə həmin vaxtdan onda Azərbaycan milli musiqisinə böyük maraq yaranıb. Şuşaya ilk dəfə gəldiyini məmnunluqla dilə gətirən həmsöhbətimiz deyib ki, burada füsunkar təbiət qoynunda çıxış etməsi ona xüsusi zövq verib.

"Abbos" qrupunu 1998-ci ildə yaratdığını söyləyən A.Qasımov dünyada bir çox beynəlxalq festivallarda uğurla çıxış etdiklərini söyləyib. Onun sözlərinə görə, bu sırada Şuşada keçirilən festival xüsusi yer tutur.

İndoneziyanın "Sendja Community" qrupu da festivalda öz milli musiqi nömrələri ilə çıxış edib. Qrupun üzvü **Fariz bin Daniali** AZƏRTAC-a müsahibəsində Azərbaycana gəlməsindən və belə beynəlxalq festivalda iştirak etməsindən məmnunluğunu bildirib. O deyib: "Biz İndoneziyadan olan böyük icmayıq. İlk dəfədir ki, Azərbaycanda çıxış edirik. Azərbaycanda dinlədiyim musiqi əsərləri çox gözəldir. Burada olarkən Şuşa haqqında da geniş məlumat əldə etdik. Öyrəndik ki, bu qədim diyar böyük musiqiçilərin vətənidir. Xüsusilə buranın mənzərəsi heyrətamizdir. Ölkənizlə bağlı maraqlı mədəni təəssüratlarım var. Qismət olarsa, yenə də gəlib böyük məmnunluqla Azərbaycanda keçirilən festivallarda iştirak edərik".

Özbəkistanın "Navbahor" Mahnı və Rəqs Ansamblının solisti **Kenceber Şerzodəliyeviç** AZƏRTAC-a müsahibəsində xalqımızın qonaqpərvərliyini yüksək dəyərləndirib.

"Belə möhtəşəm dağları ilk dəfə Şuşada görürəm. Bu yerlərin çox füsunkar təbiəti var. Bu gözəlliyi sözlə ifadə etmək çox çətindir", - deyə həmsöhbətimiz bildirib. O qeyd edib ki, "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı iştirakçılara digər xalqların da adət-ənənələri ilə yaxından tanış olmaq imkanı yaradıb: "Burada olarkən Azərbaycanın qədim "Yallı" rəqsini də öyrənmək imkanımız oldu". Azərbaycan və Özbəkistan xalqlarının qardaş olduğunu söyləyən rəqqas deyib ki, bu qardaşlığın əbədi olması üçün birlikdə çalışmaq lazımdır.

Qeyd edək ki, hər bir əcnəbi iştirakçı festival haqqında, ölkəmiz barədə ağızdolusu danışır. Onlar burada çox doğma, əziz adamları kimi qarşılanıb qəbul edilirlər. Çünki xalqımız hər zaman öz qonaqpərvərliyi ilə seçilib, fərqlənib. Bunu onların hər biri ayrı-ayrılıqda xüsusilə qeyd edirlər. Bu da bizə dünyada yeni dostlar qazandırır. Bütün bunlar bir daha göstərir ki, qarşıdakı illərdə festivalda iştirak edəcək qonaqların sayı, sözsüz ki, artacaq. Çünki illər ötdükcə "Xarıbülbül"ün sorağı dünyaya daha geniş yayılır.

# Türkiyənin məşhur "Anadolu Atəşi"nin Cıdır düzündə atəşin rəqsi

**Mayın 11-də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşada keçirilən "Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalında növbəti konsert proqramını Türkiyənin məşhur "Anadolu Atəşi" rəqs qrupu təqdim edib.**



AZƏRTAC xəbər verir ki, Cıdır düzündə səhnəyə çıxan qrup bu günədək göstərdiyi performansın ən möhtəşəmini nümayiş etdirib.

Çıxışlar tamaşaçıların alqışları ilə müşayiət olunub.

1999-cu ildə Mustafa Ərdoğanın rəhbərliyi ilə yaradılmış "Anadolu Atəşi"nin ilk adı "Rəqsin Sultanları" olub. Qrupun yaradılmasının məqsədi Şərqlə Qərbin mədəniyyətlərinin birləşməsi və sülh idi. Doxsan nəfər gənc rəqqasla fəaliyyətə başlayan qrup 2002-ci ildən dünya turuna başlayıb, 93 ölkədə 3850 şou göstərib, 35 milyondan çox sənətsevər tərəfindən izlənilib.

"Anadolu Atəşi" 2001-ci ildən bu günədək İsrail, Almaniya, Çin, Niderland, Ukrayna, Belçika, İsveçrə, Yaponiya, Avstriya, Qətər, Liviya, Rusiya, Azərbaycan, Rumıniya, Bosniya və Herseqovina, Birləşmiş Ərəb Əmirlikləri, Yeni Zelandiya, İtaliya, Slovakiya, Belarus, Böyük Britaniya, Gürcüstan, Suriya, Sloveniya, Malayziya, Bəhreyn, Yunanıstan, İspaniya və digər ölkələrin səhnələrində çıxış edərək Anadolu mədəniyyətini dünyaya tanıdıb.

"Xarıbülbül" festivalının iştirakçılarından olan Xalq artisti Natəvan Şeyxova təəssüratlarını AZƏRTAC-la bölüşərkən ölkəmizdə mədəniyyətə, incəsənətə göstərilən diqqət və qayğıdan danışıb. Bildirib ki, mədəniyyətimizin təbliğində bu günlərdə 20 illik yubileyini qeyd edən Heydər Əliyev Fondunun çox böyük rolu var.

Xalq artisti "Xarıbülbül" festivalının Azərbaycanı və onun zəngin mədəniyyətini dünyaya tanıdan böyük bir mədəniyyət hadisəsi olduğunu söyləyib. "Bu gün festivalda müxtəlif xalqların mədəniyyəti, incəsənəti nümayiş olunur. Bu, olduqca mühüm məsələdir. Biz azad Şuşamızda həm də dünyaya böyük bir mədəniyyət nümunəsi təqdim edirik. Hava xoş, Şuşa gözəl, festival da rəngarəng, bundan gözəl nə ola bilər?"

Festivalın iştirakçılarından olan Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev deyib ki, "Xarıbülbül" festivalının böyük tarixi ənənələri var. Bu festival xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlanıb. Bu il 35 yaşını qeyd edən festival ötən müddət ərzində böyük inkişaf yolu keçib və dünyada tanınıb. Çox sevindiricidir ki, biz bu gün həmin ənənələri yaşadırıq. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz torpaqlarımızı düşmən tapdağından azad etdikdən sonra qısa bir zamanda festival öz keçmiş ənənələrini bərpa etdi. Hər il festivala qoşulan ölkələrin musiqi kollektivlərinin sayı artır. Bunun da başlıca səbəbi festivalın təşkilatçısı, Azərbaycan mədəniyyətinin, incəsənətinin yorulmaz təbliğatçısı Heydər Əliyev Fondunun fəaliyyəti ilə bağlıdır. Artıq 20 ildir ki, bu fond Azərbaycan mədəniyyətinin inkişafına, təbliğinə yorulmadan xidmət edir. Əminəm ki, fondun genişmiqyaslı layihələri sayəsində Azərbaycan mədəniyyəti bundan sonra da yeni böyük arenalarda tanınacaq".

Qeyd edək ki, festivalın birinci günündə, həmçinin Hüsnü Şənləndirici (Türkiyə) və Hüseyn Məhəmmədoğlunun (Azərbaycan), Serkan Çağrı (Türkiyə) və Orxan Musayevin, Sənəm Abdolazimzadeh (İran) və Rəşad İlyasovun (Azərbaycan) konsert proqramları təqdim edilib.

Xatırladaq ki, bu il Şuşada və Laçında keçirilən "Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalı mayın 13-dək davam edəcək.

# Baş nazir Əli Əsədov Mixail Mişustini yenidən Rusiya hökumətinin sədri təyin edilməsi münasibətilə təbrik edib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Mixail Mişustini Rusiya Federasiyası Hökumətinin sədri vəzifəsinə təyin edilməsi münasibətilə təbrik edib.**



AZƏRTAC Nazirlər Kabinetinin Mətbuat xidmətinə istinadla xəbər verir ki, Ə.Əsədov təbrik mesajında M.Mişustinin Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında xeyirxah dostluq ənənələrinə, mehriban qonşuluğa və qarşılıqlı hörmətə əsaslanan çoxplanlı münasibətlərin möhkəmləndirilməsinə töhfəsini qeyd edib.

M.Mişustinin başçılıq etdiyi hökumətin fəaliyyətinin gələcəkdə də Azərbaycan ilə Rusiya arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişafına və strateji tərəfdaşlığın dərinləşməsinə kömək edəcəyinə əminlik ifadə olunub.

# Heydər Əliyev Fondu və ICESCO arasında əməkdaşlığa dair memorandum imzalanıb

**Mayın 11-də Şuşada Heydər Əliyev Fondu və ICESCO arasında əməkdaşlığa dair memorandum imzalanıb. Memorandum mədəniyyət, elm və təhsil, yeni texnologiyaların inkişafı sahələrində təcrübə mübadiləsinin aparılmasını, eyni zamanda birgə layihələrin icra olunmasını nəzərdə tutur.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malikin görüşündə ikitərəfli əməkdaşlıq, ICESCO ilə fond arasında ötən müddət ərzində mövcud əlaqələr müzakirə edilib.



Fondun prezidenti Mehriban Əliyevanın ICESCO-nun xoşməramlı səfiri kimi sivilizasiyaların yaxınlaşması, mədəniyyətlərarası dialoq üzrə fəaliyyəti və xidmətləri vurğulanıb.

Görüşdə fondun təhsil və mədəniyyətin inkişafına, Azərbaycanla yanaşı, digər ölkələrdə humanitar sahədəki layihələri, xalqlar və dinlərarası yaxınlaşmaya yönələn fəaliyyəti qeyd olunub. İmzalanan memorandumun əməkdaşlığın gələcək uğuruna zəmin yaradacağı bildirilib. 2024-cü il üzrə islam dünyasının mədəniyyət paytaxtı seçilən Şuşada Heydər Əliyev Fondunun işğaldan sonra tarixi dini və mədəni abidələrin qorunması, bərpası istiqamətində qısa müddətdə apardığı işlərin mədəni-tarixi irsin yaşadılması baxımından əhəmiyyəti qeyd olunub. Bu sahədə də ICESCO ilə əməkdaşlıq müzakirə edilib.

Sonra ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik Şuşada tarixi-dini abidələri ziyarət edib, işğal zamanı burada törədilmiş erməni vandalizminə dair faktlarla tanış olub. Xatırladaq ki, Azərbaycan 50-dən çox müsəlman dövlətinin təmsil olunduğu nüfuzlu beynəlxalq mədəni-humanitar qurum olan ICESCO-nun 1991-ci ildən üzvüdür. 1991-ci ildə qurulmuş bu münasibətlər Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın 2006-cı il noyabrın 24-də ICESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi ilə daha da genişlənib. Təşkilat Azərbaycanda keçirilən bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərdə fəal iştirak edir. Eyni zamanda birinci xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə ISESCO arasında səmərəli əməkdaşlıq qurulub.

# "Qarabağda gördüyüm mina təhlükəsi və dağıntılar məni dəhşətə gətirdi"

**Azərbaycanın İspaniya Krallığındakı səfirliyi tərəfindən ölkəmizə dəvət edilmiş jurnalist-fotoqraf Qervasio Sançez Fernandez Beynəlxalq Avrasiya Mətbuat Fondunda minadan zərərçəkənlərlə görüşüb.**




AZƏRTAC xəbər verir ki, görüşdə 1991-ci ildən bu il mayın 2-dək Azərbaycanda 3438 nəfərin mina qurbanı olduğu ispaniyalı qonağın diqqətinə çatdırılıb. Bildirilib ki, mina qurbanlarından 358 nəfəri uşaq, 38-i isə qadındır. 2020-ci ilin noyabrından bu il aprelin 30-dək ölkəmizdə mina qurbanlarının sayı 359 nəfər təşkil edir. Onlardan 67-si həlak olub, 292 nəfər isə xəsarət alıb. Mina qurbanlarının 179-u mülki şəxs, 180 nəfəri isə hərbi qulluqçudur.

Aprelin 25-dən Azərbaycana gəldiyini diqqətə çatdıran jurnalist-fotoqraf Ağdam, Tərtər, Goranboy, Füzuli rayonlarında minadan zərərçəkən 20-dən çox həmsöhbətinin olduğunu qeyd edib. O, həmçinin Laçında, Zəngilanda, Şuşada, Ağdam və Füzulidə aparılan bərpa-quruculuq işləri ilə də yaxından tanış olub.

Minadan zərərçəkən mülki vətəndaşlarla görüşlər keçirməklə bu məsələni dünya mətbuatında işıqlandırdığını vurğulayan qonaq mina problemi olan 10-a yaxın ölkədə işlədiyini, Azərbaycandakı ab-havanın onu dəhşətə gətirdiyini qeyd edib.

Görüşdən sonra AZƏRTAC-a müsahibə verən Fernandez deyib: "Müharibə zamanı - 1990-cı illərin əvvəllərində Azərbaycana gəlmək istədim. Sadəcə olaraq, həmin dövrdə keçmiş Yuqoslaviyada müharibə baş vermişdi. Bu səbəbdən Azərbaycana səfər edə bilmədim. Qarabağa gəlməyi çox istəyirdim və buna müharibə şəraitində olmasa da, sülh dövründə nail oldum. Ümidvaram ki, sülh hər zaman davam edəcək. Şərtlərindən asılı olmayaraq istənilən sülh sazişi müharibə şəraitindən daha yaxşıdır".

Azərbaycana səfərinin qısa olmasına baxmayaraq, çox məhsuldar fəaliyyət göstərdiyini deyən jurnalist əlavə edib: "Gəlişimin əsas məqsədi piyada əleyhinə minalarla bağlı araşdırma aparmaq, onlar haqqında ümumi məlumat almaq, bununla yanaşı, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) və mina təmizlənməsində iştirak edən qurumların iş prinsiplərini görmək və təhlil etmək, eyni zamanda Qarabağda yenidənqurma işləri ilə tanış olmaq idi. Otuz ildir bu istiqamətdə işləyirəm, bir çox ölkələrdə olmuşam. Qarabağda gördüyüm mina təhlükəsi və dağıntılar məni dəhşətə gətirdi. Məni heyrətləndirən başqa məsələ isə minaya düşənlərin böyük hissəsinin mülki şəxslər olmasıdır. Onların əksəriyyəti kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olarkən minaya düşənlər idilər. ANAMA bu sahədə işini peşəkarlıqla və qətiyyətlə görür, təxminən 2500 nəfərlik komandası ilə ərazidə çox fəal şəkildə işləyir".

Qervasio Sançez Fernandez həmçinin Azərbaycanda minatəmizləmə prosesinə qadınların cəlb edilməsinin əhəmiyyətini vurğulayıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova Millətlər Birliyinin Baş katibinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Millətlər Birliyinin Baş katibi Patrisiya Skotlendin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə qeyd olunub ki, Azərbaycanın Millətlər Birliyi üzvləri ilə ikitərəfli əlaqələri var. Bu səfərin Azərbaycan ilə birlik arasında səmərəli əməkdaşlığın qurulması üçün yaxşı fürsət yaradacağına ümid ifadə olunub.

Söhbət zamanı qeyd edilib ki, Millətlər Birliyinə üzv ölkələrin əksəriyyəti Qoşulmama Hərəkatının üzvləridir. Spiker Sahibə Qafarova Azərbaycan Prezidentinin təşəbbüsü ilə Qoşulmama Hərəkatının həyata keçirdiyi tədbirlərin təşkilatın nüfuzunun daha da artmasına və üzv dövlətlər arasında əməkdaşlıq əlaqələrinin daha da genişlənməsinə töhfələr verdiyini bildirib. Qeyd olunub ki, Azərbaycan sədrliyi dövründə Qoşulmama Hərəkatına üzv olan ölkələrin ehtiyaclarına həmişə xüsusi diqqət yetirib.

Milli Məclisin Sədri Sahibə Qafarova qonaqlara hərəkatın Parlament Şəbəkəsinin yaradılması haqqında məlumat verib. O, 2021-ci ildə keçirilmiş təsis iclasından bəri Parlament Şəbəkəsinin böyüməyə və sıralarına yeni üzvləri qəbul etməyə davam etdiyini, bu gün Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentlərinin yarıdan çoxunun şəbəkədə təmsil olunduğunu bildirib.

Patrisiya Skotlend Azərbaycanın hərəkata sədrliyi dövründə ölkəmizin təşəbbüsü ilə həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək vurğulayıb ki, Azərbaycanın sədrliyi kiçik dövlətlərin səslərinin eşidilməsi üçün yaxşı imkanlar yaradıb.

Sahibə Qafarova qonaqlara Azərbaycan Milli Məclisi, parlamentin beynəlxalq fəaliyyəti haqqında da məlumat verib.

Söhbət zamanı Patrisiya Skotlendin həm də Böyük Britaniya parlamentinin Lordlar Palatasının üzvü olduğu qeyd edilib, Azərbaycanın Birləşmiş Krallıqla əlaqələrə böyük əhəmiyyət verdiyi, bu əlaqələrin ikitərəfli əməkdaşlığın müxtəlif sahələrində dinamik şəkildə inkişaf etdiyi diqqətə çatdırılıb.

Görüşdə bu il ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 haqqında da müzakirələr aparılıb. Spiker Sahibə Qafarova deyib ki, hazırda iqlim dəyişikliyi diqqət yetirilməsi ən önəmli və təcili çağırışlardan biridir. Bu, qlobal cavab tədbirləri və birgə səylər tələb edən bir çağırışdır. Azərbaycanın bu mühüm beynəlxalq tədbirə evsahibliyi etməsi ölkəmizin iqlim dəyişikliyi ilə mübarizədə təkcə milli deyil, həm də regional və qlobal miqyasda göstərdiyi səylərin tanınmasının bariz nümunəsidir. O diqqətə çatdırıb ki, COP29 çərçivəsində Azərbaycan Milli Məclisi Parlamentlərarası İttifaq ilə birlikdə parlament iclası təşkil etməyi planlaşdırır ki, bu görüş çoxtərəfli iqlim fəaliyyətinə parlament töhfəsi olacaq.

Millətlər Birliyinin Baş katibi Azərbaycanı evsahibliyi münasibətilə təbrik edərək ölkəmizin təşkilatçılığı ilə bu tədbirin yüksək səviyyədə keçiriləcəyinə əminliyini ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Almatıda Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında danışıqlar aparılıb





**Mayın 10-11-də Qazaxıstanın Almatı şəhərində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında danışıqlar aparılıb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər delimitasiya üzrə irəliləyişi və bununla bağlı əldə edilmiş razılaşmaları alqışlayıblar. Nazirlər və onların nümayəndə heyətləri "Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında ikitərəfli Saziş" layihəsinin müddəalarının müzakirəsini davam etdiriblər. Tərəflər hələ də fikir ayrılıqlarının mövcud olduğu açıq qalan məsələlər üzrə danışıqları davam etdirməyə razılaşıblar.

Səfər çərçivəsində nazirlər Qazaxıstanın Baş nazirinin müavini - xarici işlər naziri Murat Nurtleu ilə ayrı-ayrılıqda ikitərəfli, o cümlədən üçtərəfli formatda görüşüblər. Nazir Ceyhun Bayramov Azərbaycan ilə Ermənistan arasında danışıqlara evsahibliyi etdiyinə görə Qazaxıstan tərəfinə minnətdarlığını bildirib.

# Əlaqələndirmə Qərargahının növbəti iclası Xankəndi şəhərində keçirilib





**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə qərargahın növbəti iclası Xankəndi şəhərində keçirilib.**



AZƏRTAC xəbər verir ki, iclas iştirakçıları Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Qərargah rəhbəri açılış nitqində bildirib ki, Ulu Öndər Xankəndi şəhərinin inkişafına xüsusi diqqət yetirib. Qeyd edilib ki, Xankəndidəki binaların əksəriyyəti, o cümlədən bugünkü iclasın keçirildiyi Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin yerləşdiyi bina da məhz Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə inşa edilib.

Qərargahın rəhbəri Ulu Öndər Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı Prezident İlham Əliyevin yürütdüyü müdrik siyasətin nəticəsində Azərbaycanın tarixi Qələbə qazandığını və ərazi bütövlüyünün və suverenliyinin hərbi-siyasi yolla tam bərpa edildiyini iclas iştirakçılarının diqqətinə çatdırıb.

Qərargahın rəhbəri bildirib ki, dövlətimizin başçısının rəhbərliyi ilə azad edilmiş bütün ərazilərdə, o cümlədən lokal antiterror tədbirlərindən sonra suverenliyin bərpa edildiyi ərazilərdə sürətli bərpa-quruculuq işləri davam etdirilir və ilin sonunadək köç qrafikinə uyğun müvafiq yaşayış məntəqələrinə əhalinin geri qayıdışı nəzərdə tutulur.

Dövlətimizin başçısının verdiyi tapşırıqlara uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə müasir infrastrukturun yaradılması, o cümlədən ərazilərin milli iqtisadiyyata sürətli reinteqrasiyası və dayanıqlı inkişafının təmin olunması istiqamətində çoxşaxəli layihələrin həyata keçirildiyi bildirilib. Bununla yanaşı, qərargah rəhbəri qeyd edib ki, görülən kompleks tədbirlər geri qayıdan əhalinin layiqli yaşayış şəraitinin yaradılmasına və rifah halının yüksəldilməsinə xidmət edir.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyəti, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında məşğulluğun və məskunlaşmanın təmin edilməsi, iqtisadi aktivliyin və sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, kənd təsərrüfatı sahəsində, yaşayış məntəqələrinin yenidən qurulması və bərpası üzrə görülən işlər barədə məruzələr dinlənilib. Bundan əlavə, həmin ərazilərdə sosial infrastrukturun, o cümlədən səhiyyə və təhsil müəssisələrinin tikintisi və işinin təşkilinə dair məlumatlar təqdim edilib.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin fəaliyyəti çərçivəsində görülən işlər və qarşıda duran vəzifələr barədə Prezidentin xüsusi nümayəndəsi çıxış edib.

Qərargahın rəhbəri işğaldan azad olunmuş ərazilərə bu ilin sonunadək 27 yaşayış məntəqəsi üzrə geri qayıdacaq əhalinin sayının ümumilikdə 25 min nəfərdən çox olacağını və növbəti illərdə bu rəqəmin getdikcə artacağını diqqətə çatdıraraq, "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində görülən işlərin keyfiyyətli, vaxtında və əlaqələndirilmiş şəkildə icrasının vacibliyini xüsusi vurğulayıb.

İclasın sonunda Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulan vəzifələrin icrasından irəli gələrək müvafiq tapşırıqlar verilib.

İclasdan sonra Xankəndi və Xocalı şəhərlərində, həmçinin Əsgəran qəsəbəsində müvafiq ərazilərə və bir sıra obyektlərə baxış keçirilib.

# *Müdafiə naziri:* "Hərbi Hava Qüvvələrinin fəaliyyəti hər zaman yüksək qiymətləndirilib"

**Mayın 11-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə toplantı keçirilib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla anılıb.

Müdafiə naziri mayın 10-da Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Şuşada birinci yaşayış kompleksinin açılışı zamanı şəhərə köçmüş ilk sakinlərlə görüşündəki çıxışından irəli gələn tapşırıqları toplantı iştirakçılarına çatdırıb.

Ali Baş Komandanın çıxışının Azərbaycan Ordusunda bütün şəxsi heyətə çatdırılmasının əhəmiyyətini qeyd edən nazir bununla bağlı aidiyyəti üzrə müvafiq göstərişlər verib. Sonra Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirovun hərbi xidmətdə olmağın son yaş həddi nəzərə alınmaqla ehtiyata buraxılması ilə bağlı müvafiq sərəncamı çatdırılıb.

Müdafiə naziri Azərbaycan Ordusunun digər qoşun növləri kimi, Hərbi Hava Qüvvələrinin də Vətən müharibəsi və digər əməliyyatlarda fəaliyyətinin Ali Baş Komandan tərəfindən hər zaman yüksək qiymətləndirildiyini xüsusi vurğulayıb.

Bildirilib ki, dövlət başçısının tələblərinə uyğun olaraq son dövrlərdə Hərbi Hava Qüvvələrinin inkişafı istiqamətində mühüm addımlar atılıb və hərbi potensialı daha da artırılıb. Silahlanmaya müasir tələblərə cavab verən yeni aviasiya və pilotsuz uçuş aparatlarının qəbul edilməsi, peşəkar hərbi qulluqçuların, pilotların hazırlanmasının ordu quruculuğu istiqamətində aparılan uğurlu islahatların bariz nümunələrindən olduğu diqqətə çatdırılıb.

Xidməti vəzifələrini layiqincə yerinə yetirdiklərinə görə, Hərbi Hava Qüvvələrinin komandanı və şəxsi heyəti dəfələrlə Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə müxtəlif mükafat və medallara layiq görülüb.

Müdafiə Nazirliyinin rəhbər heyəti Azərbaycan Ordusunda uzunmüddətli qüsursuz xidməti, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyünün qorunub saxlanılmasında və hərbi xidmətdə xüsusi xidmətinə görə general-leytenant R.Tahirova təşəkkür edib və ona gələcək həyatında uğurlar arzulayıb.

General-leytenant R.Tahirov isə öz növbəsində xidmət etdiyi müddət ərzində göstərilən etimada görə Ali Baş Komandana və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq ifadə edərək bundan sonra da fəaliyyətlərində dövlətçilik ənənələrinə sadiq qalacağını bildirib.

# Hərbi vəzifəlilərin təlim toplanışında növbəti tapşırıqlar icra edilir

**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2024-cü il üçün hazırlıq planına əsasən, hərbi hissələrdə bir qrup hərbi vəzifəlilərin iştirakı ilə keçirilən təlim toplanışında növbəti fəaliyyətlər icra edilir.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, təlim çərçivəsində şəxsi heyətlə maarifləndirici söhbətlər aparılır, hərbi nizamnamələr, atəş, sıra, hüquq, mühəndis, rabitə, hərbi tibbi hazırlıq üzrə məşğələlər və digər dərslər keçirilir.

Təlim toplanışı zamanı ehtiyatdan çağırılan hərbi vəzifəlilərin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsinə, hərbi vərdişlərinin, bilik və bacarıqlarının təkmilləşdirilməsinə yönələn fəaliyyətlər icra olunur, eyni zamanda ordumuzun arsenalındakı müasir silah və hərbi texnikanın istismar qaydaları öyrədilir.



# "İlham Əliyevin cəsarətli baxışına çox gözəl bələdəm"

## *Bolqarıstan Prezidenti Rumen RADEV:*

## "O, Azərbaycanı dinamik şəkildə inkişaf etdirmək əzmindədir"

**Son illərdə Mərkəzi və Şərqi Avropa ölkələri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin vacib istiqamətlərindən biridir. Eləcə də bir çox Qərb ölkələri Avropanın enerji təminatında getdikcə daha mühüm rol oynayan Azərbaycanla əməkdaşlıqlarını daha da dərinləşdirməkdə maraqlıdırlar. Bu ölkələrdən biri də Bolqarıstandır.**

İki dost ölkə arasında münasibətlər hər zaman yüksək səviyyədə olub və müsbət dinamikası ilə seçilib. Mayın 8-də Bolqarıstan Prezidenti Rumen Radevin ölkəmizə səfəri, Prezident İlham Əliyevlə aparılan danışıqlar, imzalanan sənədlər, dövlət başçılarının bəyanatları isə onu deməyə əsas verdi ki, strateji tərəfdaşlıq getdikcə daha da güclənir.

### 32 illik uğurlu diplomatik münasibətlər

Azərbaycan və Bolqarıstan arasında əlaqələrin zəngin tarixi var. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il iyunun 5-də qurulub. 1999-cu ilin dekabrında Bolqarıstanın Azərbaycanda səfirliyi fəaliyyətə başlayıb. 16 aprel 2004-cü ildə Prezident İlham Əliyev Bolqarıstanda Azərbaycan səfirliyinin açılması haqqında sərəncam imzalayıb. 2005-ci ildə Azərbaycanın Sofiyada səfirliyi fəaliyyətə başlayıb.

Qarşılıqlı hörmət və etimad üzərində qurulmuş Azərbaycan-Bolqarıstan əlaqələri ötən müddət ərzində siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə dinamik şəkildə inkişaf edib və ölkələrimiz arasında səmərəli əməkdaşlıq formalaşıb. İki ölkə arasında 65 sənəd imzalanıb. Bolqarıstan Azərbaycanı Cənubi Qafqazda və Qara dəniz regionunda prioritet, strateji və etibarlı tərəfdaş hesab edir.

İki ölkə arasında ticarət, nəqliyyat, xüsusilə yük daşımaları, sərmayələr, yüksək texnologiyalar, turizm və digər sahələrdə əməkdaşlığın inkişafı üçün geniş perspektivlər mövcuddur. Prezident İlham Əliyevin 2015-ci ildə paytaxt Sofiyaya rəsmi səfəri zamanı imzalanmış "Strateji tərəfdaşlıq haqqında" Birgə Bəyannamə ilə münasibətlər keyfiyyətcə daha yeni səciyyə qazanıb. Bu mühüm sənədlə tərəflər qarşılıqlı maraq doğuran sahələrdə həm ikitərəfli formatda, həm də beynəlxalq aləmdə iki ölkə arasında əməkdaşlığı dərinləşdirmək və genişləndirmək məqsədilə strateji tərəfdaşlığa daxil olduqlarını bəyan ediblər. Birgə Bəyannaməyə əsasən, xarici işlər nazirlərinin sədrliyi ilə Azərbaycan-Bolqarıstan Strateji Dialoqu təsis olunub.

### 153 milyon dollara çatan qarşılıqlı ticarət dövriyyəsi

Bu ilin birinci rübündə Azərbaycan ilə Bolqarıstan arasında qarşılıqlı ticarət dövriyyəsi təxminən 4 dəfə artaraq 153 milyon dollara çatıb.

Bolqarıstan və Azərbaycan Avropa İttifaqının ümumi dəyəri 2,1 milyon avro olan iki tvininq layihəsində birgə iştirak edib ki, bu da Azərbaycanın müxtəlif istiqamətlərdə əməkdaşlığa və tərəfdaşlığa sadiqliyini nümayiş etdirir.

Azərbaycanın Bolqarıstana ixracı da 4 dəfədən çox artaraq 146 milyon dollar təşkil edib. Dövlətlərimiz arasındakı əməkdaşlıq ənənəvi olaraq ticarət və investisiya fəaliyyətlərindən kənara çıxır. Hazırda Azərbaycanda 15 Bolqarıstan şirkəti fəaliyyət göstərir.

Mayın 8-də Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizə rəsmi səfəri iki ölkə arasında əlaqələrin daha da genişlənməsinə təkan verəcək. Səfər çərçivəsində imzalanan 4 sənəd qarşılıqlı hörmət və etimada əsaslanaraq siyasi, iqtisadi, enerji, mədəni və digər sahələri əhatə edən əlaqələrin sürətlə inkişaf edəcəyini söyləməyə əsas verir.

### Azərbaycanın Bolqarıstana qaz təchizatı artır

Dövlət başçılarının görüşü zamanı İlham Əliyev vurğlayıb ki, hazırda Bolqarıstan və Azərbaycan enerji təhlükəsizliyi məsələləri üzərində sıx şəkildə çalışır. Azərbaycanın Bolqarıstana qaz təchizatı artır. Bu il də artım müşahidə ediləcək.

Mətbuata bəyanatında isə İlham Əliyev iki ölkə arasında enerji ixracından danışaraq qeyd edib ki, keçən il 1 milyard 250 milyon kubmetr Azərbaycan qazı Bolqarıstan bazarına nəql edilib. 2022-ci ildə bu rəqəm cəmi 600 milyon kubmetr olub. Bu ilin sonuna qədər 1,5 milyard kubmetr Azərbaycan qazı dost ölkəyə ixrac ediləcək. Bu da Bolqarıstanın qaz istehlakının təqribən 50 faizini təşkil edir: "Yəni bu gün Azərbaycan Avropa Komissiyasının dili ilə desək, Panavropa qaz təchizatçısı kimi fəaliyyətini Avropa məkanında genişləndirir və enerji təhlükəsizliyi məsələlərinin həlli üçün öz dəstəyini əsirgəmir".

Prezident həmçinin vurğulayıb ki, Bolqarıstan eyni zamanda qaz nəqli istiqamətində önəmli tranzit ölkəyə çevrilib. Hazırda Azərbaycan qazı Bolqarıstan ərazisindən digər qonşu ölkələrə ixrac edilir və şübhəsiz ki, gələcəkdə bu ölkələrin sayı daha da artacaq.

### Enerji sahəsində əməkdaşlıq daha da dərinləşir

Azərbaycan Prezidenti "yaşıl enerji" ixracı məsələsinə də toxunub: "Bu gün biz bir layihəni də müzakirə etdik, o da "yaşıl enerji" kabelidir. Bildiyiniz kimi, Azərbaycan tərəfdaş ölkələrlə, o cümlədən Bolqarıstanla bu istiqamətdə çox fəal iş aparır. Hesab edirik ki, bir neçə aydan sonra hazır olacaq texniki-iqtisadi əsaslandırma işlərin başlanması üçün gözəl zəmin olacaq. Beləliklə, Azərbaycan Avropa məkanı üçün təkcə neft-qaz təchizatçısı kimi deyil, eyni zamanda "yaşıl enerji" təchizatçısı kimi özünü göstərəcək".

Bolqarıstan Prezidenti Rumen Radev isə qeyd edib ki, iki ölkə arasındakı əlaqələr, liderlərin yüksək səviyyədə olan siyasi dialoqu təkcə ölkələrimizin deyil, Qafqazın və Qara dəniz hövzəsinin iqtisadi firavanlığını təmin edir, həmçinin Avropanın enerji təhlükəsizliyinə töhfə verir. Azərbaycan Bolqarıstan üçün enerji sahəsində mühüm, həlledici tərəfdaşa çevrilib və bu ölkənin qaz təchizatının şaxələndirilməsində vacib rol oynayır.

2022-ci ilin payızında Prezident Əliyevin iştirakı ilə Sofiya şəhərində Yunanıstanla Bolqarıstan arasında qaz şəbəkəsindən istifadə edilməsi mərasimini xatırlayaraq bildirib ki, bu proseslə "Cənub qaz dəhlizi" Mərkəzi və Şərqi Avropaya birləşib.

Bundan sonra İlham Əliyev bir daha Bolqarıstana səfər edib və orada yeni "Həmrəylik halqası" adlanan Memorandum imzalanıb. Bu layihəyə əsasən, Azərbaycan qazının Bolqarıstan, Ruminiya, Macarıstan, Slovakiyaya ixracı nəzərdə tutulur: "Bu da bütün regionun təhlükəsizliyi üçün vacib bir məsələdir. Biz eyni zamanda Sofiyada SOCAR-ın ofisinin birlikdə açılışını etdik. Bu da onun göstəricisi idi ki, biz enerji sahəsində əməkdaşlığı dərinləşdirmək əzmindəyik".

Prezident İlham Əliyevi artıq yeddi ildən çoxdur ki, tanıdığını söyləyən Rumen Radev vurğulayıb ki, Azərbaycanın dövlət başçısının cəsarətli baxışına şahiddir, ona çox gözəl bələddir: "İlham Əliyev Azərbaycanı dinamik şəkildə inkişaf etdirmək əzmindədir. "Yaşıl enerji" layihələri bunun bariz nümunəsidir. Bununla yanaşı, onun fəal diplomatiyası da imkan verdi ki, bu gün biz beynəlxalq səviyyədə sülh və təhlükəsizlik, sabitlik haqqında danışaq. Ona görə mənə heç də təəccüblü gəlmədi ki, Azərbaycan COP29 kimi olduqca mötəbər bir tədbirə ev sahibi seçildi. Biz Bolqarıstan olaraq o zaman Azərbaycanın namizədliyini qəti şəkildə dəstəklədik. Biz də öz növbəmizdə institusional və ekspert səviyyəsində COP29-a dəstək verməyə hazırıq".

Göründüyü kimi, Bolqarıstan Azərbaycanla hərtərəfli əməkdaşlığa böyük önəm verir. İki ölkənin təşəbbüsü ilə reallaşan enerji layihələri Avropanın enerji təchizatında mühüm rol oynayır. Prezident Rumen Radevin bu səfəri zamanı imzalanan "Azərbaycan və Bolqarıstan arasında strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Birgə Bəyannamə" ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsinə və dərinləşdirilməsinə vacib töhfə verəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# İlham Əliyev xəbərdarlığını etdi:

## "Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar peşman olacaqlar"



**Xalqımızın əlamətdar günləri, parlaq zəfərləri təntənəli şəkildə qeyd etdiyi tarixi hadisələrdən biri də mayın 10-da - Ulu Öndərin 101-ci doğum günündə Şuşada yaşandı. Prezident İlham Əliyev qala şəhərimizin əzəli sakinləri ilə doğma yurdlarında görüşərək onların qayıdış sevinclərini bölüşdü. Azərbaycanın dostlarına sevinc bəxş edən, düşmənlərinə göz dağı olan bu görüş zamanı Qalib Lider İlham Əliyev həm də Qarabağın Şuşa zirvəsindən bütün dünyaya mühüm mesajlar çatdırdı, vacib ismarıclar göndərdi, sərt xəbərdarlıqlar etdi.**

Prezident qətiyyətlə bildirdi ki, Azərbaycan Cənubi Qafqazın lider ölkəsidir və Bakının rəyi öyrənilmədən, maraqları nəzərə alınmadan bölgədə hər hansı addımın atılması mümkünsüzdür: "Burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır. Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar peşman olacaqlar".

### Bir tələblə 4 kənd qaytarılır

Dövlət başçısının Şuşadan bəyan etdiyi kimi, "dəmir yumruq" danışıqlar yolu ilə dalana dirənmiş münaqişəni bir həmləsi ilə çözdü. Biz illərdir dünyada davam edən bu tip münaqişələrin həlli üçün mükəmməl nümunə ortaya qoyaraq göstərdik ki, əgər münaqişələr danışıqlar yolu ilə həll edilə bilmirsə, çıxış yolu güc variantıdır və bunun sayəsində sülhə də nail olmaq mümkündür.

Onilliklərboyu xarici himayədarlarına güvənərək Azərbaycana qarşı işğal siyasəti yürüdən, ərazilərimizə qarşı iddiadan əl çəkmək istəməyən Ermənistan bu çirkin siyasətini 44 günlük müharibədən və 23 saatlıq antiterror tədbirlərindən sonra da davam etdirməyə çalışdı. Amma Azərbaycanın qətiyyətli siyasəti, hərbi gücü qarşısında heç nə edə bilməyəcəyini, hətta bölgədə maraqları olan havadarlarından da ona bir kömək olmayacağını anlayaraq Bakının təklif etdiyi sülh modelini qəbul etməyin yeganə çıxış yolu olduğunu başa düşdü.

Artıq iki ölkə vasitəçilərə ehtiyac görmədən dialoqlara başlayıb, bəzi məsələlərdə razılaşmalar əldə edilib. Birbaşa danışıqların aparılması sayəsində sülh sazişinin imzalanması ilə bağlı real müstəvidə də mühüm nəticələr əldə olunub. Belə ki, artıq sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə start verilib, sərhəd dirəklərinin quraşdırılmasına başlanılıb. Razılaşmaya əsasən, Qazax rayonunun işğal altında olan kəndləri - Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndləri azad edilir. Tarixi kəndlərimizin bir güllə atılmadan, bir itki verilmədən qaytarılması Azərbaycanın növbəti tarixi zəfəridir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin tələbi ilə hələ Vətən müharibəsi zamanı kapitulyasiyaya, məğlubiyyət aktına imza atan düşmən Ağdamı, Kəlbəcəri, Laçını bir güllə atılmadan qaytarmışdı.

Məhz Prezident İlham Əliyevin şəxsi əzmi, siyasi qətiyyəti, sərrast diplomatik gedişləri sayəsində düşmən də, ona arxa duran qüvvələr də ayağımıza gəlib. Son olaraq Qazaxın kəndlərinin azad edilməsinin timsalında da aydın görünür ki, qalib lider İlham Əliyevin bir sözü belə kifayət edir ki, tələbi dərhal və qeyd-şərtsiz yerinə yetirilsin.

Mayın 10-da Şuşada dövlət başçısı da vurğuladı ki, düşmənə öz yerini göstərdik və bu gün düşmən bizim qarşımızda acizdir: "Bu gün təkcə bizim tələbimizlə heç bir başqa, necə deyərlər, vasitəyə əl atmadan Qazaxın dörd kəndi bizə qaytarılır. Bir tələbimlə qaytarılır, bax, belə də olmalıdır".

### Bakının iradəsindən kənar bölgədə heç bir məsələ həll oluna bilməz

Azərbaycan ərazilərinin 20 faizinin 30 ilə yaxın işğal altında qalması beynəlxalq ictimaiyyəti bir dəfə də olsun narahat etmədi. Vasitəçi adı altında prosesdə iştirak edən ölkələr isə riyakarlıq nümayiş etdirərək Ermənistanın işğal siyasətinə dəstək verdilər. Azərbaycanın haqqını heçə saydılar. Xüsusilə Fransa bu mənfur planın həyata keçirilməsi üçün səy göstərdi.

Ölkəmizin BMT TŞ-nin qəbul etdiyi 4 qətnaməsini güc yolu ilə hərb meydanında yerinə yetirməsini, Cənubi Qafqazda yeni reallıqlar yaratmasını həzm edə bilməyən ikili standartlı Qərb dövlətləri yenə də Fransa və ABŞ-nin başçılığı altında bizə qarşı qarayaxma kampaniyasına start verdilər, qərəzli beynəlxalq təşkilatlar vasitəsilə qətnamələr qəbul etməyə, ölkəmizə qarşı sanksiyaların qəbuluna çalışdılar.

İrəvan sözügedən xarici himayədarlarının fitvası, şirnikləndirici vədləri ilə 10 noyabr bəyanatının bəndlərini yerinə yetirməkdən yayınır, Qarabağdakı separatçılara dəstək verirdi. Lakin "dəmir yumruq" buna imkan vermədi və Ermənistana, dünya erməniçiliyinə sarsıdıcı zərbə endirərək Qarabağda quldur yuvasını dağıtdı.

Azərbaycanın qazandığı qələbələr və ərazisində separatizmin kökünü kəsməsi sayəsində Cənubi Qafqazda münaqişələrdən uzaq, təhlükəsiz həyat vəd edən sülh üçün münbit tarixi şərait formalaşıb. Amma bu, bölgədə müharibə ssenarisi gerçəkləşdirmək istəyən Qərb üçün barış arzuolunmaz vəziyyətdir və buna görə də ölkəmizin sülh təşəbbüslərinə vaxtaşırı kölgə salmaq istəyirlər. Həmçinin Ermənistana dəstək verərək, silahlandıraraq revanşa qızışdırırlar.

"Bu gün də baxın bizə qarşı, kimlər, necə deyərlər, əsas rol oynayırlar - Fransa və Amerika. Bunu açıq demək lazımdır, daha çox Fransa. Onlar da bilməlidirlər ki, bizim iradəmizdən kənar bu bölgədə heç bir məsələ həll olunası deyil", - deyə Şuşadakı görüş zamanı Prezident İlham Əliyev altını cızdı ki, əgər bu gün yenə də görsək ki, Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin.

Dövlət başçısı onu da vurğuladı ki, hər kəs bilir ki, biz nəyə qadirik, ordumuz nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir. Heç kim bizim qabağımızda dura bilməz. Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz. Nəyi lazım biliriksə, onu da edəcəyik.

### İlham ƏLİYEV: "Mən nəyi deyirəmsə, onu da edirəm"

Postmünaqişə dövründə sülhə nail olunması üçün fəal iş həyata keçirən Azərbaycan Ermənistana təkmil sülh modeli təklif edib. Son vaxtlarda iki ölkə arasında bu istiqamətdə mühüm addımlar atılır.

Sərhədlərin delimitasiya və demarkasiyasının aparılması, eyni zamanda iki ölkə XİN rəhbərlərinin ardıcıl görüşləri də sülh müqaviləsinin imzalanmasına doğru irəliləyişlərin olduğunu göstərir.

Bu faktdır ki, sülh müqaviləsinin imzalanması Ermənistanı dalan ölkə olmaqdan qurtaracaq. Nəhayət ki, Ermənistan beynəlxalq hüquqla müəyyənləşmiş sərhədləri çərçivəsində onilliklərdən sonra rahat və təhlükəsiz bir şəraitdə yaşamağa başlaya bilər. Amma bu ölkə yenə də xarici himayədarlarına güvənərək bu prosesdən uzaqlaşmağa çalışsa, nəticəsi İrəvanın özü üçün çox ağır olacaq.

Necə ki, mayın 10-da Müzəffər Lider İlham Əliyev bu barədə Qarabağdan qətiyyətlə xəbərdarlığını etdi: "İkinci Qarabağ müharibəsindən sonra biz Ermənistana demişik ki, gəlin, sərhədi ədalətli müəyyən eləyək. Yox, istəmirsinizsə, onda biz deyəcəyik, harada istəyirik orada da sərhəd olacaq. Neyləyəcək, kimə zəng edəcək, lap 100 dəfə zəng etsin, nəticəsi nə olacaq?

...Bu bölgəyə maraq göstərənlərə bir daha demək istəyirəm ki, bizimlə hesablaşmadan burada bir addım da atılmamalıdır bundan sonra. Əminəm ki, mənim sözümü eşidirlər, bilirlər, mən nəyi deyirəmsə, onu da edirəm".



*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

## İcma sədri: "Fransa səfirinin dediklərinə erməni təəssübkeşliyi kontekstində baxmaq lazımdır"



*"Fransanın Ermənistandakı səfiri, azərbaycanofob Olivier Dekotini aydındır ki, çıxış və bəyanatlarında hər dəfə öz hökumətinin və özlərinin yeni koloniyaları kimi hədəflədikləri Ermənistanın mövqeyini ifadə edir. Amma anlamır ki, bununla həm də hər "iki bacı"nın Azərbaycana və regiona dair gizli niyyətlərini faş edir. "Azadlıq" radiosunun erməni xidmətinə 2024-cü il mayın 8-də verdiyi müsahibəsində də səfir Azərbaycanın guya Ermənistan ərazilərini işğal altında saxladığını və hücum niyyətində olduğunu iddia etməklə bölgədə planlaşdırdıqları təxribatların anonsunu verir. Belə ki, ermənilərin xasiyyətinə az-çox bələd olan hər kəs bilir ki, əgər onlar qarşısındakını nədə, hansı hərəkətdə ittiham edirlərsə, o hərəkəti ya ediblər, ya da etməyə hazırlaşırlar. Məsələn, əgər "1915-ci ildə Osmanlı bizi soyqırımı etdi" deyirlərsə, deməli, soyqırımını özləri ediblər. Əgər "Qarabağdan erməniləri etnik təmizləməyə məruz qoyublar" deyirlərsə, bu, özlərinin 1987-1991-ci illərdə Qərbi Azərbaycanda soydaşlarımızı etnik təmizləməyə məruz qoyduqlarını örtbasdır eləmək üçündür və s".*

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının sədri, Milli Məclisin deputatı Əziz Ələkbərlinin "Fransa səfirinin erməni təəssübkeşliyi" adlı məqaləsində yer alıb.

"İndi də əgər hər hansı bir erməni siyasətçisi və ya onun "əkiz bacısı" Olivier Dekotini deyirsə ki, Azərbaycan Ermənistana hücum edəcək, yüz faiz bilmək lazımdır ki, ya sürətlə silahlanan Ermənistan Azərbaycana belə bir hücuma hazırlaşır, ya da onu sürətlə silahlandıran Fransa Ermənistanın Azərbaycana hücum etməsinə çalışır.

O ki qaldı Dekotininin Azərbaycanın Qarabağ bölgəsindən köçüb getmiş ermənilərin qayıdışı ilə bağlı beynəlxalq instansiyaların guya dəstəyinin olmasına dair sərsəmləməsinə və səfir Ann Buyonun harada olması barədə suala verdiyi cavaba - bütün bunlara da yuxarıda qeyd etdiyimiz erməni təəssübkeşliyi kontekstində baxmaq lazımdır.

Fransız səfir bir şeyi anlamalıdır ki, bu gün bölgə bir reallıq qarşısındadır: bitmiş və tarixin arxivinə göndərilmiş Qarabağ müharibəsinin ilk mərhələsində və bu müharibənin tərkib hissəsi kimi ata-baba yurdlarından qovulmuş azərbaycanlıların geriyə - indiki Ermənistan ərazisindəki doğma ocaqlarına qayıdışını təmin etmək, buna kömək göstərmək. Bunu istəyənlər və buna kömək edənlər bölgədə öz varlığını təmin edə bilər, buna qarşı çıxanların bölgədə nə yeri olacaq, nə də izi-tozu", - deyə Əziz Ələkbərli bildirib.

## Delimitasiya və demarkasiya prosesində müsbət dinamika müşahidə edilir

**"Ermənistan və Azərbaycan arasında delimitasiya və demarkasiya prosesi bu günə qədər ardıcıl davam edir. Prosesdə müsbət dinamika müşahidə edilir. Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın elan etdiyi kimi, görünür, Qazaxın geri qaytarılan dörd kəndinin ərazisini təşkil edən delimitasiya və demarkasiya işləri mayın 15-nə qədər başa çatdırılacaq".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Hikmət Məmmədov söyləyib. Deputat bildirib ki, Qazaxın kəndləri ilə başlanan proses sonrakı mərhələdə digər ərazilərin delimitasiya və demarkasiyası üçün də yaxşı təcrübə ola bilər: "Ermənistan qətiyyət nümayiş etdirərsə, bu prosesi daha da irəliyə aparmaq mümkündür. Yetər ki, Ermənistan diplomatiyası prosesin hansısa mərhələsində fikrini dəyişməsin. Nəzərə almaq lazımdır ki, Ermənistanın bu gün səsləndirdiyi fikrini sabah inkar etməsi faktı ilə dəfələrlə üz-üzə qalmışıq. Məhz bunun nəticəsidir ki, Vətən müharibəsinin başa çatmasından ötən 4 ilə yaxın müddətdə Azərbaycanla Ermənistan arasında hələ də yekun sülhə nail olunmayıb".

Deputat deyib ki, indiki məqamda irəliyə doğru hərəkət etmək, sülhün əldə olunması istiqamətində ciddi addımlar atmaq mümkündür: "Noyabr ayında, COP29 tədbirinə qədər çərçivə sazişi imzalana bilər. Lakin nəzərə almaq lazımdır ki, ikitərəfli komissiyanın qeyd etdiyi kimi, delimitasiya və demarkasiya hüquq yaradan sənədlər və xəritələr üzərində aparılmalıdır. Bundan sonra baş tutan danışıqlar çərçivəsində mövqelərin daha da yaxınlaşması müşahidə edilərsə, delimitasiya və demarkasiya prosesi də eyni temp və eyni qərarlılıqla irəliləyə bilər".

Hikmət Məmmədov vurğulayıb ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan sülh prosesində delimitasiya prosesinin Azərbaycanın təklif etdiyi şərtlər üzrə aparılması sevindirici haldır: "Bakının mövqeyi hüquqi cəhətdən qanuni, praktiki cəhətdən səmərəlidir. Onu da nəzərə almaq lazımdır ki, dünya təcrübəsi delimitasiya və demarkasiyanın uzun sürən, mürəkkəb bir proses olduğunu göstərir. Lakin bu məsələ ilə məşğul olan komissiyaların sayca 8-ci iclasında işğalda olan 4 kəndimizin dinc yolla qaytarılması barədə razılığa gəlinməsi bu prosesin daha qısa vaxtda tamamlanacağı barədə nikbin düşünməyə əsas verir".

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

## Qətiyyətin təcəssümü

**"Prezident İlham Əliyevin bütün çıxışları kimi, mayın 10-da Şuşadan səsləndirdiyi bəyanatlar da yaddaqalan və əhəmiyyətli məqamlarla zəngin idi. Dövlət başçısı Şuşaya qayıdan ilk sakinlərə mənzillərin açarlarının təqdim edilməsi mərasimində dedi ki, biz heç vaxt müharibə istəməmişik, bu gün də istəmirik. Prezident bir daha bəyan etdi ki, Qafqazda iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət Azərbaycan olduğuna görə, hər kəs bizimlə hesablaşmalıdır. Bu baxımdan Prezidentin bu nitqini Şuşadan siyasi cəsarət və qətiyyət nümayişi də adlandırmaq olar".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, Prezidentin çıxışı zamanı toxunduğu məsələlər çox mühüm əhəmiyyət kəsb edir: "İlk növbədə məcburi köçkünlərin doğma yurdlarına qayıdışı xalqımızı çox sevindirir. Biz bütün dünyaya sübut etdik ki, müharibədə qətiyyətlə qalib gəldiyimiz kimi, dinc quruculuq və bərpa işlərini də layiqincə və sürətli şəkildə həyata keçiririk. Elə mayın 10-da Şuşaya 20 ailənin köçürülməsi də bunun bariz nümunəsidir. Dövlət başçısı çıxışında qeyd etdiyi kimi, biz azad edilmiş bütün torpaqlarda genişmiqyaslı proqramları icra edirik. Prezident vurğuladı ki, "bu gün artıq Şuşa altıncı yaşayış yeridir ki, keçmiş köçkünlər buraya qayıdır". Dost ölkələrin müəyyən dəstəyinə baxmayaraq, Azərbaycanın təkbaşına reallaşdırdığı bu nəhəng işlər ölkəmizin dünyadakı nüfuzunu durmadan artırır".

Deputat qeyd edib ki, dövlət başçısının çıxışı mühüm tövsiyələr və vacib mesajlarla zəngin idi: "Prezidentin Azərbaycan xalqının, igid oğullarının bu gün dillərə dastan olan qəhrəmanlığına və fədakarlığına da diqqət çəkməsi xüsusilə qiymətlidir. Azərbaycan əsgərinin Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilməsi uğrunda sərgilədiyi qəhrəmanlığı sözlərlə ifadə etmək mümkün deyil. Təkcə Şuşada igid oğullarımızın keçilməz qayaları aşaraq düşmənə qan uddurması faktları kifayətdir ki, xalqımızın Vətən sevgisinin nə qədər güclü olduğunu sübut edək. Bu məqamda Prezident İlham Əliyevin Şuşadan bəyan etdiyi fikirləri də xatırlamaq yerinə düşər. "Çünki biz öz haqqımızı danışıqlar yolu ilə yox, kiminsə güzəşti hesabına yox, döyüş meydanında bərpa etdik, şəhərlərimizi, kəndlərimizi azad etdik, qan tökdük, şəhidlər verdik" deyən dövlət başçısının bildirdiyi kimi, bütün Azərbaycan xalqı 44 gün ərzində bir yumruğa dönərək birləşmişdi".

Arzu Nağıyev dövlət başçısı tərəfindən Şuşadan səsləndirilən sülh çağırışlarına da diqqət çəkib. Qeyd edib ki, Prezidentin fikirləri hazırda Azərbaycanla Ermənistan arasında sülh prosesinə mane olmaq istəyənlərə, xüsusilə də revanşist qüvvələr və onların havadarlarına ciddi xəbərdarlıqdır. Müsahibimizin sözlərinə görə, Azərbaycanı bütün platformalarda dünyaya mütləq şəkildə tanıtmağımız bizim uğurlu, müstəqil daxili və xarici siyasətimizin bəhrəsidir. Təsadüfi deyil ki, Azərbaycan həm döyüş meydanında, həm diplomatiyada, həm də informasiya müharibəsində erməni vandallarını diz çökdürdü.

Deputat yekunda vurğulayıb ki, Prezidentin bu çıxışı da əvvəlkilər kimi xüsusi əhəmiyyətə malikdir və bizim yol xəritəmizdir: "Biz bu gün olduğu kimi, gələcəkdə də öz daxili və xarici siyasətimizi məhz bu xətt üzrə qurmağa nail olmalıyıq".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

## Gürcüstan Azərbaycandan nümunə götürür

**"ABŞ başda olmaqla, bir sıra Qərb dövlətlərinin Gürcüstan ssenarisi ölkədə çox ciddi qarşıdurmaya gətirib çıxarıb, səfərbər olunmuş cəmiyyət parçalanıb, vətəndaş həmrəyliyi pozulub. Gürcüstan parlamentinin qəbul etdiyi "Xarici agentlər haqqında" qanun da Qərbin Gürcüstan hakimiyyətini özündən asılı vəziyyətə salmaq cəhdlərinin qarşısını almaq məqsədi daşıyır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat qeyd edib ki, Qərbin bu oyununun arxasında öz strateji maraqları dayanır: "Birmənalı şəkildə Cənubi Qafqazda möhkəmlənmək niyyəti güdən Qərb indiki məqamı olduqca əlverişli hesab edir. Çünki Rusiyanın Cənubi Qafqazdan sıxışdırılıb çıxarılması üçün yaxşı imkanlar açılıb. Bu məqsədlə Gürcüstanı hədəf seçən Qərb orada maliyyələşdirdikləri vətəndaş cəmiyyəti institutlarından tələb edirlər ki, küçələrə çıxıb, Gürcüstan hökumətinə qarşı etirazlarını ifadə etsinlər. Üstəlik, gürcüləri arxayın edirlər ki, onların arxasında dayanıb xalqa istənilən dəstəyi verəcəklər. Gürcüstandakı real mənzərə bundan ibarətdir".

Deputatın sözlərinə görə, ABŞ-də "Xarici agentlərin qeydiyyatı haqqında" akt mövcuddur. Yəni belə bir qanunun qəbul edilməsi, əslində, Gürcüstanın kəşfi deyil. Qərbin niyyəti tamam başqadır, onlar Gürcüstandakı mövcud hakimiyyətin ancaq Qərbin diktəsi altında fəaliyyət göstərməsinə çalışırlar.

"Qərb Gürcüstanın öz milli maraqlarını kənara qoymasına, müstəqil siyasət yürütməməsinə və anti-Rusiya siyasəti reallaşdırmasına niyyətlənib. Elə 2004-cü ildə Saakaşvili də eyni məqsədlə hakimiyyətə gətirilmişdi. 2008-ci ildə Rusiya ilə məlum qarşıdurma vəziyyəti yarandıqda isə Saakaşvili hakimiyyətinə Qərb tərəfindən lazımi dəstək göstərilməmişdi. Gürcüstanın sabiq prezidenti Saakaşvilinin hazırkı durumu da riyakar qüvvələrin çirkin planlarının nəticəsidir. Yəni faktiki olaraq bu gün Qərb Gürcüstanı və Ermənistanı Ukraynadakı vəziyyətə salmağa çalışır, - deyə müsahibimiz əlavə edib.

Elman Nəsirov xatırladıb ki, riyakar Qərb 2010-cu ildə Azərbaycana qarşı da eyni çirkin ssenarini tətbiq etmək istəyirdi: "Lakin Azərbaycan dövləti, onun ali siyasi rəhbərliyi Qərb siyasi dairələrinin ölkəmizlə bağlı siyasi hoqqabazlıqlarının qarşısını aldı. Prezident İlham Əliyevin qətiyyətli və prinsipial siyasəti bu çirkin niyyətlərin aradan qaldırılmasını şərtləndirdi".

Deputat bildirib ki, Gürcüstanda 25 minə yaxın qeyri-hökumət təşkilatının böyük bir qismini maliyyələşdirən Qərb dolayısı ilə Azərbaycandakı analoji tör-töküntülərə də vəsait ayırır: "Bir sıra xəyanətkarları lazım gəldikdə Azərbaycan hakimiyyəti əleyhinə çıxış etmək üçün hazırlaşdırmağa cəhd edir. Qərbin siyasi dairələri qonşu ölkələrdə olduğu kimi, Azərbaycanda da səfərbər olunmuş cəmiyyəti parçalamağa, vətəndaş həmrəylini dağıtmağa və ölkədə xaos yaratmağa çalışırlar. Lakin əvvəllər olduğu kimi, bütün bu niyyətlər yenə də puç olmağa məhkumdur".

Elman Nəsirov sonda vurğulayıb ki, Gürcüstanın ali siyasi rəhbərliyi Qərbin əsas niyyətinin heç də gürcü xalqının mənafeyi və maraqları olmadığını gözəl anlayır. Bu gün Gürcüstan Azərbaycandan nümunə götürür və Qərbdən maliyyələşən qeyri-hökumət təşkilatlarının fəaliyyətinin dayandırılmasının bu ölkənin inkişafı üçün mühüm amil olduğunu başa düşür.

***"Azərbaycan"***

## "Evian-lö-Bən meriyası Natəvanın heykəlinə qarşı törədilmiş vandalizm aktlarına etinasızlıq göstərdi"

**"2017-ci ildə İsmayıllı və Fransanın Evian-lö-Bən şəhərləri arasında imzalanmış dostluq və əməkdaşlıq xartiyası çərçivəsində Xurşidbanu Natəvanın heykəli Evian-lö-Bən şəhərinə hədiyyə edilib.**



Ötən ilin sonunda bu heykələ qarşı vandallıq aktı törədilib. Bununla əlaqədar cari ilin əvvəlindən Evian-lö-Bən şəhərinin meriyası ilə danışıqlar aparılıb. Təəssüflər olsun ki, şəhər meriyası hədiyyəni layiqli şəkildə saxlaya bilmədi. Onlar gələcəkdə bu heykələ qarşı belə vandalizm aktının törədilməməsinə də heç bir zəmanət verə bilmədilər".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycanın Fransada, eyni zamanda Monakodakı səfiri Leyla Abdullayeva deyib.

Səfir bildirib ki, heykələ qarşı törədilmiş vandalizm aktlarına - üzərinə boya tökülməsinə, heykəlin burnunun və barmaqlarının sındırılmasına Evian-lö-Bən şəhər meriyası etinasızlıq göstərib, heykəl təmizlənməyib, onun üzərində bərpa işləri görülməyib və aylarla bürünmüş şəkildə qalıb. Bu da Azərbaycan tərəfinin haqlı narazılığına səbəb olub və heykəl geri qaytarılmayıb.

"Bu gün çox məmnunuq ki, Azərbaycan tərəfindən qısa zamanda təmizlənmiş və bərpa edilmiş heykəl Azərbaycan səfirliyinin Mədəniyyət Mərkəzinin həyətində yenidən ucaldılıb. Göründüyü kimi, heykəl təmizlənib və bərpa edilib. Artıq xalqımızın sevimli şairəsi Xurşidbanu Natəvanın ruhu şaddır, həm də bu, ikiqat sevincdir. Çünki Natəvanın heykəli hər birimiz üçün çox əziz gündə - Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günündə yenidən ucaldıldı. Bu, Mədəniyyət Mərkəzimizin tarixində gözəl bir gün kimi yadda qalacaq", - deyə diplomat vurğulayıb.

# Ermənistanda kilsə revanşistlərə dəstək verir

**Hayastanda keçmiş hərbi xunta təmsilçilərinin təşkilatçılığı ilə baş nazir Nikol Paşinyanın əleyhinə keçirilən etiraz aksiyaları davam edir.**

Əsas niyyət iqtidara qarşı müqavimət və itaətsizlik təşkil etmək, bununla xaotik durumun yaradılmasına nail olmaq, güc yolu ilə olsa belə hakimiyyəti qəsb etməkdir. Görünən isə odur ki, Xocalı soyqırımını törədənlər və son savaşda məğlub olan müharibə canilərinin Paşinyanı hakimiyyətdən devirmək planları heç də asan olmayacaq. Hökumət əleyhinə etiraz aksiyaları mediada təqdim edildiyi qədər genişmiqyaslı deyil.

Azərbaycan və Ermənistan arasında delimitasiya və demarkasiya prosesinin Ermənistan cəmiyyətinin müəyyən bir qismi tərəfindən etirazla qarşılanması, bununla yanaşı, bu aksiyalarda daha çox erməni din adamlarının adının hallanması, əslində, iki ölkə arasında aparılan danışıqları hərbi-siyasi, diplomatik kontekstdən çıxarıb dini aspektlərə yönəltmək cəhdidir. Xalq arasında nüfuzunu itirən keçmiş hərbi xunta təmsilçilərinin indi din xadimlərindən vasitə kimi istifadə etməsi açıq-aydın ortadadır. Burada əsas məqam da bu yürüşə erməni keşişin başçılıq etməsidir.

Hayastanın hazırkı baş naziri Nikol Paşinyanın İrəvanda kifayət qədər güclü, istər siyasi tərəfdarlarının çoxluğu, istərsə də geniş maliyyə imkanlarına malik olmaq baxımından xeyli sayda rəqibi mövcud olduğu halda, Azərbaycanla sərhəddə yerləşən bir inzibati rayonda yaradılmış "Vətən naminə Tavuş" hərəkatının Kirants (Xeyrimli) sərhəd kəndindən İrəvana yürüşə başlaması təsadüf deyil.

Bu günlərdə növbəti dəfə Nikol Paşinyanın danışıqlar prosesində Almatı Bəyannaməsini əsas götürdüyünü və bu bəyannaməni prinsiplərinin Ermənistan və Azərbaycan tərəfindən hüquqi baza kimi qəbul edildiyini açıqlaması erməni cəmiyyətində birmənalı qarşılanmayıb.



Revanşist qüvvələrin, habelə xarici dairələrin ssenarisi əsasında təşkil olunan etiraz aksiyalarının "lideri" rolunu oynayan keşiş Baqrat Qalstanyan Paşinyanı əvəzləyəcək fiqurun kimliyini müəyyənləşdirmək üçün piketlərin məntiqi sonluğa çatdırılmasının vacibliyini vurğulayıb. Qeyd edib ki, deputatlarla görüşüb onlarla hansı addımların atılacağını, hansı formada prosesin daha da irəli gedəcəyini müzakirə ediblər: "Sonra baş nazirliyə namizəd lazım olacaq və bu namizəd elan ediləcək. Sizin rəğbət bəslədiyiniz və rəğbət bəsləmədiyiniz adlar müzakirə edilir, sonda barəsində razılığa gəlinəcək namizəd elan olunacaq".

Keşiş burada sabiq prezident, Xocalı cəlladı Robert Koçaryanı nəzərdə tutur. Amma bu oyunların arxasında dayananlardan biri olan Koçaryanı ölkə əhalisinin böyük bir qismi qətiyyən qəbul etmək istəmir.

Radikal erməni din xadimi, erməni kilsəsinin Tavuş yeparxiyasının rəhbəri Baqrat Srbazan İrəvanda, respublika meydanında jurnalistlərə açıqlamasında bildirib ki, demarkasiya prosesinin dayandırılması barədə danışmağı planlaşdırırıq: "Amma xalqın tələbi belə idi, başqa heç nə danışa bilməzdim, sadəcə olaraq xalqın tələbinin ifadəsini səsləndirdim. Bu hərəkat bizim üçün çox vacibdir. Biz kritik həddə çatmışıq, bundan kənara çıxa bilmərik. İnsanların burada yaşamaq istəyəcəyini düşünmürəm. Bütün məsuliyyət səlahiyyətlilərin üzərinə düşür. Onlar bu prosesi dayandırmaq üçün hər vasitədən istifadə etməlidirlər. Bu insanlar getməlidirlər". O qeyd edib ki, baş nazir vəzifəsinə namizəd olacaq müxtəlif adlar 2 parlament fraksiyası ilə müzakirə olunur, lakin hələ razılaşma yoxdur.

İqtidara yaxın olan mediada bildirilib ki, mövcud vəziyyətdə Paşinyanın impiçment məsələsi də real deyil. Hayastan qanunlarına görə, impiçment prosesinin başlaması üçün qərar layihəsi təqdim etməyə deputatların 1/3-nin (36 deputat) imzası lazımdır. Hazırda müxalifətin 35 deputatı var ki, buna görə də qərar layihəsinin nəinki qəbul edilməsi, hətta təqdim edilməsi üçün lazım olan 36 səsdən 1-i çatmır.

Qeyd edək ki, Hayastan parlamentində hakim "Mülki Müqavilə" partiyası 71 deputat, Robert Koçaryanın "Ermənistan" bloku 29, Serj Sarkisyanın "Şərəfim var" bloku isə 6 deputatla təmsil olunur. 1 deputat isə "Şərəfim var" blokundan istefa verib və müstəqil fəaliyyət göstərir. İmpiçmenti üçün kifayət qədər səsi olmayan müxalifət isə hazırda bu problemi küçə təzyiqi ilə həll etməyə ümid edir.

Hər halda proseslərin gedişi Hayastanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Münasibətlər getdikcə normallaşır

### Ermənistan rəhbərliyi siyasi iradə nümayiş etdirsə, sülh sazişi imzalanacaq



**Azərbaycan və Ermənistan arasında delimitasiya və demarkasiya prosesinin razılaşdırılması heç bir vasitəçi olmadan baş tutub. Cənubi Qafqazda sülhün bərpasına əngəl törədənlər də gördülər ki, onların bu prosesdə iştiraklarına heç bir ehtiyac yoxdur. Regionun iki ölkəsi öz məsələsini həll edə bilər. Təbii ki, delimitasiya və demarkasiya uzun prosesdir və müəyyən qədər vaxt ala bilər. Amma danışıqların müsbət nəticə verməsi göstərir ki, Azərbaycan və Ermənistan heç vaxt olmadığı qədər sülhə yaxındırlar və heç kimin vasitəçiliyi olmadan sülh sazişi imzalaya bilərlər.**

Milli Məclisin deputatı Kamilə Əliyeva qəzetimizə açıqlamasında xatırladıb ki, Prezident İlham Əliyev də iki ölkə arasında münasibətlərin normallaşmasında, heç bir vasitəçi olmadan ikitərəfli formatda danışıqların aparılmasının böyük nəticələr verə biləcəyini dəfələrlə vurğulayıb. Artıq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində son vaxtlar müsbət tendensiyalar nəzərə çarpır: "İki ölkə arasında sərhədlərin delimitasiya və demarkasiya məsələsinin həlli sülh müqaviləsinin imzalanmasına böyük töhfələr verə bilər. Elə bu səbəbdən Azərbaycan baş nazirinin müavini Şahin Mustafayevlə Ermənistan baş nazirinin müavini Mqer Qriqoryan arasında keçirilən görüşlərin nəticəsində sərhədlərin delimitasiyası istiqamətində razılığa gəlinib".

Deputat vurğulayıb ki, Qazaxın dörd qeyri-anklav kəndinin Azərbaycana qaytarılması ölkəmizin növbəti siyasi uğurudur, eləcə də ölkələr arasında sülhün yaranmasına böyük töhfədir. Prezident İlham Əliyev həmişə Cənubi Qafqazın iki ölkəsinin mehriban qonşuluq şəraitində yaşamasının və Azərbaycanın sülhün tərəfdarı olduğunu bildirib. Son dövrlər Ermənistan baş naziri Paşinyan da Azərbaycanla sülhün yaranmasının vacibliyi haqqında fikirlər söyləyir. O, müsahibəsində də etiraf edib ki, Qazaxın dörd kəndi hər zaman Azərbaycan ərazisi olub və Ermənistan dövlətinin gələcəyi də Azərbaycanla sülhün yaranmasından keçir.

K.Əliyeva qeyd edib ki, bəzi Qərb dövlətləri, o cümlədən Fransa tərəfindən Ermənistanın revanşist və separatçı qüvvələri Azərbaycana qarşı təxribatlara təhrik edilir. "Onların bu təşəbbüsü mənasızdır. Ötən gün keçirilmiş Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Qazaxıstanda nəzərdə tutulan görüşü də sülhün yaranması istiqamətində daha bir müsbət addımdır. Güman edirəm ki, Ermənistan rəhbərliyi siyasi iradə nümayiş etdirəcək və bu il sülh müqaviləsi imzalanacaq", - deyə müsahibim əlavə edib.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

## Ermənistan həm Rusiyaya, həm də Qərbə xəyanət edir

**Mayın 8-də Ermənistan baş naziri Nikol Paşinyanla Rusiya Prezidenti Vladimir Putinin Moskvadakı görüşündə bir neçə məsələ xüsusi diqqət çəkdi. İlk növbədə heç bir nikbinlik vəd etməyən bu görüş iki ölkə arasındakı əlaqələrin sərinliyini ortaya qoydu.**



Görüşdə V.Putinin Rusiya ilə Ermənistan arasındakı hazırkı iqtisadi göstəriciləri rəqəmlər vasitəsilə N.Paşinyanın üzünə "oxuması"nın fonunda həm də Ermənistanın ikili oyun oynaması, Rusiya və Avropaya eyni anda xəyanət etməsi üzə çıxdı.

### İrəvanın qeyri-qanuni qazanc mənbəyi

Faktiki olaraq bütün iqtisadiyyatı Rusiyadan asılı olan Ermənistan bir neçə müddətdir ki, bu ölkəyə qarşı sərt ritorika nümayiş etdirir, KTMT-dən çıxacağı ilə bağlı onu hədələyir. Bu məqamın özü belə İrəvanın Moskvaya arxa çevirməsindən, necə deyərlər, yediyi çörəyə təpik atmasından xəbər verir.

Sözügedən görüşdə V.Putin bildirib ki, Ermənistanla Rusiyanın ticarət dövriyyəsi 2023-cü ildə 7 milyard dolları keçib (daha dəqiqi, 7,3 milyard dolları aşıb). 2015-ci ildən Ermənistanın Avrasiya İqtisadi İttifaqı (AİI) ilə ticarət dövriyyəsinin 14 dəfə artdığını xüsusi vurğulayan Rusiya Prezidenti bunları rekord göstərici adlandıraraq tarix boyu belə ticarət dövriyyəsinin Ermənistanla heç vaxt olmadığını diqqətə çatdırıb.

Putin onu da əlavə edib ki, Ermənistanın Rusiyaya ixracı kəskin artıb...

Əlbəttə ki, bu artımın kökündə Ermənistanın iqtisadiyyatı deyil, xəyanəti dayanır. Çünki Rusiya sahillərindən sürətlə uzaqlaşaraq Avropa sularında üzməyə başlayan Ermənistan Qərbdəki "hami"lərini satmaqla, onlara da xəyanət edir.

2022-ci ildə Ukraynada müharibə başlayandan sonra Ermənistan Rusiyanın sanksiyalardan yayınmasında aparıcı rol oynayır. Belə ki, Ermənistan sanksiyalı malları Rusiyaya sataraq Qərbə qarşı xəyanətkarlıq nümayiş etdirir.

İqtisadi göstəricilərdən də görünür ki, bu ölkə tarixində ilk dəfə Rusiya ilə ticarət dövriyyəsində "müsbət saldo" əldə edib - yəni Rusiyaya ixracı idxalını üstələyib, baxmayaraq ki, Ermənistanın bütün enerji strukturu Rusiyanın əlindədir, qaz idxalını da bu ölkədən edir.

Ermənistan, əsasən, BƏƏ-dən, o cümlədən Çin və Avropadan idxal etdiyi sanksiyalar altındakı malları Rusiyaya ixrac etməklə bu səviyyəyə çatıb. Buna görə Rusiyaya ixracı son bir ildə 5 dəfəyə yaxın artıb, o cümlədən BƏƏ və Çinlə ticarəti 2 milyardı aşıb. Buna görə Ermənistan iqtisadiyyatı fantastik göstəricilər əldə edib.

### Ermənistanın hiyləgər manevrləri

Rusiya müharibədə istifadə etdiyi raketlərin hazırlanmasında lazım olan elektron avadanlıqları da Ermənistandan idxal edir və bunu bütün dünya, eləcə də Avropa yaxşı bilir. Çünki sözügedən faktla bağlı ən nüfuzlu analitik mərkəzlər dəfələrlə hesabatlar yayıblar.

Ermənistanın hiyləgər manevrləri məharətlə təzyiqlərdən yayınmasına və rahat şəkildə qeyri-qanuni əməllərlə məşğul olmasına kömək edir. Bir tərəfdən Rusiya ilə münasibətlərinə görə KTMT-dən çıxmaq kimi riyakar oyun oynayaraq Qərbin gözünü boyayır, digər tərəfdən də heç bir istehsalı olmaya-olmaya Rusiyaya ağlasığmaz həcmdə ixrac həyata keçirərək qazancına qazanc qatır.

Rusiyada keçirilən görüşün Qərbi qəzəbləndirəcəyini nəzərə alan riyakar Ermənistanın məhz elə bu görüş zamanı, yəni mayın 8-də KTMT-nin maliyyələşməsini dayandırmasını bəyan etməsi, hərbi baxımdan guya Rusiyanın nəzarətindən çıxması görüntüsü yaratması da bu oyunun bir parçasıdır. Bunda isə məqsəd Qərbin təzyiqlərindən yayınaraq milyardlar qazanmağa davam etməkdir.

Hazırda Ermənistan tam ortada dayanıb və Ukrayna cəbhəsindəki vəziyyətə uyğun gah Qərbə, gah da Rusiyaya tərəf addımlayır. Tutduğu bu mövqesizliyin əvvəl-axır başına bəla olacağı da danılmaz gerçəklikdir. Çünki İrəvanın eyni zamanda həm Qərbin, həm də Rusiyanın ipini boğazına dolaması qarşıda ona yaxşı heç nə vəd etmir.

Əslində, Ermənistanın bu xəyanətkar addımları heç kimdə təəccüb doğurmur. Çünki Türkiyənin timsalında ermənilərin tarixi xəyanətkarlığına bütün dünya şahiddir. Eyni zamanda İkinci Dünya müharibəsində Sovet İttifaqı tərkibində ola-ola faşizmə kömək əli uzadan da məhz Ermənistan olub. Ermənistan Faşist Qaragen Njdeyə İrəvanda abidə ucaldaraq hazırda da insanlığa xəyanət edir.

Ermənistanın baş nazirinin 9 may faşizm üzərində qələbə günü ərəfəsində, Kremldə görüşə gəlməsi də əslində bu ölkənin riyakarlıqda, xəyanətkarlıqda, satqınlıqda rəqib tanımadığını bir daha ortaya qoydu...

Bütün bunlardan da bir daha aydın olur ki, Ermənistanın tarixi də xəyanətlər üzərində yaranıb.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## Rusiyanın hesabına yaşayan Ermənistan indi ona arxa çevirir

### Qərbin bu ölkəyə nə qədər yardım göstərəcəyi hələ də məlum deyil



**"Tarix boyu Ermənistan və böyük dövlətlər bir-birilərindən yararlanıblar. Ermənistan isə böyük dövlətlərdən istifadə etməyə çalışıb ki, qonşu dövlətlərin torpaqları hesabına "böyük Ermənistan" yaratsın. Qərb və çar Rusiyası da ermənilərin məkrli, hiyləgər sifətinə bələd olduqlarından onlardan Osmanlıya qarşı həmişə istifadə edib. Yəni Osmanlı dövlətinin zəifləməsində və parçalanmasında həmişə erməni kartını əllərində saxlaya bilir".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. Deputat bildirib ki, qarşılığında onlara "böyük Ermənistan" yaradılacağı və hətta Osmanlı dövlətinin yeddi vilayətinin Hayastanın ərazisi olacağına söz veriblər. 44 günlük müharibəyə qədər Rusiya Ermənistana mümkün olan hər şeyi bağışlayıb, əlində saxlamaq üçün nə lazımdırsa edib. Təbii ki, belə dəstəyin nəticəsi idi ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edərək bir milyon insanın Qərbi Azərbaycandan, Qarabağ və ətraf bölgələrdən qovulmasına nail oldu. Bu əhali qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur edildi. Onların evləri isə yerlə yeksan edildi, tarixi yurdları dağıdıldı.

Deputat qeyd edib ki, 44 günlük Vətən müharibəsində isə Rusiya Federasiyası Ermənistanın arzuladığı yardımı ona göstərmədi. "Ermənistan ərazisindəki rus ordusunu Azərbaycana qarşı müharibəyə təhrik etməyə çalışsa da, Rusiya tərəfi buna getmədi. Ona görə Ermənistan rəhbərliyi Rusiyadan imtina edib üzünü Qərbə çevirdi. Təbii ki, Qərb də Ermənistana nə qədər yardım göstərəcək o, məlum deyil. Həqiqət ondan ibarətdir ki, tarix boyu belə olub. Ermənilər qızışdırılıb ortalığa salınıb, bu və ya digər dövlətə qarşı ərazi iddialarına həvəsləndirilib, hətta müharibələr aparılıb. Amma ən çətin vəziyyətə düşəndə həmin dövlətlər Ermənistandan əl çəkib, onu ortada buraxıblar. O zaman isə Osmanlı türkləri, sonra Türkiyə və Azərbaycan türkləri ölən, can verən, hətta ölkəmizə xəyanət edən ermənilərə əl uzadıblar", - deyə o əlavə edib.

A.İsgəndərovun fikrincə, Azərbaycan erməni məkrini tanıyandan sonra, ermənilərin azərbaycanlılara qarşı törətdikləri saysız-hesabsız vəhşiliklərə görə bir də erməniyə yazığı gəlməyəcək: "Dövlətimizin başçısı çıxışlarının birində qeyd etdi ki, biz Ermənistanla qonşuluq münasibətlərini bərpa edəcəyik. Buna heç kimin şübhəsi olmasın. Amma ermənilərin bizə qarşı törətdiklərini biz heç vaxt yaddan çıxartmamalıyıq və çıxartmayacağıq. Çünki erməni xisləti bizə imkan verdi ki, düşmənin mahiyyətini, onun faşist təxəyyülünü öyrənək, tanıyaq və ona qarşı mübarizə aparaq".

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***

## İkili siyasət xəstəliyi Ermənistana da yoluxub

### İrəvan dostuna xəyanət, düşməninə sədaqət nümayiş etdirir

**Qərb Rusiya ilə qarşıdurmanın bir dayanacağını da Cənubi Qafqaza keçirmək istəyir. Burada zəif bənd kimi Ermənistan seçilib. Çünki SSRİ dağıldıqdan sonra bu ölkə müstəqil dövlət kimi formalaşa bilməyib, həmişə kənar qüvvələrin təsiri altında olub.**

Məlumdur ki, 44 günlük Vətən müharibəsinədək Ermənistan Rusiyanın vassalı kimi onun izini olmadan müstəqil addım ata bilməmişdir. Fikirləşirdi ki, Qarabağ uğrunda savaş olarsa, Rusiya onların əvəzində Azərbaycanla döyüşəcək. Ancaq ümidləri puç oldu. Bundan sonra ermənilərin Rusiyaya sadiqliyi barədə uydurduğu nağılların heç bir əsasının olmadığı üzə çıxdı. Üzə çıxan ermənilərin həm də astarı oldu. Beləliklə, Ermənistan-Rusiya münasibətləri gündən-günə pisləşməyə başladı. Əslində isə məsələ təkcə bununla bağlı deyildi. Qərbin, daha dəqiq desək, Sorosun uşağı olan Nikol Paşinyan bu məsələdən məharətlə istifadə edib Qərbə yaxınlaşmaq kursunu götürdü. Ağır məğlubiyyətin acı təsiri altında dərin depressiya keçirən erməni cəmiyyətinin isə bunu qəbul etməkdən savayı əlacı yox idi.

N.Paşinyanın Qərbə hesablanan bu siyasətinə Rusiyadan sərt reaksiya gecikmədi. Rusiya haqlı idi, çünki ortada ermənilərin nankorluğu vardı. Hamıya məlumdur ki, erməniləri dünyanın dörd bir yanından indiki Ermənistan adlanan əraziyə gətirən Rusiya olub. Onlara özgə ərazilərində dövlət yaratmağa kömək edən də Rusiyadır. Bu səbəbdən fikirləşirdi ki, ermənilər ömrü boyu ona minnətdar olmalıdır. Ancaq nəzərə almayıb ki, ermənilər tarix boyu ağalarını dəyişməyi ən yaxşı bacaran tayfadır.

Bununla belə, N.Paşinyanın Qərb siyasəti də uğur qazanmır. Ona görə ki, onlara "cənnət" vədi verənlər iş görməyə gələndə yaxalarını kənara çəkirlər. Məsələn, Ermənistan Qərbdən təhlükəsizlik barədə təminat istəyəndə o, nala-mıxa vurur. Belə olan halda heç şübhəsiz ki, erməni baş nazirinin gözü önünə Ukrayna və Zelenski gəlir. N.Paşinyanın növbəti Avropa turnesindən qayıdandan sonra "Əgər daha bir müharibə olsa, Qərb uzaqdan gəlib bizi silahlı qüvvələrlə müdafiə etməyəcək, onlar isə (Azərbaycanla Türkiyəni nəzərdə tutur) yanımızdadır" deməsi bunun təsiridir. Eyni zamanda Ermənistanın Azərbaycanla sərhədlərin müəyyənləşdirilməsi barədə atdığı müsbət addımlarda da bu məsələnin müəyyən rolu var.

Erməni keşişi Qralstanyanın başçılığı ilə Tauş bölgəsində etiraz aksiyalarının təşkili və İrəvana yürüşü onu göstərir ki, Qərb indi də kilsənin əli ilə iki ölkə arasında başlanan sülh prosesini pozmaq istəyir. Bunun arxasında Qərbin durması barədə fikir bildirməyimiz təsadüfi deyil. Hamıya məlumdur ki, kilsənin maliyyə mənbəyi dünyadakı erməni diasporunun ianələrindən formalaşır. O da məlumdur ki, bu diaspor xaricdəki dövlətlərin siyasətçiləri və kəşfiyyat orqanları ilə sıx bağlıdır. Revanşistlər də bu fürsətdən istifadə edib etiraz aksiyalarına dəstək verirlər. Məqsədləri iki ölkə arasında sərhədlərin müəyyənləşdirilməsi prosesini pozmaqdır.



Xəbər verildiyi kimi, Ermənistanla şimal qonşumuz arasında gərginliyin pik həddə çatdığı bir dövrdə N.Paşinyan Rusiyaya səfər etmişdir. İki ölkənin liderləri arasında qapalı keçirilən görüşdən sızan məlumata görə, səfər çərçivəsində Rusiya-Ermənistan arasında iqtisadi məsələlər önə çıxıb. Ancaq bu, aysberqin görünən tərəfidir. Görünməyən tərəfdə baş verənlər isə hələlik məlum deyil. Amma bütün sirlər gec-tez məlum olur, xüsusən də ortada Ermənistan kimi etibarsız ölkə varsa.

Bununla belə, erməni tərəfi yenə də öz xislətinə sadiq qalaraq mətbuata elə informasiyalar ötürür ki, guya iki ölkə arasında fundamental bir problem yoxdur. Məsələn, Ermənistan baş nazirinin aparatının informasiya və ictimaiyyətlə əlaqələr şöbəsindən "Armenpress"ə verilən məlumata görə, Putin deyib ki, 2015-ci ildən bəri Ermənistanın Avrasiya İqtisadi Birliyi ölkələri ilə ticarət dövriyyəsi 14 dəfə artıb: "İkitərəfli münasibətlərə gəlincə, onlar da çox uğurla inkişaf edir. Biz həmişə, ilk növbədə, iqtisadi əməkdaşlığa diqqət yetiririk. Son bir ildə ticarət dövriyyəsinin artımı çox mühüm məbləğ təşkil edib və bu, əsasən, idxalın artması ilə bağlıdır; sizdənsə - bizim istiqamətimizə ixracı. Ticarət dövriyyəsi isə 7 milyard dolları ötüb. Ticarət-iqtisadi əlaqələrimizdə əvvəllər belə həcm olmayıb".

Əvvəla, hamıya məlumdur ki, iki ölkə arasında ticarətin birdən-birə yüksək səviyyədə artması Ermənistan məhsullarının ixracından yaranmayıb. Bu, Ermənistanın Qərbə "səninlə birlikdəyik" deyib, arxasından dövlət səviyyəsində olunan xəyanətin nəticəsidir. Yəni Ermənistan Rusiyaya qarşı sanksiyalara qoşulduğunu bildirib, xəlvəti həmin malları onlardan alıb Rusiyaya satır. İki ölkə arasında ticarətin birdən-birə 7 milyard dollara çatması bununla bağlıdır. Ermənilərin tarixən çörəkləri dizlərinin üstündə olub. Onlar bu gün mövcudluqlarına görə Rusiyaya minnətdar olmalı olduğu halda, nankorluq və xəyanət nümayiş etdirirlər.

N.Paşinyan Rusiyaya səfərindən sonra xarici siyasətdə hansı yolu seçəcək? Beynəlxalq aləmdə baş verən siyasi proseslər erməni baş nazirindən bu suala cavab gözləyir. Artıq ermənilərin nala-mıxa vurmaq siyasəti keçmir. Qonşumuzun üzünü hansı səmtə tutması bizim üçün də önəmlidir. Ermənistanın sərhədlərin müəyyənləşdirilməsi istiqamətində atdığı müsbət addımlar davam edəcəkmi? Yoxsa yenə də kimlərinsə istəyi ilə gərginliyi qızışdıracaq? Bu sualların cavabı yəqin ki, keşişin başçılığı ilə İrəvanda başlayan mitinqlərin nəticəsindən sonra məlum olacaq.

***Rüstəm KAMAL, "Azərbaycan"***

## Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi Fransa-Azərbaycan münasibətlərindəki ziddiyyətlərlə bağlı arayış hazırlayıb

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) eksperti Mətin Məmmədli İkinci Qarabağ müharibəsindən sonra Fransa-Azərbaycan münasibətlərində yaranan ziddiyyətlərlə bağlı arayış hazırlayıb.**

Bu barədə AZƏRTAC-a BMTM-dən məlumat verilib.

Azərbaycan və ingilis dillərində hazırlanmış arayışda qeyd edilir ki, sözügedən dövrdən etibarən ikitərəfli siyasi-diplomatik münasibətlərdəki kəskinləşmə birmənalı şəkildə rəsmi Parisin müxtəlif müstəvilərdə Azərbaycana qarşı hibrid müharibə xarakteri alan addımları ilə bağlı olub.

"İkinci Qarabağ müharibəsindən sonra Fransanın bölgədəki strateji maraqları, neoimperialist gündəliyi və ölkə daxilində köklü erməni diaspor şəbəkələrinin təsiri rəsmi Parisi açıq şəkildə erməni mərkəzli mövqe tutmağa vadar etdi", - deyə arayışda diqqətə çatdırılır.

Sənəddə Fransanın BMT, Avropa İttifaqı, Avropa Parlamenti, ATƏT, NATO, Beynəlxalq Frankofoniya Təşkilatı, UNESCO kimi təşkilatlar çərçivəsində Azərbaycan əleyhinə atdığı konkret addım və təşəbbüslər sadalanır. Bununla yanaşı, Fransanın ikitərəfli müstəvidə ölkəmizə qarşı apardığı fəaliyyət ətraflı təhlil edilir. Bildirilir ki, rəsmi Parisin anti-Azərbaycan siyasəti ardıcıl, sistemli, çoxsahəli olmaqla həm ikitərəfli münasibətlərə, həm də Azərbaycan-Ermənistan sülh prosesinə ciddi zərbə vurur.

## *İqor KOROTÇENKO:* "Sülh müqaviləsi Azərbaycan Prezidentinin irəli sürdüyü şərtlərlə bağlanacaq"

Mayın 10-da Almatıda keçiriləcək Azərbaycan və Ermənistan XİN başçıları səviyyəsində danışıqlar ərəfəsində "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko AZƏRTAC-ın müxbiri ilə söhbətində Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyanın qarşıdakı görüşünü şərh edib.

"İlk növbədə Azərbaycan diplomatiyasının uğurlarını qeyd etmək lazımdır. Azərbaycan dövlət sərhədinin delimitasiyasının və demarkasiyasının başlanmasına nail ola bilib. Əvvəllər ermənilərin işğal etdiyi dörd kənd Azərbaycana qaytarılır. Bu, Azərbaycan diplomatiyasının böyük uğurudur. Bu uğurları Azərbaycan Prezidenti İlham Əliyevin iradəsi və qətiyyəti müəyyənləşdirir", - deyə ekspert bildirib.



O, Qazaxıstanın təşəbbüslə çıxış etdiyini və birbaşa dialoq üçün öz platformasını təqdim etdiyini xatırladaraq, qarşıda danışıqların çox vacib bir mərhələsinin gözləniləcəyini qeyd edib.

"Paşinyan bu gün Moskvadan uzaqlaşır. Buna baxmayaraq, bu görüşün Qazaxıstan platformasında keçirilməsi çox vacibdir. Biz yalnız bir nəticəni gözləyirik: bütün bu qərarlar və danışıqlar Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü şərtlər və prinsiplər əsasında sülh müqaviləsi ilə başa çatacaq. Bu beş əsas prinsip fundamental şəkildə əsaslanıb, beynəlxalq hüquq normalarına və ədalət meyarlarına cavab verir. Əlbəttə ki, gec-tez sülh müqaviləsi bağlanacaq. Biz buna tam əminik. Düşünürəm ki, bu sülh müqaviləsinin nəticələrinə görə Prezident İlham Əliyev Nobel Sülh Mükafatına namizəd olmağa layiq olacaq", - deyə Korotçenko bildirib.

# "Sakartvelo Respublika" qəzeti Gürcüstan və Azərbaycan xalqlarının nümunəvi dostluğunda Heydər Əliyevin rolundan yazıb

**Gürcüstanın "Sakartvelo Respublika" qəzetində "Heydər Əliyev: Gürcüstan və Azərbaycan xalqlarının dostluğu dünyaya nümunədir" sərlövhəli məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalə Tbilisidə fəaliyyət göstərən "Alyans Gənclər Mərkəzi"nin "Milli-mənəvi irsimizin təbliği" layihəsi çərçivəsində işıq üzü görüb.**



Məqalədə Azərbaycan-Gürcüstan dostluğunun tarixinə nəzər salınır, Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində müstəqillik dövründə əlaqələrimizin daha da möhkəmləndiyi və inkişaf etdiyi qeyd olunur.

Bildirilir ki, gürcülərlə azərbaycanlılar arasında heç vaxt münaqişə, mübahisə, narazılıq olmaması xalqlarımızın ən böyük nailiyyətlərindəndir. Fenomen şəxsiyyət, gürcü xalqının yaxın dostu olan Heydər Əliyevin də dediyi kimi, Gürcüstan və Azərbaycan xalqları arasında dostluq dünyada nümunədir.

Qlobal neft, qaz, nəqliyyat layihələrinin əhəmiyyətindən də söz açılan məqalədə bildirilir ki, bu layihələrin reallaşması ölkələrimiz arasında qarşılıqlı anlaşmanın və səmimi əməkdaşlığın bəhrəsidir.

Qeyd edilir ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən mühüm siyasi xətt bütün konturları ilə Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsinə, əbədi və sarsılmaz dövlətçiliyimizin daha da qüdrətlənməsinə xidmət edir.

Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövlətinin öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirməsi Heydər Əliyev siyasətinin ən parlaq təntənəsidir.

"Bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan heç zaman olmadığı qədər güclü, qüdrətlidir və bugünkü müasir müstəqil, qalib Azərbaycan Ümummilli Lider Heydər Əliyevin görmək istədiyi Azərbaycandır", - deyə məqalədə vurğulanır.

# *Estoniya mediası:* "Heydər Əliyev Azərbaycanın müasir tarixinin rəmzidir"

**Estoniyanın "Baltija.eu" internet nəşri Azərbaycanda və xarici ölkələrdə geniş şəkildə qeyd edilən dahi dövlət xadimi və uzaqgörən siyasətçi Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş məqalə dərc edib.**


Baltija.eu
Отмечается 101-ая годовщина со дня рождения общенационального лидера азербайджанского народа Гейдара Алиева

AZƏRTAC xəbər verir ki, məqalədə XX əsr tarixində Heydər Əliyevin həqiqətən də taleyüklü rol oynadığı - milyonlarla insanın ümid və istəklərini həyata keçirən müdrik siyasətçi və Ümummilli Lider olduğu qeyd edilib. Oxucuların diqqətinə çatdırılıb ki, Heydər Əliyev Azərbaycanın müasir tarixinin rəmzinə çevrilib. Onun fədakarcasına xidmət etdiyi ölkədə güclü, nüfuzlu dövlət və xalqın vəhdəti yaradılıb.

Məqalədə vurğulanır: "Heydər Əliyevin həyatından nümunə götürəndə bir şəxsiyyətin tarixdə hansı rol oynadığını başa düşmək olar. İndi Azərbaycan Şərq və Qərb sivilizasiyaları arasında etibarlı körpüdür, dünyanın ən dinamik inkişaf edən ölkələrindən biridir. Azərbaycanın nüfuzu artır və bütün bunlar unikal siyasətçi - Heydər Əliyev tərəfindən qoyulmuş təməl üzərində dayanır".

Sonra Azərbaycan Respublikasının Estoniya Respublikasındakı səfirliyinin təşkilatçılığı ilə Tallin Universitetinin Akademik Kitabxanasında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş tədbir haqqında oxuculara məlumat verilir. Tədbirdə Estoniyada akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri, digər əməkdaşlar, Azərbaycan icmasının və bu ölkədəki İslam Mərkəzi Şurasının, Estoniya ictimaiyyətinin və media orqanlarının nümayəndələri iştirak ediblər.

Mərasimi giriş sözü ilə açan Azərbaycanın Estoniyadakı səfiri Anar Məhərrəmov Ulu Öndərin müstəqil və demokratik Azərbaycan uğrunda mübarizəsindən, respublika ərazisinin işğaldan azad edilməsi, siyasi və sosial-iqtisadi böhranın aradan qaldırılması üzrə üzərinə götürdüyü missiyanın müxtəlif mərhələlərindən bəhs edib. Diplomat qeyd edib ki, Heydər Əliyevin tarixi xidmətləri sayəsində Azərbaycanda siyasi sabitlik və təhlükəsizlik bərqərar olub, xarici siyasət sahəsində mühüm uğurlar əldə olunub. Ümummilli Liderin qətiyyətli mövqeyi və əsasını qoyduğu yeni neft strategiyası Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasında həlledici rol oynayıb.

Səfir vurğulayıb ki, Azərbaycan dünyamiqyaslı mühüm və tarixi əhəmiyyətə malik tədbirlərin keçirildiyi mərkəzlərdən birinə çevrilib. Onun sözlərinə görə, təsadüfi deyil ki, Azərbaycanın bütün sahələrdə, o cümlədən ətraf mühitin mühafizəsi üzrə qazandığı nailiyyətlər ölkənin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibi seçilməsinə şərait yaradıb.

# *Jan PERREN:* "Heydər Əliyev böyük şəxsiyyət, güclü siyasi xadim idi"

**"Azərbaycanın çox çətin vəziyyətdə olduğu dövrdə Heydər Əliyevlə görüşmək üçün Novruz bayramı ərəfəsində Naxçıvana getdim. Haqqında çox eşitdiyim belə böyük şəxsiyyəti görmək istəyim bitib-tükənmirdi.**




Azərbaycan müstəqilliyini bərpa edəndən sonra Fransanın bu ölkədə ilk səfiri təyin olundum. Həmin vaxt Azərbaycan çətin vəziyyətdə, hətta parçalanmaq təhlükəsi ilə üz-üzə idi". Bu fikirləri Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş anım tədbirində Fransanın ölkəmizdə ilk səfiri olmuş Jan Perren AZƏRTAC-a müsahibəsində söyləyib.

Diplomat bildirib ki, o, həmin çətin vaxtlarda Heydər Əliyevi görmək üçün Naxçıvana gedən ilk səfir olub. Naxçıvan səfəri onun xatirəsində daim qalmaqdadır. Həmin səfərdən sonra Heydər Əliyevlə mütəmadi olaraq görüşüb.

J.Perren deyir ki, Naxçıvanda Heydər Əliyevdən ayrılarkən onu tezliklə Bakıda yenidən görmək arzusunu ifadə edib və bu arzusu qısa müddətdən sonra gerçəkləşib. Bakıya gələn Heydər Əliyev səfirlə mütəmadi görüşür və onların maraqlı söhbətləri, qarşılıqlı etibarlı münasibətləri olur.

"Azərbaycanı Fransaya Heydər Əliyev tanıtdı. O vaxt Azərbaycanı çətin vəziyyətdən, parçalanmaq təhlükəsindən yalnız böyük siyasi xadim Heydər Əliyev xilas edə bilərdi. Xalq onu hakimiyyətə gətirəndən sonra Azərbaycanda tərəqqinin şahidi olduq. "Əsrin müqaviləsi" müasir Azərbaycanın inkişafına zəmin yaratdı, ölkəni iqtisadi baxımdan dirçəltdi və beynəlxalq aləmdə tanıtdı. Heydər Əliyev kimi böyük şəxsiyyətlərin layiqli qiymətini zaman verir" deyən Jan Perren vurğulayıb ki, Heydər Əliyev ölkəni böhrandan çıxarıb və ona layiq olduğu nüfuzu qazandırıb.

Diplomat deyib ki, Azərbaycanın müstəqilliyi, torpaqların azad olunması Ulu Öndərin ümdə arzusu idi. Prezident İlham Əliyev Ulu Öndərin ən ümdə arzusunu reallaşdırdı, Azərbaycan torpaqlarını işğaldan azad etdi.

"Heydər Əliyev böyük şəxsiyyət, güclü siyasi xadim idi" deyən J. Perren Ulu Öndərin müdrik strategiyasından da danışıb.

# Sənayeləşmə siyasətinin uğurlu modeli: sənaye zonaları

## 2015-ci ildən bu ilin ilk rübünün sonunadək sənaye zonalarında 12,7 milyard manatlıq məhsul satışı həyata keçirilib

**Bu gün sənayenin inkişafı əksər dövlətlərin iqtisadi siyasətinin əsas istiqamətlərindəndir. Odur ki, dünya ölkələrində ümumi daxili məhsul (ÜDM) istehsalında sənaye xüsusi çəkiyə malikdir. Sənayenin inkişafına irihəcmli investisiyalar qoyulur, innovativ yeniliklər daha çox bu sahədə tətbiq edilir. İşçi qüvvəsinə də ən çox sənayedə ehtiyac olur.**



Əlbəttə, bu tendensiya Azərbaycandan da yan keçmir. Sirr deyil ki, ölkə iqtisadiyyatı ilk növbədə sənaye istehsalından asılıdır. Son illər yaradılan sənaye müəssisələri ən yüksək standartlara cavab verir. Qeyd edək ki, 1848-ci ildə dünyada ilk dəfə Bakıda sənaye üsulu ilə neft hasilatına başlanılması nəticəsində ölkəmizdə sənayenin inkişafının təməli qoyulub və ötən dövrdə bu sahədə zəngin ənənələr formalaşıb. Və həmin ənənələrə söykənən sənayeləşmə siyasəti müasir texnologiyalar əsasında sənaye zonalarının fəaliyyətə başlamasına təkan verib. İnnovativ əsaslarla tikilən sənaye müəssisələri və kompleksləri güclü ixracyönümlü sənaye potensialı yaradıb. Sənayenin strukturuna diqqət yetirdikdə qeyri-neft sənayesinin artım tempinin daha yüksək olduğunu görmək mümkündür. Başqa sözlə, rəqabətədavamlı istehsal və emal müəssisələrinin yaradılması, yerli istehsalın stimullaşdırılması, sahibkarlara güzəştli maliyyə yardımı mexanizmlərinin gücləndirilməsi, habelə sənaye potensialının möhkəmləndirilməsi istiqamətində görülən işlər inkişaf dinamikasını qeyri-neft sektorunun xeyrinə dəyişib.

Faktlara müraciət edək. Azərbaycanda 2023-cü ildə ÜDM-də sənayenin payı 40,5 faiz olub. Sənaye müəssisələri və fərdi sahibkarlar tərəfindən 66,6 milyard manatlıq məhsul istehsal edilib. Qeyri-neft sektorunda məhsul istehsalı üzrə 8 faiz artım müşahidə olunub. İstehsal edilən sənaye məhsullarının 67,4 faizi mədənçıxarma, 27,1 faizi emal, 4,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarının payına düşüb. İstehsalın 90,9 faizi sənaye məhsulu buraxılışı, 9,1 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına formalaşıb. Sənayedə qeyri-dövlət sektorunun payı 84,5 faiz təşkil edib. Qeyd edək ki, ötən il qeyri-neft məhsullarının ixracı ondan əvvəlki ilə nisbətən 5,2 faiz artaraq 3 milyard 33,7 milyon dollar olub.

Hazırda hər bir ölkənin sabit iqtisadi inkişafında sənaye potensialının rolu böyükdür. Bu baxımdan, qeyri-neft sənayesinin ənənəvi istehsal sahələrinin (kimya sənayesi, metallurgiya, maşınqayırma, elektrotexnika, elektronika, yüngül sənaye, yeyinti sənayesi və s.) inkişaf etdirilməsi və ixrac imkanlarının artırılması ilə yanaşı, rəqabətqabiliyyəti güclü olan yenilərinin yaradılması Azərbaycan iqtisadiyyatının tərəqqisində başlıca amillərdəndir. Son illər fəaliyyətə başlayan sənaye parkları, sənaye məhəllələri və aqroparkların işinin səmərəli və yeni idarəetmə çərçivəsində təşkili ölkəyə sərmayə axını, ixracın genişlənməsi və iş yerlərinin yaradılması prosesində müsbət haldır.

Məlumdur ki, ilk sənaye parkı Sumqayıt Kimya Sənaye Parkıdır və bu park 2011-ci ildə yaradılıb. Amma hazırda sənaye parklarının sayı 7-yə, sənaye məhəllələrinin sayı isə 5-ə çatdırılıb. Bu da ondan xəbər verir ki, sənaye parkları və sənaye məhəllələri iqtisadi cəhətdən özünü doğruldur və buna görə də onların regionlarda yaradılması istiqamətində işlər uğurla davam etdirilir. Qısa zaman ərzində yaradılmalarına baxmayaraq, sənaye zonalarının qeyri-neft sektorunun inkişafında çox böyük yerləri var. Ələt Azad İqtisadi Zonanın yaradılması bu istiqamətdə görülən nəhəng işlərdəndir.

Bu gün sənaye zonalarında sahibkarlıq subyektinin inkişafı üçün tam əlverişli investisiya mühiti yaradılıb. Bu da istər yerli, istərsə də xarici sahibkarlar üçün cəlbediciliyi daha da artırır. Ümumilikdə sənaye zonaları ölkədə həyata keçirilən genişmiqyaslı sənayeləşmə siyasətinin ən uğurlu modellərindəndir. Həmin model imkan verir ki, sənaye zonaları ildən-ilə daha çox uğur qazansın. Fəaliyyətə başladığı dövrdən sənaye parkları və məhəllələrində ümumilikdə 6,7 milyard manatdan çox özəl investisiya qoyulub və 11 mindən artıq daimi iş yeri açılıb. Dəyəri 12,1 milyard manatdan artıq olan məhsul istehsal edilib ki, bunun da 3,8 milyard manatdan çox hissəsi ixrac olunub.

İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, indiyədək sənaye zonalarında istehsal olunan məhsullar 70-dən artıq ölkəyə ixrac edilib. 2015-ci ildən 2024-ci ilin birinci rübünün sonunadək sənaye zonalarında 12,7 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, bunun da 4,1 milyard manatlıq hissəsi ixrac olunub. Həmçinin cari ilin birinci rübündə sənaye zonalarında 640,3 milyon manatlıq satış həyata keçirilib. Onun 223,6 milyonluq hissəsi ixracın payına düşür. Bu dövrdə sənaye zonalarının qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisi 14,6, ixracında isə 28,2 faiz təşkil edib.

2013-cü ildən indiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 7,79 milyard manat olan 142 sahibkarlıq subyektinə rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,7 milyard manatdan çox investisiya yatırılıb və 10500-dən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manat investisiyanın yatırılması və 6500-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur.

Göründüyü kimi, ölkə iqtisadiyyatında qeyri-neft sektorunun inkişafı nahaqdan prioritet sayılmır. Artıq ÜDM istehsalında neft-qaz sektorunun üstünlüyü ötən onilliyin ortalarında qalıb və zaman sənaye zonalarının inkişafını diktə edir. Üstəlik də, müasir çağırışlar, yeni təşəbbüslər nəzərə alınaraq sənayenin modernləşdirilməsi və şaxələndirilməsi qaçılmaz olub.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Fermerlər razıdırlar

## Kəndlinin aqrar sığortaya inamı getdikcə artır

**Son dövrlər dünyada baş verən qlobal proseslər bir daha göstərdi ki, aqrar sektorun inkişafı milli təhlükəsizliyin təminatında az rol oynamır. İndi bütün dövlətlər çalışır ki, imkan daxilində ölkənin ərzaq tələbatı daxili istehsal hesabına təmin edilsin. Azərbaycanda həyata keçirilən aqrar islahatların əsas hədəfi də bundan yana deyil.**



Ölkəmizdə bunun üçün kəndliyə hər cür dəstək verilir. Azərbaycan kəndlisi torpaq vergisindən savayı, bütün növ vergilərdən azad edilib. Üstəlik, o, əkin zamanı istifadə etdiyi yanacağa və sürtkü yağlarına görə dövlətdən subsidiya alır, toxum, ting və damazlıq heyvanlar da ona güzəştli qiymətlərlə satılır. Bu güzəştlərə son 3 ildir ki, aqrar sığorta da əlavə olunub. İndi fermerlər əkin sahələrini, bağlarını, heyvan və quşlarını sığorta edərkən sığorta məbləğinin 50 faizini dövlət ödəyir ki, bu da onlara sığortadan geniş istifadə etməyə imkan yaradır.

Məlumdur ki, may ayının əvvəlində Azərbaycanın müxtəlif bölgələrində hava şəraitinin kəskin dəyişməsi, temperaturun aşağı düşməsi, leysan yağışları, ayrı-ayrı rayonlarda dolu və qar yağıntıları əkin sahələrinə, bağlara zərər vurub. Mayın 4-dən başlayaraq bu səbəbdən təsərrüfatlarına zərər dəymiş fermerlər Aqrar Sığorta Fondunun 1651 Çağrı Mərkəzinə müraciət edərək fondu məlumatlandırırlar. Son məlumata görə, Çağrı Mərkəzinə 7 rayon üzrə 20 müraciət daxil olub. Müraciətlər Kürdəmir, Beyləqan, Ağcabədi, Biləsuvar, Zərdab, Quba və Qusar rayonlarında fəaliyyət göstərən fermerlər tərəfindən edilib. İlkin məlumata əsasən, kəskin hava şəraiti, güclü yağış, dolu və qar yağıntıları qeyd olunan rayonlarda ayrı-ayrı təsərrüfatlar üzrə arpa, buğda, pambıq əkinlərinə, alça və gilas bağlarına zərər vurub. Fermerlərin müraciətləri əsasında bölgələrə ekspertlərin ezam olunması nəzərdə tutulur. Ekspertlər sığortalanmış təsərrüfatlarda baş verən hadisələri qeydə alaraq ilkin zərəri hesablayıb Aqrar Sığorta Fonduna təqdim edəcəklər.

Qeyd edək ki, ilin ilk rübü ərzində Aqrar Sığorta Fondu tərəfindən fermerlərə dolu hadisələri üzrə 503 min, sel-subasmaya görə isə 101 min manat sığorta ödənişi olunub. Bu dövr həmçinin Aqrar Sığorta Fondu tərəfindən 323 min hektar əkin sahəsi və 882 baş kənd təsərrüfatı heyvanları sığortalanıb. Ötən ilin eyni dövrü ilə müqayisədə sığortalanan əkin sahələri 22 min hektar və ya təqribən 7 faiz artıb.

Hesabat dövründə bitkiçilik sığortası üzrə 6 milyon 815 min, heyvandarlıq təsərrüfatlarının sığortası üzrə 537 min manat olmaqla ümumilikdə 7 milyon 352 min manat sığorta haqqı toplanıb. İlk rüb ərzində ən çox sığortalanan kənd təsərrüfatı bitkiləri payızlıq buğda və payızlıq arpa sahələri, eləcə də fındıq bağları olub. Sığortalanan təsərrüfatlar üzrə verilmiş sığorta təminatının həcmi 255 milyon manatı ötüb. Keçən ilin eyni dövrü ilə müqayisədə sığorta ödənişlərinin məbləği 2,2 dəfə artıb. Bitkiçilik üzrə sığorta ödənişlərində 2,5 dəfə, heyvandarlıq üzrə ödənişlərdə isə 42 faiz artım müşahidə olunub.

Yanvar-mart aylarında ASF tərəfindən sığortalı fermerlərə təsərrüfatlara dəymiş zərərlər üzrə 1 milyon 752 min manat sığorta ödənişi edilib. Sığorta ödənişlərinin 1 milyon 434 min manatı bitkiçilik, 318 min manatı heyvandarlıq üzrə olub. Xatırladaq ki, 2023-cü ilin yanvar-mart aylarında fond tərəfindən sığortalı fermerlərə ümumilikdə 799 min manat sığorta ödənilmişdi. Onu da bildirək ki, birinci rübdə ən çox sığorta ödənişləri fırtına, dolu və subasma hadisələri üzrə həyata keçirilib. Regionlar üzrə ən çox sığorta ödənişləri Füzuli, Şəki və Ağdam rayonlarındakı təsərrüfatlarda olub.

ASF dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmi çərçivəsində 2023-cü ilin də nəticələrini açıqlayıb. Məlum olub ki, ötən il sığorta mexanizmindən faydalanan fermer və təsərrüfatların sayı, toplanan sığorta haqları, sığortalanan əkinlərin sahəsi, eləcə də sığorta ödənişləri kəskin artıb. Belə ki, ötən il ölkə üzrə sığortalanmış əkinlərin sahəsi 114 min hektar və ya 43 faiz artaraq 380 476 hektara çatıb. Əkin sahələrinin sığortası üzrə fermer və təsərrüfatlarla 43 min müqavilə imzalanıb. Həmin dövrdə bitkiçilik sahəsindən toplanan sığorta haqları 3,6 milyon manat və ya 40 faiz artaraq 12,4 milyon manata çatıb. Fondun bitkiçilik üzrə qarşıladığı sığorta təminatı da 506 milyon manata yüksəlib. Keçən il ən çox sığortalanan əkin sahələri - buğda, arpa, pambıq və qarğıdalı olub.

İl ərzində fond tərəfindən 6500 iribaşlı, 1300 xırdabaşlı olmaqla ümumilikdə 7800 baş kənd təsərrüfatı heyvanı sığortalanıb, 3,9 milyon manat sığorta haqqı toplanıb. Heyvanların sığortası üzrə sığorta təminatının məbləği 36 milyon manat təşkil edib.

Həmin dövrdə aqrar sığorta mexanizminin fermerlərə dəstəyi daha da güclənib. ASF sığortalı fermer və təsərrüfatlara böyük məbləğdə ödənişlər edib. Nəticədə sığorta ödənişləri 2022-ci illə müqayisədə 2 milyon manat və ya 80 faiz artaraq 4,4 milyon manata yüksəlib. Ödənişlərdən 3,5 milyon manatı bitkiçilik, 910 min manatı heyvandarlıq sığortasının payına düşüb. Bitkiçilik üzrə ödənişlər 2 dəfə, heyvandarlıq sığortası üzrə 28 faiz artıb.

Ötən il bitkiçilik sığortası üzrə ən çox zərər ödənişi edilmiş rayonlar Ağdam, Şəki və Qobustan rayonları olub. Böyük məbləğdə sığorta ödənişləri buğda, arpa, pambıq, qarğıdalı və gilas bitkiləri üzrə verilib.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*




# DİA-da "İqlim dəyişikliyinə uyğunlaşma üzrə" təlimlərə başlanılıb



**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) "İqlim dəyişikliyinə uyğunlaşma üzrə" təlimlərə başlanılıb.**

DİA-dan AZƏRTAC-a bildirilib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası olan COP29-un Azərbaycanda keçirilməsi və "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında BMT-nin İnkişaf Proqramı (UNDP) ilə əməkdaşlıq çərçivəsində mərkəzi icra hakimiyyəti orqanlarının rəhbər kadrları üçün "İqlim dəyişikliyinə uyğunlaşma üzrə" təlimlərə başlanılıb.

Təlimlər mayın 6-dan iyunun 12-dək Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Energetika Nazirliyi, Dövlət Statistika Komitəsi və digər qurumların əməkdaşları üçün nəzərdə tutulub.

Təlimin açılışında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin yeni dövlət idarəçilik texnologiyaları: COP29-a aparan yol" mövzusunda çıxış edib.

Rektor belə bir tədbirin ölkəmizdə keçirilməsinin çox vacib olduğunu bildirib. O, Azərbaycan Prezidentinin sərəncamı ilə 2024-cü ilin respublikamızda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin tərkib hissəsi olduğunu diqqətə çatdırıb. Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərindən də söz açan Urxan Ələkbərov ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında əsaslı dönüşün yarandığını qeyd edib. Azərbaycanda qazanılan uğurların dahi rəhbər Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu bildirən rektor Urxan Ələkbərov Ulu Öndər tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində ölkəmizin qazandığı nailiyyətlərə diqqət çəkib.

Sonra UNDP layihə rəhbəri Zaur Əliyev iştirakçılara təlim haqqında geniş məlumat verib.

Təlimlərdə iqlim dəyişikliyi sahəsində ekspertlərdən Rövşən Abbasov, Ramil Hüseyn, Təranə Cəfərova, Fuad Hümbətov, Zaman Hüseynov, Rəşad Hüseynov və Sevinc Saruxanovanın iştirak etməsi nəzərdə tutulur. Təlimlərin 6 həftə davam etməsi planlaşdırılır.

# COP29: hazırlıqlar sürətlənir

**Ölkəmiz böyük bir tarixi hadisənin astanasındadır. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) başlanmasına cəmi yarım il qalır. Bu mötəbər tədbirə Azərbaycanın evsahibliyi etməsi təkcə beynəlxalq ictimaiyyətin ölkəmizə etimadının göstəricisi deyil, həm də iqlim dəyişikliyi ilə mübarizədə əhəmiyyətli işlərin aparılması üçün əlverişli fürsət və əlbəttə, böyük məsuliyyətdir.**

Odur ki, COP29-a hazırlıq sürətlə davam edir. Prezident İlham Əliyevin sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi qlobal tədbirin reallaşması ilə bağlı müvafiq texniki-təşkilati tədbirlər həyata keçirir. Atılan mühüm addımlardan biri 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsidir. Bu, qlobal mübarizəyə sadiqliyimizi vurğulamaqla yanaşı, həm də milli, regional və beynəlxalq səviyyələrdə tərəfdaşlıq əlaqələrinin gücləndirilməsinə diqqətimizi göstərir. Ümumiyyətlə, COP29-la bağlı istər ölkəmizdə, istərsə də xaricdə keçirilən tədbirlərin sayı-hesabı yoxdur. Bir çox xarici təşkilat və qurumlar, görkəmli ekoloqlar və digər sahə mütəxəssisləri COP29-u, həm də tədbirə Azərbaycanın evsahibliyi etməsini dəstəklədiklərini bildirirlər.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva "29 İqlim söhbəti: COP29-a gedən yol" tədbirində çıxışı zamanı deyib: "Bizim BMT olaraq üzərimizə götürdüyümüz öhdəlik COP29-la bağlı Azərbaycana dəstək və əlimizdən gələni əsirgəməməkdir". O qeyd edib ki, iqlim dəyişikliyi ilə bağlı cəlb olunan iştirakçılar kifayət qədər genişdir. "İqlim istiləşməsi 1,6 dərəcəyə çatıb, bu çox aktual məsələdir və bu çərçivədə qalmaq üçün bizim öhdəliklərimiz var. Biz missiyalarımızı 45 faiz azaltmalıyıq. COP29 bir prosesdir. Bu prosesin davamlılığını təmin etməliyik. Növbəti COP30 Braziliyada keçiriləcək. İqlimlə bağlı tədbirlər bir il ərzində baş verə bilməz, öhdəliklər davam etdirilməlidir. COP29 iqlim dəyişikliyi sahəsində bir sıra tədbirlər həyata keçirmək üçün hərəkətə keçməyə imkan yaradacaq. Biz, həmçinin modellər, strategiyalar hazırlayırıq", - deyə V.Andreeva əlavə edib.

Ölkəmizdə hazırlıqla bağlı həyata keçirilən tədbirlər sırasında müxtəlif təşkilatlar tərəfindən təşkil olunan təlimlər də xüsusi rol oynayır. Məsələn, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) "İqlim dəyişikliyinə uyğunlaşma üzrə təlimlər"ə başlanıb. COP29-un Azərbaycanda keçirilməsi və "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar DİA-da BMT-nin İnkişaf Proqramı (UNDP) ilə əməkdaşlıq çərçivəsində keçirilən bu tədbir mərkəzi icra hakimiyyəti orqanlarının rəhbər kadrları üçündür. Gələn ayın 12-dək davam edəcək tədbir Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı




Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Energetika Nazirliyi, Dövlət Statistika Komitəsi və digər qurumların əməkdaşları üçün nəzərdə tutulub.

Təlimin açılışında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin yeni dövlət idarəçilik texnologiyaları: COP29-a aparan yol" mövzusunda çıxış edərək COP29-un ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin tərkib hissəsi olduğunu diqqətə çatdırıb. Sonra UNDP layihə rəhbəri Zaur Əliyev iştirakçılara təlim haqqında geniş məlumat verib. Təlimlərdə iqlim dəyişikliyi sahəsində ekspertlərin iştirak etməsi nəzərdə tutulur.

Qida Təhlükəsizliyi Agentliyində də COP29-a hazırlıq işləri davam etdirilir. Hazırlanan tədbirlər planında nəzərdə tutulan işlərin vaxtında və keyfiyyətlə icra olunması, habelə qida təhlükəsizliyinin təmin edilməsi məqsədilə müvafiq tədbirlər görülür. Tədbirlər çərçivəsində agentliyin strukturuna daxil olan bölmələrdə çalışan əməkdaşlar üçün növbəti onlayn təlim təşkil edilib. Qida Təhlükəsizliyi İnstitutunun mütəxəssisləri tərəfindən keçirilən təlim "Qida tullantılarının idarə olunması" adlanıb.

Təlimdə Bakı və Sumqayıt şəhərlərində yerləşən keytrinq, hotel və sanatoriyalarda qida təhlükəsizliyi vəziyyətinin öyrənilməsi məqsədilə müvafiq qiymətləndirmə, eləcə də sahibkarlarla bu sahədə maarifləndirmə işləri aparan, həmçinin tədbir zamanı qonaqlara yüksək səviyyədə və təhlükəsiz xidmətlərin göstərilməsi üçün ticarət və ictimai iaşə müəssisələrində monitorinqlər aparan əməkdaşlar iştirak ediblər. İştirakçılara qida tullantılarının idarə olunması ilə bağlı qanunvericiliyin tələbləri, tullantıların növləri və emal sahəsindən uzaqlaşdırılması, bu sahədə çalışan əməkdaşların təlimatlandırılması tədbirləri haqqında ətraflı məlumat verilib.

Keçirilən ardıcıl tədbirlər sayəsində gənc nəsil də COP29 barədə kifayət qədər məlumatlıdır. Məsələn, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunan tədbirlər, o cümlədən konfrans, forum "dəyirmi masa" və seminarlar, ağacəkmə aksiyaları, təmiz ətraf mühit barədə müsabiqə və ekodüşərgələr təşkil edilib. Məqsəd ekoloji mədəniyyəti, təbiətə həssas münasibəti təbliğ etmək, yaşıllıqlara qayğı ilə yanaşmağın zəruriliyinə diqqət çəkməkdən ibarətdir.

Tədbirlərdə dünyanı narahat edən ekoloji problemlərdən, iqlim dəyişiklikləri və onların canlı aləmə mənfi təsirlərindən, ekoloji mədəniyyətdən söhbət açılaraq bu sahəyə diqqətin artırılması, beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin əhəmiyyəti şagirdlərin diqqətinə çatdırılıb. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsinin beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması istiqamətindəki səmərəli fəaliyyətinin təqdir olunması kimi qiymətləndirildiyi vurğulanıb.

"Yaşıl dünya naminə həmrəylik ili" və COP29-la bağlı tədbirlər işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda da keçirilir. Onlardan biri də bu ay "Sağlamlığa Xidmət" İctimai Birliyinin və Vərəm Əleyhinə QHT Koalisiyasının təşəbbüsü ilə bir qrup səhiyyə və ekologiya üzrə qeyri-hökumət təşkilatının Şuşada sağlamlıq və ətraf mühitin qorunması ilə əlaqədar keçirdiyi tədbir idi. Tədbirin məqsədi COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar qeyri-hökumət təşkilatlarının iştirakının təmin edilməsi və "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar təşəbbüslərin müzakirəsi və digər məsələlərlə bağlı olub.

Bir sözlə, hazırlıqlar geniş vüsət alıb. Odur ki, Azərbaycanın COP29-a yüksək səviyyədə evsahibliyi edəcəyinə və bu qlobal tədbirin böyük müvəffəqiyyətlə keçəcəyinə heç kəsin şübhəsi yoxdur.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycanın beynəlxalq miqyasda artan güc və nüfuzunun növbəti təzahürü

**Bu gün Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik ölkələrdən biridir. Cənab İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" əsasında ölkədə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli də qoyuldu, 5 Milli Prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artım"la bağlı sənəd qəbul edildi. Bu isə "yaşıl iqtisadiyyat"a keçidlə bağlı qarşıya yeni hədəflər qoydu. Bu hədəfləri uğurla icra edən Azərbaycan ötən dövrdə ən böyük layihələrə evsahibliyi etdi.**

COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar ölkəmizə növbəti dəfə böyük etimad və inamın göstəricisidir. Dünya birliyinin Azərbaycana göstərdiyi inam və etimad isə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin nəticəsidir. Ölkəmiz artıq dünyada söz sahibinə çevrilib. Faktlar da təsdiqləyir ki, son 20 ildə dövlətimizin başçısının həyata keçirdiyi müstəqil siyasət nəticəsində Azərbaycanın reytinqi artıb və dünya miqyasında çox güclü mövqelərə sahib olub. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və BMT Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə ən tutarlı cavabdır.

Bu reallıqdır ki, qələbədən qısa vaxt keçəndən sonra da ölkəmiz beynəlxalq tədbirlərin, eləcə də nüfuzlu idman yarışlarının keçirildiyi məkana çevrildi. Bunun nəticəsidir ki, mötəbər beynəlxalq təşkilatların rəhbərləri öz tədbirlərinin Azərbaycanda keçirilməsini təsadüfən müəyyənləşdirmirlər. Son illər Azərbaycanın dünyada sabit məkan kimi tanınması da buna imkan verir.

24 aprel 2024-cü ildə ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda Prezident İlham Əliyev dərinməzmunlu çıxışında: *"...Biz uğura uğur əlavə edirik və ən azı həm Azərbaycanda, həm də regionda hər kəs anlayır ki, bunlar təsadüfi hadisələr deyil. Bütün bu işlər düşünülmüş siyasətin, strategiyanın, düzgün taktikanın və siyasətimizin, diplomatiyamızın bir sıra digər aspektləri üzərində qurulub... Atdığımız addımların nəticələrinin daha bir nüməsi sərhədin delimitasiyasıdır. Əlbəttə, iki ölkə, xüsusilə də iki xalq arasında daha çox etimadın artırılması üçün görüləcək işlər çoxdur. Lakin burada əsas məsələ tendensiyanın nədən ibarət olması, hansı istiqamətdə irəliləməyimizdir və söylədiklərimin bariz nümunələri var. COP29-un Azərbaycanda keçirilməsi münaqişənin həll olunmasının və sülh danışıqlarında irəliləyişin nəticəsidir"* - deyə əsas reallıqları diqqətə çatdırdı. Dövlət başçısı eyni zamanda COP29-a Azərbaycanın evsahibliyi etməsini ölkəmizin ekoloji problemlərlə ciddi məşğul olmasının, 1994-cü ildən bəri bütün neft əməliyyatlarının, beynəlxalq ətraf mühit mühafizəsi standartlarına əsasən aparılmasının, investorların dünyanın aparıcı şirkətlərinin olması və ətraf mühitə diqqətlə yanaşmanın nəticəsində mümkün olduğunu bəyan etdi.

Beynəlxalq təşkilatlara rəhbərlik etməkdə zəngin təcrübə qazanan Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi müxtəlif vaxtlarda bu quruma iki dəfə sədrlik edib. Qoşulmama Hərəkatının sədri olduğu müddətdə həyata keçirilən tədbirlər qurumun üzv dövlətləri tərəfindən yüksək dəyərləndirilib. Mötəbər tədbirlərə uğurlu evsahibliyi etmək Azərbaycanın beynəlxalq aləmdə olan reytinqini getdikcə artırıb. Bütün bunlar, təbii ki, cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət və diplomatik məharət nəticəsində mümkün olmuşdur. Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizə prosesinə ciddi töhfə verən ölkə kimi tanınması da onun COP29-a evsahibliyi etmək imkanını




daha da gücləndirdi. Azərbaycanın bu sahədə uzun illərdir həyata keçirdiyi ardıcıl siyasət və layihələr, enerji mənbələrinin inkişaf etdirilməsi, o cümlədən külək və günəş enerjisi stansiyalarının qurulması baxımından gördüyü böyük işlər bəhrəsini verdi.

## "Yaşıl enerji"yə keçid əsas hədəf kimi

Ölkəmizin bu tədbirə evsahibi kimi seçilməsi həm də onu göstərdi ki, Azərbaycan qlobal səviyyədə iqlim dəyişiklikləri ilə mübarizə aparan dövlət kimi özünü tanıda bilib və beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilib. Tədbirin Azərbaycanda keçirilməsi isə onun bu istiqamətdə daha da tanınmasına və beynəlxalq mövqeyinin möhkəmlənməsinə geniş imkanlar açacaqdır. Azərbaycanın bərpaolunan enerji mənbələrinin inkişafı, "yaşıl enerji"yə keçid və iqlim dəyişiklikləri ilə mübarizədə qarşısına qoyduğu məqsədlər və bu istiqamətdə gördüyü işlər daha böyük qlobal auditoriyanın diqqətinə çatdırılacaq. Azərbaycan 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payını 30 faizə çatdırmağı, əsrin ortasına qədər 1990-cı illə müqayisədə Azərbaycan karbon emissiyasını 40 faizə qədər azaldaraq beynəlxalq istiləşmənin təhlükəli nəticələrindən qorunmaq üçün dünya alimləri tərəfindən müəyyən edilən səviyyəyə endirməyi qarşısına məqsəd qoyub.

Bu gün Azərbaycanın "yaşıl enerji" təchizatçısına çevrilməyi də əsas hədəflərdəndir. Artıq Azərbaycan Gürcüstan, Macarıstan və Rumıniya ilə Qara dənizin dibi ilə sualtı kabel vasitəsilə "yaşıl enerji"nin Avropaya ixracı layihəsini icra etməkdədir. COP29-un Azərbaycanda keçirilməsi də bu prosesin davamıdır və ölkəmizin "yaşıl enerji"yə keçid və bərpaolunan enerji mənbələrinin inkişafı ilə bağlı qarşısına qoyduğu məqsədlərə çatmasında böyük rol oynayacaq.

COP29 beynəlxalq konfransında iştirak etmək üçün təqribən 100 min nəfərə qədər xarici qonağın ölkəmizə səfəri gözlənilir ki, bu da dövlətimizin, xalqımızın növbəti böyük uğuru, Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, "Yaşıl gündəliyimiz"in də mövcudluğunun dünyaya sübutudur. Ötən illər ərzində xarici tərəfdaşlar və sərmayədarlarla "yaşıl keçid" üzrə nəhəng layihələrə start verilməsi də bunun göstəricisidir.

Bu il 26 aprel tarixində Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində COP29-a evsahibliyi edəcək ölkənin rəhbəri kimi Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı deyilənləri bir daha təsdiq etdi: *"COP29-a evsahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət, bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq. Hesab edirəm ki, Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla beynəlxalq əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də onların həmrəyliyini möhkəmləndirmək imkanını yaradacaq".*

## Gözləntilər, hədəflər

Azərbaycan uzun illər ərzində neft və qaz ehtiyatlarının ixracından əldə etdiyi gəlirləri səmərəli istifadə etməklə öz iqtisadiyyatını inkişaf etdirib və iqtisadi müstəqillik əldə edib. İndi isə bu ehtiyatlar hesabına Azərbaycan qlobal səviyyədə iqlim dəyişiklikləri ilə mübarizəyə töhfə verməklə öz mövqeyini daha da möhkəmləndirə və təsir dairəsini daha da genişləndirə bilər. Bu baxımdan, COP29-un Azərbaycanda keçirilməsi onun bu mövqeyinin möhkəmlənməsi və bu istiqamətdə gördüyü işlərin, əldə etdiyi nəticələrin təbliği baxımından böyük əhəmiyyət daşıyır. Eyni zamanda sessiyanın Bakıda keçirilməsi Azərbaycanda özəl sektorun bu prosesə cəlb edilməsi baxımından da əhəmiyyətlidir. Bu da azərbaycanlı sahibkarların qlobal səviyyədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasına şərait yaradacaq. Eyni zamanda onu da nəzərə almaq lazımdır ki, son illərdə Azərbaycanın həyata keçirdiyi iqtisadi siyasətin əsas məqsədlərinə qeyri-neft sektorundan asılılığın azaldılması və enerji təhlükəsizliyinin təmin edilməsi ilə bərpaolunan enerji mənbələrinin rolunun artırılması da aiddir. Bu məqsədlərə nail olmaq üçün Azərbaycan "yaşıl enerji"yə keçidə hazırlaşmaqdadır. COP29 tədbiri həmin keçidin daha səmərəli icrası ilə bağlı strategiyaların və görülməsi zəruri olan tədbirlərin müəyyən edilməsi baxımından faydalı platformadır. Sessiya çərçivəsində dünyanın bu keçidlə bağlı daha çox təcrübəsi olan ölkələri ilə fikir mübadiləsinin aparılması və təcrübələrin bölüşülməsi Azərbaycanın "yaşıl enerji"yə keçid prosesinə öz töhfəsini verəcək.

Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizə aparmasının və bu məsələyə böyük diqqət ayırmasının göstəricilərindən biri də 2030-cu ilə qədər müəyyən etdiyi beş istiqamətdən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" prioritetinin olmasıdır. Həmçinin Qarabağın sahib olduğu bərpaolunan enerji resursları Azərbaycanın "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" prioritetinin icrasına, qlobal "yaşıl enerji" çağırışlarına cavab verməyə və ətraf mühitin qorunmasına ciddi töhfə verəcək. Bu baxımdan, COP29 həm də işğaldan azad edilmiş ərazilərdə görülən işlərin və bu ərazilərin sahib olduğu bərpaolunan enerji mənbələrinin dünya üçün əhəmiyyətinin təbliği baxımından da faydalı platformaya çevriləcək. Cənab İlham Əliyevin fikirləri ilə desək: *"COP29-un əhəmiyyəti ondadır ki, biz dünyaya söyləyəcək sözlərimizi, həqiqət hekayəmizi olduğu kimi dünyaya çatdıra biləcəyik. On minlərlə qonağın gəlməsi, iki həftə Azərbaycanda olması imkan verəcək ki, hətta ilk dəfə Azərbaycana gələnlər belə vəziyyəti qiymətləndirmək imkanı əldə etsin, bizim planlarımızın nədən ibarət olduğunu bilsin... COP29 bunun gözəl nümunəsidir".*

## Reallıq

Bəli, COP iqlim dəyişikliyi ilə mübarizədə vacib olmağı ilə yanaşı, həm də dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisidir. Azərbaycanın qazandığı bütün bu uğurlar Prezident İlham Əliyevin şəxsi nüfuzu, yürütdüyü müdrik və uzaqgörən siyasətin nəticəsidir. Qazanılan uğurlar sayəsində bu gün Azərbaycan beynəlxalq proseslərə istiqamət verən, yeni və uğurlu təşəbbüslərlə çıxış edən, beynəlxalq aləmdə öz sözünü deyən ölkəyə çevrilib. Azərbaycanın artıq beynəlxalq tədbirlərə evsahibliyi etmək sahəsində böyük təcrübəsi var və bu da ölkəmizə yetərincə müsbət imic qazandırıb. Tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərar həm də ona görə əhəmiyyətlidir ki, bu, dünya ictimaiyyətinin Azərbaycanın atdığı addımlara dəstəyindən xəbər verir. Bu tədbir Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, "yaşıl iqtisadiyyat"ı nə dərəcədə prioritet sahə kimi gördüyünü bütün dünyaya sübut edəcək.

***Arzu ABDULLAYEV,***
***Naxçıvan Dövlət Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent***

# REGİONLAR

## Naxçıvan xəbərləri

### Əlilliyi olan 12 şəxsə avtomobil təqdim edilib

**Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi və xidməti vəzifələrini yerinə yetirməklə əlaqədar Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlilliyi müəyyən olunmuş 12 şəxsə avtomobil təqdim edilib.**



AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli avtomobillə təmin olunan şəxslərlə görüşüb, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi və ordumuzun qazandığı tarixi qələbə münasibəti ilə təbriklərini çatdırıb. Qeyd edib ki, Azərbaycan Birinci və İkinci Qarabağ müharibələrində haqq savaşına çıxıb. Şanlı ordumuzun qüdrəti sayəsində bu savaş qələbə ilə başa çatıb. Hər bir Azərbaycan vətəndaşının böyük qürur hissi ilə qeyd etdiyi bu qələbəyə görə Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Müzəffər Ali Baş Komandanımıza, qüdrətli Azərbaycan Ordusuna, qəhrəman şəhid və qazilərimizə borcluyuq.

Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyən səlahiyyətli nümayəndə bildirib ki, hər zaman şəhid ailələri, qazilər və müharibə veteranları dövlətin qayğısı ilə əhatə olunub və bundan sonra da qayğıdan kənarda qalmayacaqlar. Görülən işlərin davamı olaraq bu gün ərazi bütövlüyümüz, müstəqilliyimiz, konstitusiya quruluşunun müdafiəsi və hərbi xidməti vəzifələrini yerinə yetirməklə əlaqədar əlilliyi müəyyən olunmuş 12 nəfər avtomobillə təmin olunur. Bu istiqamətdə silsilə tədbirlər davam etdiriləcək.

Sonra səlahiyyətli nümayəndə Fuad Nəcəfli avtomobillərin açarlarını təqdim edib. Əlilliyi müəyyən olunmuş şəxslər və onların ailə üzvləri göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə minnətdarlıqlarını bildiriblər.

### "Bookfest"də 900 çeşiddə 70 minə yaxın kitab və digər nümunələr sərgiləndi

**Naxçıvan şəhərindəki "Saat Meydanı"nda konüllülərin fləşmobu ilə başlayan "Bookfest" kitab festivalı başa çatıb.**

"Muxtar respublikanın dövlət rəsmilərinin iştirakı ilə "COP29" və "Bütün nailiyyətlərimizə görə borclu olduğumuz insanlar" mövzularında aktual panel müzakirələri oldu. Eyni zamanda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə və Naxçıvanın 100 illiyinə həsr olunmuş "Naxçıvanın tərənnümü" etüd sərgi-müsabiqəsi də keçirilib. Sərgidə 60 şagird və tələbə iştirak edib. Müsabiqənin sonunda təşəkkürnamə ilə təltiflənmə baş tutub". Bu sözləri AZƏRTAC-a müsahibəsində kitab festivalının moderatoru Fariz Əhmədov söyləyib. O deyib: "Festivalda 900 çeşiddə 70 minə yaxın kitab və digər nümunələr sərgiləndi. Kitablar oxuculara 30 və 70 faiz endirimlə təklif olundu. Tanınmış yazarların imza, oxu və şeir saatları, panel müzakirələr gənclərdə "Bookfest"ə böyük maraq oyadır. Ümid edirik ki,



gərgin əməklə ərsəyə gətirilən bu sərgi hər kəsin ürəyincə oldu. Sevilən ifaçıların bir-birindən maraqlı mahnı və musiqi nömrələri də sərgiyə əlavə rəng qatdı".

Festivalda "Kitab hədiyyə et, dəyər qat" maarifləndirici aksiya da keçirilib. Aksiya çərçivəsində cəzaçəkmə müəssisəsi üçün kitablar hədiyyə edilib. Sonuncu gün Ordubad şəhər internat tam orta məktəbində, Şahbuz rayon Ahıllar evində də kitabsevərlərə kitablar təqdim olunub.

# Ağdam Sənaye Parkı rezident sayına görə ölkədə ikincidir

## Sənaye Parkında 1800-dən çox iş yerinin yaradılması nəzərdə tutulur

**Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli fərmanı ilə yaradılmış Ağdam Sənaye Parkı işğaldan azad edilmiş ərazilərimizin biznes potensialının reallaşdırılması, qeyri-neft sektorunun inkişafı, məşğulluq səviyyəsinin yüksəldilməsi və rəqabətqabiliyyətli məhsul istehsalının artırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.**









Digər sənaye parklarında olduğu kimi, Ağdam Sənaye Parkında da sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli şərait yaradılıb. Qarabağla digər bölgələrin qovşağında yerləşən Ağdam Sənaye Parkı rezident sayına görə digər sənaye parkları arasında Sumqayıt Kimya Sənaye Parkından sonra ikinci sənaye zonasıdır. Parkda ümumi investisiyalarının həcmi 195 milyon manatdan çox olan 21 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sənaye Parkında ümumilikdə 1800-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Artıq bu günədək rezidentlər tərəfindən Sənaye Parkına 35 milyon manatdan artıq investisiya yatırılıb, 300-dək daimi iş yeri yaradılıb. Hazırda Ağdam Sənaye Parkında infrastruktur şəbəkəsinin, elektrik, qaz, su xidmətlərinin qurulması, inzibati binanın tikintisi, o cümlədən rezidentlər tərəfindən bir sıra müəssisələrin tikinti-quraşdırma işləri aparılır.

"BAFCO İnvest" MMC 2023-cü ilin mart ayında Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. Sənaye Parkının 2,5 hektar ərazisində yerləşən müəssisə Almaniyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə müxtəlif təyinatlı çəkmə, tikinti və digər sahələrdə istifadə üçün nəzərdə tutulan, dəmir ucluqlu və altlıqlı təhlükəsizlik ayaqqabılarının istehsalı üzrə ixtisaslaşıb. İnvestisiya dəyəri 10 milyon manatdan çox olan müəssisədə 120 iş yeri yaradılacaq. "BAFCO İnvest" MMC sənaye parklarında tətbiq edilmiş idxal ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər 1 milyon manatdan çox vəsaitə qənaət edib.

"Mister Decor" MMC-yə 2022-ci ilin oktyabrında Ağdam Sənaye Parkının rezidenti statusu verilib. İnvestisiya həcmi 7 milyon manat olan fabrik Cənubi Qafqazda divar kağızlarının istehsalı üzrə ixtisaslaşmış ilk müəssisədir. İllik gücü 2,1 milyon ədəd rulon divar kağızının istehsalı olan müəssisədə 76 nəfərin işlə təmin edilməsi nəzərdə tutulur. Almaniya və Çin texnologiyasından istifadə edilən müəssisədə istehsal edilən məhsulların daxili bazara satılması ilə yanaşı, xarici ölkələrə ixracı da planlaşdırılır. "Mister Decor" MMC sənaye parklarında tətbiq edilmiş idxal ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər 400 min manatdan çox vəsaitə qənaət edib.

"Metkons" MMC 2022-ci ilin aprelində Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyatdan keçib. Sənaye Parkının 1 hektar ərazisində inşa edilmiş müəssisədə havalandırma, yanğınsöndürmə avadanlıqları və müxtəlif metal məmulatlarının istehsalı nəzərdə tutulub. Türkiyə, İtaliya, Rusiya və Çin texnologiyalarının tətbiq olunduğu müəssisənin ümumi investisiya dəyəri 1,9 milyon manatdır və 45 nəfər daimi işlə təmin ediləcək. Zavodda istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək. "Metkons" MMC sənaye parklarında tətbiq edilmiş idxal ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər 100 min manatdan çox vəsaitə qənaət edib.

Agdam Sənaye Parkında həmçinin "Rail Trans Service" MMC-nin avtomatlaşdırma və telemexanika sistemlərinin, "Eel Electric" MMC-nin elektrik paylayıcı avadanlıqları və elektrik yuvalarının, "Prof-Dam" MMC-nin dam örtüklərinin, "Tabaterra" MMC-nin tütün məmulatlarının, "Agah Group" MMC-nin metal profil və anbar stellajlarının istehsalı və digər müəssisələrin tikinti-quraşdırma işləri görülür. Bu müəssisələrin bir qisminin bu il fəaliyyətə başlaması planlaşdırılır.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Astarada tibbi aksiya keçirilib

**Səhiyyə Nazirliyi və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin birgə təşəbbüsü ilə Dəmiryol Səyyar Klinikası Astara rayon sakinlərinə Dəmiryol vağzalında tibbi xidmət göstərib.**

Məqsəd sakinlərin göz xəstəlikləri ilə bağlı problemlərinin aşkar edilməsi və həll olunmasına kömək göstərməkdir. Aksiyadakı müayinələr əsasında göz problemləri ilə bağlı ümumi nəticə çıxararaq müəyyənləşdirilən xəstəliklər müzakirə edilib, çətin əməliyyat tələb olunan pasiyentlərin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə gəlmələrinə şərait yaradılıb.

Mərkəz bölgələrdəki əhaliyə təmənnasız oftalmoloji, həmçinin cərrahi xidmət göstərmək üçün 2005-ci ildə müasir diaqnostik və cərrahi avadanlıqla təchiz olunmuş səyyar klinika yaradıb. Səyyar klinikanın fəaliyyətinin əsas məqsədi əhalinin vaxt itirmədən, öz yaşadıqları ərazilərdə müayinə, müalicə olunmasıdır. Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həyata keçirdiyi tədbir və aksiyaların sayı durmaqdan artır. Bu aksiya və tədbirlərin əsas məqsədi görmə problemi olan insanların erkən müayinə və müalicə olunaraq sağlamlıqlarını geri qaytarmaqdır.

Mərkəzin bütün filialları ən son texnoloji avadanlıqlarla təchiz olunub. Klinikada təcrübəli və xaricdə ixtisas keçmiş həkim-oftalmoloqlar bütün göz xəstəliklərinin müayinə və müalicəsi, eləcə də əməliyyatı ilə məşğul olurlar. Bununla yanaşı, səyyar klinikanın fəaliyyətini daha da genişləndirmək üçün 2018-ci ildən Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Dəmiryol Səyyar Klinikası da fəaliyyətə başlayıb.

*S.CAVADOV*
*"Azərbaycan"*

# Tovuzun Hunanlar kəndinin məhsulu xarici bazarlara ixrac olunur

**Yerkökü qərb bölgəsində ən çox Tovuzun Hunanlar kəndində becərilir. Kəndin sakinləri illərdir ki, bu işlə məşğul olurlar. İstehsal etdikləri məhsulu isə yerli bazarlarla yanaşı, xaricə, xüsusən də Rusiya və Belarusa göndərirlər.**

Ümumiyyətlə, demək olar ki, Kür çayının sahilində yerləşən Hunanlar yerkökü əkini üzrə artıq ixtisaslaşıb. Kəndin sakinləri həm özlərinin, həm də ölkə əhalisinin bu məhsula olan ehtiyacını müəyyən qədər qarşılamağa çalışırlar. Üstəlik də, qeyd etdiyimiz kimi, məhsullarının bir qismini xaricə ixrac edirlər. Qiymətlərə gəldikdə, hazırda yerkökünün kiloqramı yerində 60-70 qəpikdən satılır. Uzun illərdir yerkökü becərən Yavər Nəcəfov deyir ki, bu il məhsuldarlıq yüksəkdir, qiyməti də pis deyil, sərf edir.

İndi Hunanlar kəndində hara baxsan, yük maşınlarına yerkökü yığıldığını görmək olar. Məhsul yükləndikcə maşınlar



ləngimədən yola salınır. Bu həm də təsərrüfat sahiblərinin işini xeyli asanlaşdırır. Uzağa getmək lazım gəlmir, məhsulu elə həyətlərdə alıcıya təhvil verirlər. Alıcılar isə əsasən Rusiya bazarları ilə əlaqəsi olan yerli kənd sakinləridir. Onlar sərhədi keçərkən əngəllərlə rastlaşmadıqlarını deyirlər.

Ümumiyyətlə, kənddə 428 təsərrüfat var və onun 400-ü yerkökü yetişdirməklə məşğuldur. Kənd sakinləri Abuzər Məcidov, Məhəmməd Abdullayev, Xumar Abbasova, Rövşən Həsənov, Rəna Gözəlova və başqaları uzun illərdir ki, yerkökü əkini ilə məşğul olurlar. Məhəmməd Abdullayev bu il 2 hektarda yerkökü yetişdirib. Məhsulun satışında elə bir problemin olmadığını bildirən təsərrüfat sahibi deyir ki, qiymət də onları qane edir. İndiyədək təkcə Hunanlar kəndindən Rusiya bazarlarına 500 tondan çox yerkökü ixrac olunub.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Fəsadlar aradan qaldırılır

**Son günlər yağan yağışlar Kür çayında sululuğun artmasına səbəb olub.**

Çayın Qazax rayonu ərazisindən keçən hissəsində öz məcrasından çıxması və ətrafa yayılması nəticəsində əkin sahələri və təsərrüfatlara ziyan dəyib. Təbii fəlakət əsasən rayonun Aşağı və Orta Salahlı kəndlərinin əkin torpaqlarında fəsadlar törədib.

Qazax Rayon İcra Hakimiyyətinin fövqəladə hallar komissiyasından bildirilib ki, təbii fəlakətin vurduğu ziyanın həcmi müəyyənləşdirilir, paralel olaraq fəsadlar aradan qaldırılır.

# Abşeron yaşıl diyara çevrilir

**Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi abşeronluların yeni yaşıllıqlar salmaq və onları qorumaq həvəsini birə-beş artırıb. Abşeron Rayon İcra Hakimiyyətinin təsdiq etdiyi tədbirlər planı da məhz bu ovqatdan doğub.**

Məlumdur ki, paytaxtın bir addımlığında yerləşən bu rayondan keçən yollar beynəlxalq əhəmiyyət daşıyır. Odur ki, bu ərazilərdə ağacəkmə kampaniyasına xüsusu diqqət yetirilir. Yanvar və fevral aylarında yol kənarlarındakı, park və xiyabanlardakı qurumuş ağaclar kəsilərək onların yerləri yeni yaşıllıq salmaq üçün hazırlanıb. Aksiya zamanı həmçinin beynəlxalq əhəmiyyət daşıyan yolların Abşeron rayonundan keçən hissələrinin, eləcə də yerli əhəmiyyətli yolların və daxili küçələrin kənarları məişət tullantılarından və alaq otlarından təmizlənib. Tullantılar xüsusi texnikalar vasitəsilə ərazidən daşınıb.

Yaşıllaşdırma tədbirləri mütəmadi xarakter alıb. Növbəti tədbirlər çərçivəsində yol kənarlarında ümumilikdə 1000-dən çox müxtəlif növ ağac əkilib. Yeni əkilmiş ağaclar suvarılıb, onlara üzvi gübrə verilib və lazımi aqrotexniki qulluq göstərilib. Bundan əlavə, rayonun Abadlıq və Kommunal Xidmətlər İdarəsi tərəfindən küçə və parklarda ümumi səliqə-sahman yaradılıb, ağacların gövdələri ağardılıb. Paralel olaraq, Saray, Mehdiabad, Masazır, Novxanı və digər qəsəbələrdə yolların kənarına ağaclar əkilib, onların becərilməsi əlaqədar təşkilatlar tərəfindən nəzarətə götürülüb. Şəhidlərin adına çəkilmiş bulaqların ətrafında və yaşayış komplekslərinin həyətyanı sahələrində də təmizlik işləri aparılıb, yeni ağaclar və gül kolları əkilib. Hazırda rayon mərkəzinin təmir ediləcək küçələrində, orta məktəblərin qarşısında və həyətində eyni tədbirlər həyata keçirilir. Yaşıllıqların artırılması məqsədilə rayonun Sumqayıt istiqamətindəki yollarında da müxtəlif növ ağaclar basdırılıb.

Abşeron ölkəmizin yaşıllığı nisbətən az olan rayonlarından olsa da, belə tədbirlərin nəticəsində tədricən gözoxşayan yaşıl diyara çevrilir. Odur ki, bu tədbirlərə idarə və təşkilatlarla yanaşı, sakinlər də geniş dəstək verirlər. Qəsəbə və yaşayış massivlərinin sakinləri yaşadıqları ərazidə yaşıllıq salır, ağac əkir, gül becərirlər. Bu hesaba təkcə son bir neçə gün ərzində rayonun kənd və qəsəbələrində torpağa yüzlərlə fidan basdırılıb. Əkilən hər ağaca aqrotexniki qaydada xidmət göstərilir. Onların suvarılmasını isə sanki son günlər yağan yağış öz öhdəsinə götürüb. Həyata keçirilən aksiyalar zamanı ərazidə həmçinin təmizlik və abadlıq işləri aparılır. Saray, Novxanı və digər qəsəbələrdə əkilən fidanlar üçün ayrıca su xətti çəkilib, onların qorunması xüsusi nəzarətə götürülüb.









Ekologiyanın mühafizəsi yaşadığımız dövrün ən aktual problemlərindəndir. Bu ilin sonunda COP29-un ölkəmizdə keçirilməsi bu sahədə təkcə hər bir şəhər və rayonun deyil, hər birimizin çiyninə məsuliyyət yükü qoyur. Abşeronlular bunu yaxşı dərk edirlər. Rayon ərazisində yaşıllıqların genişləndirilməsində məqsəd də məhz ekoloji vəziyyətin sağlamlaşdırılması, cəmiyyətdə ekoloji mədəniyyətin təbliğ edilməsi və təbiətə qayğının artırılmasıdır. Onu da qeyd edək ki, ekoloji tarazlığın qorunması istiqamətində işlər davamlı olacaq. Abşeronluların qərarı ənənəni davam etdirmək, yaşadıqları ərazini yaşıl diyara çevirməkdir.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 4 mart (Çərşənbə axşamı günü) tarixli 128-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Səşənbə, 1 cəmadiyəlaxir sənə 1337.
4 mart sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Azərbaycan Məşixəti-İslamiyyəsi İdarəsindən**

İdareyi-məşixət [Şeyxülislamlıq İdarəsi] kargüzarı Hüseynqulu Səlimov "məvacib azlığından istefaya məcbur oldum" məzmunlu istefanaməsini İdareyi-məşixət qəbul edib işbu 1919 sənəsinin mart ayının 1-dən etibarən mümaileyhi [adı çəkilən şəxsi] xidməti-sabiqəsindən [sabiq vəzifəsindən] azad hesab etməyi qərara almışdır.

*Məşixət sədrləri: [Mustafa əfəndi] Əfəndizadə və [Axund Ağa] Ağaəlizadə*

## HÖKUMƏT NİYƏ İSTEFA ETDİ?

Parlaman üsulu ilə idarə olunan məmləkətlərdə hökumətin istefası, kabinə böhranları müxtəlif şəkillərdə ola bilər. Parlamanın etimadını qazanammayan bir hökumət həman istefa edər, yerinə başqa bir kabinə təşkil olunar. Bəzən də olar ki, parlaman ilə ixtilafı çıxan hökumət camaatın kəndisinə vasitəsiz olaraq müraciət eylər. Bu halda, məclis buraxılıb təzə intixablar [seçkilər] təyin olunar. Yeni gələn məbuslar [deputatlar] əski məbusların nöqteyi-nəzərində durarlarsa, o zaman kabinə qalar, yoxsa artıq hökumətin dəyişməsi icbari olar. Parlamentarizmin bu cəhəti yalnız şəkli-hökumətləri və qanuni-əsasiləri [konstitusiyaları] təəyyün etmiş [formalaşmış] olan məmləkətlərdə tətbiq oluna bilər. O məmləkətlərdə ki, hökumət ilə məclis arasında cümhuriyyət rəisinin şəxsi, müvazinəçi bir amil olmaq üzrə bulunar.

Bizdə isə hal böylə deyildir. Cümhuriyyətimiz dəxi rəis intixab eyləməmişdir. Hər nə qədər parlaman rəisi cümhuriyyət rəisi yerini görür kimi isə də sözün mənayitamı [tam mənası] ilə bu hüquqa malik deyildir. Parlaman rəisi olmaq həsəbi [səbəbi] ilə o, qüvveyi-təşriiyyənin (yəni qanun qoyan Məclisi-Məbusanın) tabeidir [ona tabedir]. Hər nə qədər hökumət rəisini dəvət eyləmək ona mühəvvəl olunmuş [verilmiş] bir haqq isə də, məclisi fəsx edib də yeni seçkilər dəvət eyləmək haqqı kəndisinə verilməmişdir.

Bu halda Azərbaycan Cümhuriyyətinin Qanuni-əsasisi [Konstitusiyası] tədvin [tərtib] olununcaya qədər hökumətin qalması və ya düşməsi yalnız Məclisin etimad və ya ədəmi-etimadına [etimadsızlığına] bağlı bir məsələdir. Hökumətin Məclislə münaqişəyə girib də davanın həlli üçün üçüncü daha səlahiyyətdar bir qüvvətin hakəmliyinə [arbitrliyinə] müraciət eyləməyə imkanı yoxdur.

Bu nöqteyi-nəzərdən baxılınca, Fətəli xan hökumətinin istefası ciddi bir səbəbdən, hüquqi bir illət [problem] üzündən irəli gəlməmiş deməkdir. O halda, istefanamədə göstərilən zahiri səbəb, hökumət rəisinin xəstəliyidir.

Biz buna zahiri səbəb deyiriz. Çünki, batini [daxili] səbəb başqadır. Bu səbəb hər nə qədər şəklən mövcud deyilsə də, Parlaman firqələrinin son sorğu münasibətilə göstərdikləri zehniyyət onun ruhən mövcud olduğunu pək əla hiss etdirməkdədir.

Məlum idi ki, hökumət müxtəlif firqə və qruplardan təşəkkül edən Parlamanımızın "İttihad" xaricində olaraq bütün fraksiyalarına istinad edirdi. Fətəli xan bir çox israr və ilhahlardan [təkidlərdən] sonra bir firqə mənsubu deyil, bir şəxs olmaq etibarı ilə Hökumət rəyasətini qəbul edib Kabinəni də kəndisi bildiyi kimi təşkil eyləmiş, firqələr isə bu xüsusda Hökumətə adətən "kartblanş" vermişlərdi.

Fəqət getdikcə Hökumətə verilmiş olan bu etimad Parlaman firqələrinin əksərindən ötrü gevşəməyə [laxlamağa] başladı. Firqələr firqə mənafeyini kənara ataraq böylə bir zamanda Parlamanda qüvvətli bir mərkəz vücuda gətirmək niyyətilə bir qədər olsun xüsusiyyətlərini fəda etmiş ikən, getdikcə siyasilikdən ziyadə əhalinin fikrinə qapılaraq tənqidata başladılar. Nəhayət, pusuda [pusquda] duran "İttihad" daşını cibindən çıxardı, hökuməti vurdu. Bu zərbənin təsiri ilə solda duran sosialistlərin də tənqid eyləmək həvəsi gəldi. Dövlət nöqteyi-nəzərində duran yalnız bir "Müsavat" firqəsi qaldı. Bitərəflər, "Əhrar" dəxi şiddətli davrandılar. Nəticədə, hər nə qədər hökumət etimad rəyi qazandısa da, mövqeyi heç şübhəsiz ki, eyi mövqelərdən deyildi. Firqələr tənqid etmişlər, fəqət nəticədə çarəsiz qalaraq ədəmi-etimad göstərməmişlərdi. "Həsən keçəl və ya keçəl Həsən" demişlərdi.

Halbuki məmləkətin ehtiyacı böylə çarəsizlikdən təhəmmül olunar bir hökumətə deyil, bilaşərt [qeydsiz-şərtsiz] etimad olunar bir heyətədir.

Bu nöqteyi-nəzərdən baxılarsa, bu vaxta qədər hökuməti tutan firqələr arasındakı ixtilafi-nəzər Kabinənin deyil, Parlaman mərkəzinin böhranını isbat edər.

Böhran Parlamanın üzərindədir. Əgər Parlaman firqələri keçirdiyimiz zamanın əhəmiyyətini dərk edər də həqiqətən də sabit bir mərkəz vücuda gətirə bilərlərsə, o zaman sabit və qüvvətli bir hökumət vücuda gələ bilər.

Böylə sabit bir mərkəzin sola doğru bir ittihadla [birliklə] vücuda gələcəyi Parlaman firqələrinin əksəriyyətincə məqbul görünürsə də, iş hələ nəzəriyyatdan feliyyata keçməmişdir.

Bu xüsusda anlaşa bilmək üçün vəziyyəti-siyasiyyənin nə kimi əsaslar daxilində etilaf etmək iqtiza eylədiyini [uzlaşmağı şərtləndirdiyini] bilməlidir.

Bu xüsusda yarın.

*M. Ə.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(keçən nömrədən mabə'd)*

Yusif Əhmədov (bitərəf) - Bələdiyyə İdarəsi tərəfindən istənilən 7 milyon borc xüsusunda məncə qabaqcadan bir qərar qət etməli idi. Bu pulu o vaxt tamamilə verməli idi. Genə də verilsin. Şimdiki izahatdan məlum oldu ki, şəhərin ayda 3 milyon manat xərci var. Təbii böylə borclar ona kifayət etməz. Bir şəhərin ki, ayda 3 milyon xərci ola, böylə məbləğlər onun ehtiyacı[nı] ödəməz. Vaxtın əhəmiyyətini də bir nəzərə alıb ətraflı düşünməlidir ki, nə kimi bir vaxtda yaşayırız, nə vaxt və nə üçün borc istənilir. Məlumunuzdur ki, şəhərin varidatı bir neçə şeydən ibarətdir. Məsələn, imarətlərdən, ticarətdən və sairədən. Ticarət şimdi bilmərrə [heç] yoxdur, ümum [bütün] ticarət dairələri bağlanıbdırlar. Şəhər də bunlardan varidat ala bilməz. Bir də xəstəxanalardır ki, qabaqlarda orada yatanlardan müəyyən xərc alınırdı. Bir para səbəblərə görə indi o da alınmayır. Bir neçə mənbə də var ki, inqilab içində olduğumuzu nəzərə alsaq, nə səbəbə onlardan varidat alınmadığı təbii görülər. Mən öylə güman edirəm ki, ərz etdiyim səbəblərə görə əski mədaxil gətirən yollar kamilən kəsilmiş olduğundan Bələdiyyə İdarəsinin əvvəlcə istəmiş olduğu 3 milyon verildiyi kimi, indi istədiyini də vermək lazımdır. Qulluqçuların maaşını nəzərə almalıdır. Məruzədən məlum olur ki, ayda bir milyon 450 min manat olmaq üzrə ildə qulluqçuların məvacibi 18 milyon olur. Xidmətçilərə bu maaş verilməzsə, şəhərin bütün işləri yatar. Hələ bələdiyyə xidmətçilərinin maaşı sair qulluqçulardan azdır. Bunu da nəzərə almalıdır.

Mənim yadımdadır, bir yerdə hökumət üzvlərindən birisi Bələdiyyə Məclisi əzasından [üzvlərindən] birini məzəmmət edib deyirdi ki, işləməyirlər, şəhəri təmiz saxlamayırlar, fəaliyyətsizlik göstərirlər. Əgər bu fəaliyyətsizlik pulsuzluqdan isə hökumətə müraciət etsə, hökumət Bələdiyyə İdarəsinin ehtiyacını təmin eylər. Təklif olunan məbləğ çox deyildir. O şey ki, ehtiyaclarıdır, onu istəyirlər. Bələdiyyə İdarəsində mən də varam. O qeyri bir çarə bilməyir, zəruri ehtiyacı üçün pul istəyir, həm də müavinət deyil, borc istəyir. Şəhərin 36 milyon manat xərci var. Əlbəttə 4 milyon verməklə ehtiyacı rəf etmək [aradan qaldırmaq] olmaz.

Buyururlar ki, şəhər iş görməyir. Hansı idarə layiqilə iş aparır ki, o da apara bilsin. Əlbəttə, şəhərin borcudur, mədaxil yerlərini gözləsin. Lakin bir haldayız ki, bir ay sonra nə olacağını bilməyiriz. Keçmişi də gördük. O sədəmələr [zərbələr] ki, dəymişdi, indi onun acısını çəkiriz. Mən təklif edirəm istənilən 4 milyon verilsin. Verilməsə, Bələdiyyə İdarəsi bağlanacaqdır. Buna da təbii heç bir fraksiya razı olmaz. Onun bağlanması digər idarələrə də çox təsir edər.

Bir də ərz etməliyəm ki, qlasnıların vəkalət müddəti qurtarmışdır. Şimdi yeni qlasnılar seçmək lazımdır. Təbii, bu xüsusda müzakirat olacaq və əminəm ki, tezliklə Bələdiyyə qanunu verilər. Mən dübarə [yenə] təklif edirəm 4 milyonluq qərz [borc] verilsin. Yalnız borcun hangi varidatdan ödənəcəyini bilmək lazımdır. Natiqlərdən birisi təklif edir ki, bu məbləğ qaytarıl[ma]maq üzrə verilsin. Mən deyirəm ki, böylə bir üsul yoxdur. Pul verilsin nəinki 3 ilə, 6, 9 hətta 12 ilə verilsin, amma müavinət təriqi ilə [kömək kimi] yox, borc təriqi ilə.

**Sədr** - Söz Əhməd Cövdət əfəndinindir.

**Əhməd** Cövdət (sosialist) - Əfəndilər! Aşurov cənabları doğru buyurdular ki, indi nəinki hökumətlər, hətta bələdiyyə idarələri də ya borc edib, ya pul kəsməklə yaşayırlar. Çünki böyük müharibə nəticəsi iqtisad və ticarət işlərinə sui-təsir etdiyindən, hər şey öz adi halını qeyb edib yolundan çıxmışdır. Bir tək Bakı bələdiyyəsi deyil, qeyri bələdiyyə idarələrinin də halı fənadır. Bunların bu halına görə borc istəməyə haqları da vardır. Bizim fraksiya da Bakı bələdiyyəsinə veriləcək 4 milyon borc əleyhində deyildir. Bu borc verilməlidir. Hərgah biz bu borcu verməzsək, parasızlıq üzündən camaatı təmin edən müəssisələr qapanmağa məcbur olar. Fəqət bu müəssisələr füqərayi-kasibə ehtiyacatını rəf etməyə [aradan qaldırmağa] çalışdığından, bağlanmalarına yol verməməlidir. Şəhər idarəsinə kömək eyləmək hökumətin borcudur. Fəqət biz buna iktifa [kifayət] etməyiriz. Ağa Aşurov cənabları doğru buyurdular ki, bu borclar haradan veriləcək? Şəhər idarəsi bu borcları geri verə bilməyəcəkdir. Burasını əlbəttə, nəzər-diqqətə almalıdır. Əhmədov cənabları dedi ki, bugünkü gündə ticarət yoxdur. Ona görə şəhər idarəsinin mədaxili azalmışdır. Fəqət, tamamilə də böylə deyildir. Doğrudur, ticarət əvvəlki qərarla deyildir. Ticarətin bir qismi dayanıbdır. Lakin əvəzində bəzi yeni ticarətlər artıbdır. Deməli, ticarətdə bir dəyişiklik olmuşdur ki, o da möhtəkirlikdir. *(Alqış)*

Şəhər idarəsində demokratiya [xalq] nümayəndələri olmadığından, orada oturanlar həman möhtəkirlərdən vergi almağı özlərinə sərf bilməyirlər. Çünki, qismən kəndiləri bu işlə məşğuldurlar. Odur ki, bu cür nümayəndələr öz ciblərindən pulu çıxarıb bələdiyyə sandığına qoymazlar. Şəhər idarəsində demokratiya nümayəndələri oturmalıdırlar. Lakin biz onu da demirik ki, demokratiya nümayəndələri orada oturmaqla işlər büsbütün yaxşı gedər. Təbii bir qədər qüsur olacaqdır. Bu qüsurlar Gürcüstan, Ermənistanda olduğu kimi burada da olacaqdır. İqtisadi həyat fəna olduğundan həyat demək qeyri-mümkündür. Lakin heç olmazsa həyatımızı adi hala tərəf çəkmək lazımdır ki, bunu da ancaq demokratiya nümayəndələri edə bilərlər. Ona görə də tezliklə demokratiya nümayəndələri şəhər idarəsinə keçməlidirlər. Şəhər idarəsinin demokratik əsas üzrə qurulması xüsusundakı uzlaşma tezliklə qövldən feilə gətirilsin. Şəhər idarəsində oturan nümayəndələrin vaxtı bitdiyindən, yeni demokratik seçkiləri üsulu Parlamana təqdim edilsin ki, tezliklə hər yerdə bu üsul ilə bələdiyyə idarələri təsis olunsun. Hər yerdə bu cür bələdiyyə idarələri təsis edilmişdir. Hətta Gürcüstanda bələdiyyələrin ittifaqı da vardır ki, bizim bələdiyyə ittifaqımızla münasibata girişmək istəyirlər. Bu xüsusda bizə müraciət edib Azərbaycanda bələdiyyə idarələri ittifaqı olubolmadığını soruşmuşlar. Fəqət bizdə nəinki bələdiyyələr ittifaqı, bəlkə demokratik üsulla təsis edilmiş bir bələdiyyə idarəsi də yoxdur. Hökumət burasını nəzərə almalıdır. Və ikinci, zemstvo [yerli özünüidarə] idarələrinin təşkili üçün qanun tərtib verib Parlamana təqdim etməlidir. Bundan başqa, bələdiyyə seçkiləri hazırlayan komisyon da yeni bələdiyyə üsulu hazırlayıb Parlamana təqdim etsin. Bildiyimə görə, yeni seçkilər üsulu hazırlayan komissiyaya seçkilər üsulu hazırlanması yanvarın 29-da həvalə olunmuşdu. Lakin bu gün fevralın 25-də həman komisyonun hələ birinci iclası dəvət edilmişdir. Bu komisyon tezliklə işlərini qurtarıb seçki üsulunu Parlamana təqdim etməlidir. Bizim fraksiyamız ələlümum [ümumilikdə] bu borcun hələliyə verilməsini qəbul edir. Bununla bərabər, ümid edir ki, yeni bələdiyyə idarəsi seçkiləri qanunu tezliklə Parlamana təqdim olunar.

**Sədr** - Söz Heybətqulu Məhəmmədbəyovundur.

**Heybətqulu** (İttihad) - Burada keçmiş natiqlər söylədilər ki, şəhərin varidatı məsələsində guya Bələdiyyə İdarəsi iqdamatda [təşəbbüsdə] bulunmur. Necə ki məlumdur, Bakı bələdiyyəsi köhnə qanunla varidatı alır. Burada dedilər ki, Ərzaq naziri "poputnı sbor" alır. Bu pulu nədənsə bələdiyyə almayır. Əgər Məkulat Nəzarəti [Ərzaq Nazirliyi] böylə şey edibsə, o öz tərəfindən edibdir. Son zamanlarda bu haqqı şəhərdə idi. Keçən ildən isə Ərzaq Nəzarəti əlinə almışdır. Şimdi gərək yeni bir qanun olsun ki, əvvəlkiləri Bələdiyyə İdarəsi öz əlinə alsın. Bu qanunu da şəhər özü verə bilməz. Bunu gərək qabaqda olan Milli Məclis edə idi, ya gərək indiki Parlaman etsin. Bələdiyyə necə ola bilər ki, xoddəravərdə [özü durub] gedib pul istəsin. Buyurdular, ticarətxanalarda xərc alınmayıb. Bu xüsusda ərz edirəm ki, Bələdiyyə İdarəsinin ixtiyarı yoxdur ki, yeni xərclər qoysun. Necə ki, məlumdur promıslovıy naloq hökumətin xüsusi varidatıdır. Bələdiyyə böylə işlərə qarışmaz. Geridə qaldı traktirni məsələ. Bunu da ümum üçün deyə bilərəm ki, 1919-cu il üçün yalnız "Kazino"dan 280 min naloq alınır, həmçinin "Metropol" və qeyriləri var. Bələdiyyənin əsl daxodu [gəliri] isə dəhyekdir ki, bu da evlərin mədaxilindən alınır. Keçmiş Kerenski hökuməti müvəqqəti qanun verərək o "dəhyeki" birə-iki artırıb "dəhyek" əvəzinə indi 20 prosent alınır. Bu vergiləri artırmağa şəhərin qanunən ixtiyarı yoxdur. Necə ki, müvəqqəti qanuna görə rəsmən o xərcləri də kiralara artıra bilməzlər. Öz aralarında nə cür artırarlarsa, o başqa məsələdir.

Burada şəhərin torpaq məsələsindən bəhs olundu. Bilirsiniz ki, bu torpaq məsələsi cəncəlli bir məsələdir. Əksəriyyətlə bu torpaqlar füqəra və kasıbların əlindədir. Onun da icarəsini birə-on və ya 20 dəfə artırmağı bələdiyyə edə bilməz. Əvvəla bu bələdiyyəyə yaraşan şey deyil, ikincisi qeyri-mümkündür. Ola bilər 2, 3, 4 dəfə arta bilsin. Bununla da varidat bir ya bir yarım milyon artar ki, bu da 40 milyon məxaricə təfavüt eyləməz. Və bir də deyirlər ki, "yer" məsələsi var. Deyirlər şəhər ondan iki milyon mədaxil edə bilər. Ona da deyə bilərəm ki, Çənbərəkəndində bu yerdən 26 uçastok var. Əgər bələdiyyə bu yerdə oturanlara "kupça" versə, bir milyon mədaxil edər. Bu bir milyonun da əvəzinə yarım milyonunu xərc edib həman yerdə bir para küçələrin açılmağı üçün lazım olan yerləri sökəcəkdir. Bu da mümkün deyil. Hərgah şəhər istəyə ki, mədaxil və məxarici bərabər etsin, gərək məxarici əskiltsin. Şəhər bu saat 2000-ə qədər xəstə saxlayır. Onları qovmaq olmaz. Nə qədər məktəbləri var. Məktəblərdə şagirdləri var. Bu məktəbləri bağlaya bilməz. Məxaricləri də əskiltmək olmaz. Ən az məvacib də alan bələdiyyə qulluqçulardır. Süpürgəçilər və sairələri 500-dən artıq məvacib ala bilməyir.

Bir də söyləyirlər ki, Duma demokratik üsul ilə seçilsin. Bu da bələdiyyənin öz vəzifəsi olmayıb, Parlamanın hüququdur. Parlaman bu işi yapar, Hökumətə verər. Hökumət də bu barədə bələdiyyəyə təbliğat ilə layihə hökmünü icra etdirər. Təklif edərdim layihə qəbul olunsun. Nə qədər çox vaxt verilsə, bələdiyyə öz işlərini yaxşı apara bilər. Hərçənd 4 milyonla iş düzəlməz.

Bir də deyirlər bələdiyyənin indiki zamanda ən böyük mədaxil yolu sudur. Bu da budkalardan vedrəsi camaata üç qəpikdən buraxılır. Deməli, hər bir budkadan gündə 45 manatlıq su buraxılır. Su buraxan xidmətçinin məvacibi isə gündə 35 manatdır. Bələdiyyə İdarəsi suyun da qiymətini artıra bilməz. Edə bilməz ki, camaata 10 qəpikdən vedrəsi su versin. Bir də evlərdən 5, 6, 7 qəpik artırmaqla şəhərin mədaxilinə heç bir şey olmaz. Şəhərin mədaxil yolları qeyri olaraq tapsın və bu mədaxili artırmaq üçün hökumət Bələdiyyə İdarəsinə yeni qanunlar tənzim edilərək ixtiyar versin.

**Sədr** - Söz Sultanməcid Qənizadənindir.

**Qənizadə** (İttihad) - Mətləb burada şəhərə borc vermək xüsusundadır ki, şəhərə 4 milyon verilsin ya yox? Şəhərin işi çətindir. Bu məsələ ətrafında danışılan sözlərin bir çoxu yersizdir. Burada Bələdiyyə İdarəsinin demokratik üsulunda olub-olmaması barəsində danışdılar. Ona qarşı deyərdim ki, əlbəttə, bizim Bələdiyyə idarəmiz demokratiçeskidir. Çünki demokratik əsası ilə seçilibdir. Hökumətimiz cümhuri demokratik olduğundan Bələdiyyə İdarəsi də demokratik olmalıdır. Əgər deyilsə də, Parlaman qayda və qanun qoymalıdır ki, öylə də olsun. Qaldı ki, deyirlər guya şəhər bərşikəst [müflis] olub alacağını qaytara bilməyəcək, ona ianə verək, bu doğru deyildir. Çünki şəhər həyatı bu saat təbii yolundan çıxmışdır. Şəhər qeyri vaxtda ki özünü dolandırırdı, indi dolandıra bilmir. Bu hal həmişəlik deyildir. Şəhərin indiki halı xəstə bir cismə oxşar ki, sağ olarkən özünü dolandıra bilirdi, amma indi xəstə olduğundan müvəqqəti özünü dolandıra bilmir və müavinətə möhtacdır. Fəqət o xəstəyə çörək lazım olduğu kimi, şəhər idarəsinə də əmələ [işçi] haqqı, məktəb, xəstəxana, su və qeyri camaatın ehtiyacını rəf edən [aradan qaldıran] idarələr üçün məvacib verməyə para lazımdır. Bələdiyyə İdarəsi bu paraları Bakı və Bakı ətrafında olan əhali üçün sərf edir. Bakı Bələdiyyəsi, Gəncə Bələdiyyəsi – bunları biz hökumətdən ayrı bir şey hesab edə bilmərik. Bunlar hamısı səltənətin [dövlətin] bir parçasıdır. Ələlxüsus Bakı Bələdiyyəsi. Şəhər idarəsi saxladığı məktəb və xəstəxana və qeyrilər səltənətin özünündür. Hərgah biz Bələdiyyə İdarəsinə pul verməyib bizim işimiz deyil deyərsək, Bələdiyyə İdarəsi də deyər ki, mədaxil olmadığından məktəbləri və xəstəxanaları və qeyriləri bağlayıram. Onda hökumətin özünün borcudur ki, bağlanmış məktəb və xəstəxanaları açsın, su yoxsa, gətirsin və qeyrə. Madam ki, şəhər idarəsi özü bu barədə çalışmaq istəyir və onun üçün də müvəqqəti müavinət diləyir, biz bunun qabağında təşəkkür etməliyik. Ayrı söz ola bilməz. Hər halda, hökumətin borcudur ki, Bələdiyyə İdarəsinə kömək etsin. Hətta istibdad hökuməti də bu xoşbəxt şəhərə kömək edirdi. Bələdiyyə İdarəsi 4 milyon ki, müvəqqəti borc istəyir, burada ayrı mübahisə lazım deyildir; təşəkkür ilə bu borcu verməliyik. Nəinki faizsiz, bəlkə ianə surətində verməlidir. Bu qədər neft və ticarət sərvətinə malik olan şəhər idarəsinə özünü düzəldənə qədər arxayın olub borc verməmək olmaz. Bu borc gərək verilə və heç şərt-zad lazım deyildir.

**Sədr** - Təklif var ki, bu məsələyə etiraz olmadığından müzakirat qət olunub [müzakirələr kəsilib] səsə qoyulsun. Bu barədə dörd təklif var. Etiraz yoxsa, axırıncı söz məruzəçiyə verilib sonra səsə qoyulsun. Buna etiraz yoxsa, qəbul olunur. Axırıncı söz məruzəçiyə verilir.

*(yenə var)*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter acentəliyindən)*

**Zərərlər alınması**

Avamlar Kamerasında Bentik əsirlərin və əsirlikdə ölənlərin ailələri nəfinə [xeyrinə] hökumətin Türkiyədən təvizat [əvəz] tələb edib-etməyəcəyini xəbər almışdır. Bonar Lou cavab vermişdir ki, biz Türkiyədən də başqa düşmən hökumətlər kimi hər bir şeyi alacağız.

**Burlar arasında**

Kapştaddan xəbər verirlər ki, Cənubi Afrikada cümhuriyyət cərəyanı müqabilinə müxalifət hərəkatı artmaqdadır. Bütün məmləkətdə protesto mitinqləri qurulmaqdadır. Mitinqlərdən birində Cənubi Afrika İttifaqı ilə münasibat qət edilməsi [münasibətlərin kəsilməsi] və İngiltərə ilə əlaqəyə girmək təşviqatı əleyhinə qətnamə çıxarılmışdır.

**Romaniyanın zərəri**

Romaniyanın hesabına görə, Mərkəzi Dövlətlər müharibə zamanında Romaniyanın zərəri olaraq Romaniyaya 1 milyard 140 milyon borcludurlar. Rusiya isə 160 milyon borcludur.

**Təzə aeroplan**

Parisdən xəbər verirlər ki, doktor Raten təzə bir aeroplan ixtira etmişdir. Bu aeroplanın çarxı dəqiqədə 3 min dəfə dövr vurub çox ucaya qalxır. Bu aeroplanla Parisdən Əlcəzirəyə [Əlcəzairə] 5 saata, İstanbula 8 saata və Qahirəyə 11 saata uçmaq olar.

**Türkiyədə vüzəra böhranı**

İstanbuldan Sələnikə verilən xəbərlərdə denilir ki, Müttəfiqlər yunanlılar və ermənilər əleyhinə olan tədhişin [terrorun] dayandırılmasını və müharibə zamanında nəfy [sürgün] edilmiş yüz minlərcə ermənilərin və yunanlıların müsadirə edilmiş mallarının qaytarılmasını Türkiyə hökumətindən tələb etdiklərinə görə Tofiq paşa kabinəsi istefa vermişdir. Təzə kabinə təşkilini sultan öz öhdəsinə alır.

**Klemansonun əhvalına dair**

Keçənlərdə yaralanmış olan Fransa Rəisi-vükəlası [Baş naziri] tamamilə səhhətyab olmuşdur [sağalmışdır]. Pəncşənbə [cümə axşamı] günü səhər vaxtı isə öz məşğələsinə şüru eyləmişdir [işinə başlamışdır]. Sonra Hərbiyyə Nəzarətinə gedib qoşun rəisləri ilə müsahibədə bulunmuşdur. Ümid edirlər ki, Klemanso neçə gündən sonra Sülh Konfransında öz vəzifəsinə mübaşir olacaqdır [başlayacaqdır].

**Vilson**

Amerika Rəisi-cümhuru Vilson ikinci Avropa səfərindən qayıdanadək Amerika Konqresinin təcili iclasını dəvət etməyəcəkdir. O daimi sülh əqdinədək [imzalanmasınadək] Avropada qalmağı kəndisinə vəzifə bilir.

* Fevralın 25-də Vilson Bostona gəlməmişdən qabaq, ona hazır edilən sui-qəsd kəşf edilmişdir.

* Stokholm - 18 fevral. Nyu-York birjasında bu son günlərdə rus pulunun kursu qalxmışdır.

**Rostovda sakitlikdir**

Tiflisdə olan ingilis heyəti zeyldəki [aşağıdakı] xəbəri elan eyləyir:

Aldığımız məlumatdan anlaşılır ki, Rostov və Novoçerkasskda camaat arasında həyəcan var deyə, bolşeviklərin simsiz teleqraf xəbərləri doğru deyildir. Bizim məlumatımıza görə, hər iki şəhərdə əhval yaxşıdır. Tsaritsından qərb tərəfə olan Denikin ordusunun cəbhəsi möhkəmdir.

Fevralın 20-sindən verilən ən doğru xəbərə görə, Denikin ordusu şimali Don cəbhəsində müvəffəqiyyətlə 20 verst irəliləmişdir. Bir çox əsir və mühimmati-hərbiyyə [hərbi sursat] almışdır.

**Dağıstan və Denikin**

Tiflisdən alınan məlumata nəzərən, Könüllü [ordu] inquşlara verdiyi ultimatumun mislini Dağıstana da vermişdir. Bu tələbatda onlar, dağıstanlıları bolşeviklərlə mübarizədən ötrü səfərbərliyə dəvət edirlər. Dağıstandan bir neçə süvari alay istəyirlər.

**Bolşeviklərin yürüşü**

Kiyev - Şura qoşunları müharibə ilə Nikolayev şəhərini işğal etmişlərdir.

* Kiyev, 25 fevral - Kiyevdə Direktoriya tərəfindən buraxılmış 3 min ədəd pulemyot, 500 avtomobil, 3 milyon put kağız, neçə milyon put saldat şineli, 100-dən ziyadə yeni toplar, telefon, teleqraf və mühəndis əyaları və neçə min tüfəng bolşeviklərin əlinə keçmişdir. Fastov alınandan sonra bu qənaimin [qənimətlərin] miqdarı dəxi də artacaqdır. Kazatin-Fastov hissəsində Direktoriya yolları mühafizə etmək niyəti ilə 7 ədəd zirehli qatar buraxmışdılar. Fəqət bolşeviklər çox sürətlə yürüş etdiklərindən bu qatarlar onların əlinə keçmişdir. Berdiçevdə əmələ [fəhlə] və kəndçi şurası təşkil edilmişdir.

* Fastov, 26 fevral - Şura qoşunları tərəfindən Kazanka mövqifi [stansiyası] işğal edilmişdir. Hal-hazırda Qırmızı qoşunlar yürüş edirlər. Əsirlər deyirlər ki, düşmənlər qayət dəhşətli surətdə möhkəmləşir. Fevralın 21-ində bolşeviklər Belı Serkov şəhərini işğal eyləmişlər. Direktoriya oranı buraxaraq xəzinədə, banklarda olan pulları aparmışdır. Halhazırda şəhərdə asudəlik hökmfərmadır [hökm sürməkdədir].

## SÜLH ƏTRAFINDA

**Ermənilər Sülh Konfransında**

Tiflis, 28 fevral (fransız mətbuatı) - Çaharşənbə [çərşənbə] günü erməni sülh mürəxxəsləri [nümayəndələri] tərəfindən Sülh Konfransına Ermənistan tələbatı təqdim edilmək münasibətilə erməni mürəxxəslərindən Aharonyan "Tan" qəzetəsində işbu məlumatı verir:

*"Erməni Milli Şurası 1918-ci sənə mayın 27-sində Ermənistan istiqlaliyyətini elan eyləmişdir. Ermənistan Parlamanını dəvətlə hökumət təşkil edilmişdir. Milli Şura öz haqqını Parlamana güzəşt eyləmişdir. Hal-hazırda Ermənistan Cümhuriyyəti 60 min mürəbbe [kvadrat] kilometrdən ibarətdir. Əhalisi təxminən 2 milyondur. Ordusu isə 30 mindən 40 minədəkdir. Ermənilər ta müharibə ibtidasından [başlanğıcından] türklərin təklifini rədd edərək müharib [savaşan] dövlətlər cərgəsində Müttəfiqlərin nəfinə [xeyrinə] çalışmışlardır. Şimdi, əgər erməniləri Sülh Konfransından kənar edərlərsə, bu erməni milləti üçün böyük müsibət olacaqdır. Binaənileyh [ona görə], mənim hökumətim, başında bulunduğum erməni sülh heyətinə mühəvvəl etmişdir [tapşırmışdır] ki, ən əvvəl Ermənistan Cümhuriyyəti istiqlaliyyətinin təsdiq edilməsini, saniyən [ikinci olaraq] erməni mürəxxəslərinin Sülh Konfransına buraxılmasını tələb edək. O ki, qaldı sair milli tələbatımıza, biz tələb edirik ki, Türkiyədə olan erməni vilayətlərinin Ermənistan Cümhuriyyətinə ilhaq edilməsi [birləşdirilməsi] ilə bizə mükəmməl istiqlaliyyət verilsin. Böyləliklə təşkil ediləcək yeni Ermənistan Cümhuriyyəti Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] tərəfindən təmin və böyük dövlətlərdən birinin müavinətinə məzhər [nail] olmalıdır. Təbii, bu böyük dövlət dəxi Cəmiyyəti-Əqvam tərəfindən göstərilməlidir. Gələcəkdə tərəqqi etmək üçün biz tələb ediriz ki, bizim dənizə çıxmağımıza müsaidə verilsin. Onsuz erməni milləti yaşaya bilməz."*

## DAĞISTANDA

**Lyaxov və çeçenlər**

Aldığımız məlumata görə, Könüllü ordu başçısı general Lyaxov iki dəfə çeçenləri Qroznıya çağırıb Könüllü orduya və özünə tabe olmağı təklif etmişdir. Hər iki dəfə çeçenlər Lyaxovun təklifini rədd ilə cavab vermişlər ki, Dağıstan Hökuməti razı olmadıqca onlar Könüllü ordu binagüzarlıqlarına [əmrlərinə] əməl etməyəcəklərdir və çeçen camaatı Dağıstan Hökumətinin əmrlərini gözləyir.

**Denikin və müridlik**

Könüllü ordu tərəfindən inquş və çeçenlərə zülm və təcavüzlər edildiyindən, Könüllü orduya tabe olmaq istəməyən inquş və çeçenlər arasında müridizm adı ilə məruf [tanınan] dini bir hərəkət başlanmış və artmaqdadır. Dörd mindən ziyadə adam evini, aulunu tərk edib dağlara çəkilmiş və əhd etmişlər ki, Denikini tamamilə vətəndən qovanadək abreklik [qaçaqlıq] edəcəklərdir.

**Dağıstan arvadları müharibədə**

Könüllü ordu ilə dağıstanlılar arasındakı şiddətli müharibədə Dağıstan arvadları da iştirak edirlər. Neçə dəfə arvadlar Denikin kazak və könüllüləri ilə qanlı müsadiməyə [toqquşmaya] girişmişlərdir. Qafqaydan [Vladiqafqazdan] gələn bir şəxs rəvayət edir ki, arvadların müharibədə iştirakı dağıstanlılara öylə təsir edir [ki], onlar daha artıq şiddətlə davaya girərək hətta bəzi vaxt qılıncla düşmənə hücum edirlər.

**Yolların təxribi**

Şayiata [şayiələrə] görə, Könüllü orduya tabe olmaq istəməyən dağıstanlılar onların irəliləməsinə mane olmaq üçün dəmiryolları xarab edirlər. Dağıstan camaatı Kotsev hökumətindən narazı qalırlar ki, Könüllü ordu müqabilinə ciddi tədabir [tədbirlər] görməyir.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 4 mart (Çərşənbə axşamı günü) tarixli 128-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Şayiata görə, Dağıstan Hökuməti ilə Könüllü ordu arasında olan ixtilaf kəskin bir surət almışdır. Könüllü ordu başçıları Dağıstan hökumətinə iş başından çəkilməyi və Rusiyaya hücum edib bolşeviklərlə mübarizə etməkdən ötrü Dağıstandan əsgəri dəstələr verilməsi təklifində bulunmuşlar. Dağıstan Hökuməti bu təklifi rədd edib əhalini mübarizəyə dəvət edir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

Məsai Nəzarəti [Əmək Nazirliyi] tərəfindən Gəncə qəzasının 5-inci dairəsi müfəttişinə bir böylə kağız göndərilmişdir:

"Məsai Nəzarəti müvəkkili Hüseyn Rəhimzadənin Gədəbəy zavodu haqqındakı məruzəsini istemadan [dinlədikdən] sonra Nəzarət qət etmişdir [qərara almışdır]:

1) Təcili surətdə 8 saatlıq iş günü təyin ediniz!
2) Bayram axşamları və cümə axşamları 7 saat işləməlidir.
3) Hərbi İnqilab Komitəsi tərəfindən verildiyinə görə, bütün fəhlələrə təsviyyə pulu verməli.
4) Nəzarət tərəfindən müştərək [kollektiv] müqavilənamə tərtib edilənədək fəhlələrə bahalığa münasib məvacib verməli.
5) Fəhlələrə zavod komitəsi və kəsbkarlar ittifaqı [həmkarlar ittifaqı] təşkil etməyə izin vermək.
6) Fəhlə Komitəsi əzası [üzvləri] Nəzarət cənbindəki [Nazirliyin nəzdindəki] xüsusi müşavirədən izinsiz əzl [azad] edilə bilməzlər.

Fabrika və yaxud zavod müdiriyyəti maddələrin birinə əməl etməzsə, qanuni cavabdeh olacaqdır.

* Maliyyə Nəzarəti Məsai Nəzarətinə müraciətən təcili surətdə qulluqdan çıxarılacaq fəhlələrə veriləcək pulun miqdarını isticvabda bulunmuşdur [soruşmuşdur].

**Dövləti Müfəttişlikdə**

Dövləti Müffətiş [Əliağa] Həsənzadə həzrətləri Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] müraciətən sor[uş]muşdur ki, dəmiryolları xidmətçiləri xəstəlikləri və yaxud başqa bir hadisatdan sonra nə kimi mükafat alacaqlar. Nəzarət bununla bərabər məlum etmişdir ki, dəmiryolları qulluqçularını təmin etmək üçün dövləti sığorta təşkil etmək mənfəətdən xali deyildir [faydalıdır].

## İRƏVAN MÜSƏLMANLARININ HALI

İrəvan müsəlmanları nümayəndəsi Paşa Bayramov tərəfindən Azərbaycan Hökumətinə təqdim edilmiş məruzə:

Türklər İrəvan quberniyasından getdikdən sonra, 1918-ci sənə kanuni-əvvəlinin [dekabrının] ortalarında Ermənistan Hökuməti İrəvan müsəlmanları və ermənilərdən mürəkkəb [ibarət] bir heyət göndərib müsəlmanlar nəzdində qaçqın erməniləri öz kəndlərinə buraxmaq barəsində təşəbbüsatda bulundu.

Komisyon müsəlmanları inandırdı ki, ermənilərin müsəlmanlar əleyhinə heç bir iqdamatda bulunmaq [addım atmaq] fikirləri yoxdur. Fəqət [sadəcə olaraq] müsəlmanlarla sülh və müsalimətdə [əmin-amanlıqda] yaşamaq istəyirlər.

İşbu sözlərə inanmış müsəlmanlar erməniləri kəndlərə buraxdılar. Bunu da əlavə etməlidir ki, müsəlman kəndləri ermənilər tərəfindən yandırıldığı üçün müsəlmanlar erməni kəndlərində yerləşmişdilər.

Müsəlmanlar erməniləri şadlıqla qəbul edərək öz evlərində belə yerləşdirdilər. Ucuz qiymətə ərzaq və mühimmat buraxırdılar. Müsəlmanların məqsədi əski qonşuları ilə əlaqeyi-dostanədə yaşamaq idi.

Əfsus ki, böylə olmadı. Qaçqınlar ardınca erməni qoşun qitəatı [hissələri] kəndlərə doldular. Qaçqın ermənilər miyanında [arasında] min növ müfəttinlik [fitnəkarlıq] yapmaqla bir çox macəralar törətməyə müvəffəq oldular.

Ermənilər müsəlmanlardan kəndləri buraxıb getməyi tələb etməyə başladılar. Müsəlmanlar onlara kəndlərinin ermənilər tərəfindən yandırıldığını söyləməklə qış günlərində nerəyə gedə biləcəklərini də qeyd edirdilər. Heç olmazsa baharadək vaxt verilməsini dəfələrlə rica etdilərsə də, müvəffəq olmadılar. Zira ermənilər dinləmək belə istəməyirdilər. Bundan sonra ermənilər müsəlmanlar üzərinə dəhşətlər açmağa başladılar.

Özlərinin tələf olacaqlarını hiss edən müsəlmanlar ermənilərə təklif etdilər ki, qırğın qət edilsin [dayandırılsın], onlar çıxıb getməyə hazırdırlar.

Ermənilər bununla iktifa [kifayət] etməyib, müsəlmanların mallarını belə almağa başladılar. "Türklər gəldikdə bizim mallarımız itmişdir, şimdi siz gərək bizim xəsarətimizi verəsiniz" deyərək müsəlmanların var-yoxlarını yağma edirdilər.

Müsəlmanlar buna da razı oldular. Zira can qorxusu biçarələri hər bir zülmü qəbul etməyə məcbur edirdi. Müsəlmanlar mallarını, əşyanı [şeylərini] buraxıb çıxıb gedirdilər. Ermənilər yenə iktifa etməyib yollarda qaçqınlar üzərinə hücumlar yapıb öldürməyə başladılar.

Məsələn, İrəvan qəzasının 3-cü, 4-cü və 2-ci dairələrində, Eçmiyədzin qəzasının 1-ci və 3-cü dairələrində və Sürməli qəzasının 1-ci dairəsində müsəlmanlar 10 milyonlarla malları qarət və yağma edilib, 5000 nəfərdən ziyadə can tələfatı vermişlərdir.

Bu bəlalardan xilas olmuş bütün müsəlmanlar Sürməli qəzasının 2-ci "Aralıq dairəsi" nam [adlı] Ararat dağı ətəyindəki yerə cəm olub şimdiyədək orada yaşamağa davam edirlər.

Bunların halı olduqca fənadır. Aclıq və sari [yoluxucu] xəstəliklərdən insanlar milçək kimi qırılmaqdadırlar. Heç yerdən müavinət [yardım] yox. İşbu biçarələrin miqdarı 100 minədəkdir.

Bunlar keçən sənədə də böylə qarətə məruz qalmışdılar. Fəqət türklərin gəlməsi ilə yenə öz yurdlarına qayıda bildilər. Şimdi isə bütün dünyadan əlləri üzülmüşdür. Aradan bir Maku xanlığına yol vardır ki, oradan ufaq-təfək ərzaq alınır. Bunlara müavinət edilməzsə, hamısı qırılmağa məhkumdurlar. Hamı qaçqınlar açıq havada qalmışlar. Ermənilər paz kimi Sürməli qəzasına soxulmuşlar. Qəzanın 1-ci dairəsinin üçdən birini işğal etmişlərdir. Buranın mərkəzi İğdırdır. Bütün 2-ci dairəni və İrəvan qəzasının 4-cü dairəsinin bir hissəsini Qəmərli ilə bərabər tutmuşlardır.

Eçmiyədzin qəzasının bütün 3-cü dairəsi ilə 1-ci dairəsinin bir hissəsini də işğal etmişlər. Sərdarabad, Eçmiyədzin, Uluxanlı və Dəvəli mövqifləri də buraya daxildirlər. Əvvəllərdə buralar Araz Cümhuriyyətinin ərazisi idi.

Ermənilər bunlarla iktifa etməyib [kifayətlənməyib] müsəlman kəndlərinə də soxulmağa başlamışlardır. Müsəlmanlar buna etirazla məlum etdilər ki, müsəlmanlarla məskun [müsəlmanların yaşadığı] ərazi Ermənistana daxil olammaz. Ermənilər, bütün İrəvan quberniyası bizimdir, deyərək öz hərəkətlərində davam edirlər. Müsəlmanlar əhvalın məxuf və müdhişliyini [qorxulu və dəhşətli olduğunu] dərk etdiklərindən, axırıncı vəsaitədək mübarizədə bulunmağı qət etdilər.

Əvvəllərdə müsəlmanlar ermənilərin önünü almaqdan aciz idilər. Buna görə, ermənilər qalibanə bir surətdə yürüş edərək İrəvan qəzasında 8 müsəlman kəndini top atəşi ilə yerlə yeksan etdilər. Burası Vedibasar dairəsi idi. Ermənilər Şərur qəzasına da soxulub bir hissəsini tutdular.

Məruzəmdən muradım Azərbaycan Hökumətindən təcili tədabir ittixazı [tədbirlər görülməsi] təmənna və istirhamıdır [xahişidir].

Əvvəla: Sürməli və Vedibasar dairələrini – ki, Araz ilə Sürməli qəzasına hüduddur – Azərbaycan Hökuməti öz öhdəsinə alsın.

Saniyən [ikincisi]: təcili surətdə Sürməli qəzasında cəm olmuş qaçqınlara müavinət edilsin (Aralıq dairəsi).

Salisən [üçüncüsü]: əkin zamanı yaxlaşdığı üçün bunların öz yurdlarına qayıtmaları üçün lazımi tədabir ittixaz edilsin və erməni quldur dəstələrindən xəsarət çəkmiş müsəlmanların zərərləri Ermənistan Hökuməti tərəfindən verilsin.

Ermənistandakı müsəlmanların əhvalı barəsində də bir neçə söz demək istərəm.

Zəngibasar dairəsindəki Uluxanlı mövqifi [stansiyası] ətrafındakı müsəlmanlar qayda üzrə soyulmağa məhkum qalmışlar. Allahsızcasına, müsəlmanların özlərinə kifayət belə etməyəcək ərzaqları həcz [müsadirə] edilir, müsəlmanları aclıqla tərk-silah edirlər, böyük pul verməyə məcbur edirlər.

İşbu saydığım işlər daima macəralarla davam edir. Belə ki, daima ölüm, qarət, vəhşiyanə əlaqəni [vəhşicə münasibəti] görmək mümkündür. Bütün müsəlmanlar nəzəri-ilticalarını [yalvaran gözlərini] bircə Azərbaycana döndərib ümid bəkləyirlər. Vəilla [yoxsa], bu biçarələr təhqirat hədəfi olub tələf olacaqlardır.

İrəvan şəhəri müsəlmanlarının əhvalı böylədir. Şəhərdə erməni hökumətinin qüvvəsi yoxdur. "Xumblar" və bu kimi müsəlləh [silahlı] dəstələr Ermənistan Hökumətinə tabe olmayaraq müsəlmanları qətl-qarət etməkdə davam edirlər. Məsələn, Əkbər Hüseynov namdan [adlı şəxsdən] 40 min rublə, Həbib Məhəmmədovdan 50 min rublə tələb etmişlər. Saat 4-dən sonra müsəlmanlar küçələrə çıxa bilməyirlər. Ermənistan Hökuməti müsəlmanları təmin etməkdən acizdir. Binaən-ileyh [ona görə], müsəlmanlar şəhərdən çıxmağa məcburdurlar.

Türklərin övdətindən [qayıtmasından] sonra şəhərdə qalmış müsəlmanlar başqalarını da şəhərə gətirdilər. Böyləliklə 500 evədək müsəlmanlar yerlərinə qayıtdılar. Yolda bunlar qarət edildilər. Şəhərə gəldikdə ev tapmadılar ki, başlarını çəkib otursunlar. Zira bir çoxları məskun [içində sakinlər olan, dolu], digərlərinin bütün qapı, pəncərə, taxtabəndləri çıxarılıb yandırılmışdır. Müsəlmanlar məcburən məscidlərdə oturmuşlar.

Zəngibasardakı müsəlmanları tərk-silah etmək qəsdilə "qəhrəman" Aslan namın [Aslan adlı birinin] idarəsi altında bir qoşun qitəsi göndərildi. Aslan Yuxarı Necili kəndinə gəlib ictima [yığıncaq] dəvət edərək hər kənddən 500 ədəddən az olmamaq şərtilə tüfəng verməyi tələb etdi. Halbuki silahın sayı əhalinin sayından fəzlə çıxırdı. Müsəlman nümayəndələrinin iltiması [xahişi] qəbul edilmədi. Beş nəfər nümayəndəni iynəli və mıxlı ağaclarla döyməyə başladılar. Biçarələrdən birisi vəfat edərək digərisi çolaq oldu. Üçü isə çox zaman yataqda xəstə yatmağa məcbur oldular. Əhalini Məmiş Məşhədi Rəhim oğlu nam bir sərvətli müsəlman fəlakətdən xilas etdi. İşbu şəxs pul toplayıb ətrafından tüfəng alıb "Böyük Ermənistan" nümayəndələrinə verdi. "Qəhrəman" Aslanı və onun quldur dəstəsini öz xərcinə qonaq etdi. Böyləliklə bir çox silah cəm edildi. Aslan zəhmət haqqı olaraq hər kənddən 20 min rublə olmaq üzrə 180 min rublə pul, bir neçə min put da düyü və buğda aldı. Məmiş erməni başçısı olan Aslanı qonşu icmayadək ötürür və qayıdarkən Aslan ona üç saldat qoşub geri qaytarır. Saldatlar yolda Məmişi soyundurub qətl etdikdən sonra Zəngiyə atmışlar.

İşbu sənənin kanuni-sanisi [yanvarı] ortalarında Uluxanlı nam müsəlman kəndi yaxınlığında bir nəfər müsəlləh müsəlman görülmüşdü. Həman dairə komissarı kəndə gəlib bütün İrəvan şəhəri müsəlmanlarını həbsə aldı (fərar etmiş müsəlman irəvanlı idi). Bunları bir çox cəzaya düçar edərək fərarini tələb edirdi. Xalq fərarinin pədərinin [atasının] evini göstərməyə məcbur oldular. Qoca kişi oğlunun yerini bilmədiyindən bunun tələbini əmələ gətirməkdən aciz idi. "Qoçaq" komissar kəndxudanı çağırıb "Bunun meyitini götürərsiniz" dedi. Birazdan sonra yazıq pədəri qətl etdilər. Fərarinin namı [adı] Məşhədi Məhəmməd, pədərinin namı Məşhədi Qulu Əkbər idi.

Müsəlman başçılarını tutub gülləbaran edirlər. Rəşid bəy Şəmsəddinov, Kərbəlayi Nəcəf, Yunis Ağa və kürdlərdən Teymur bəy və Həsən kimi zəvat [şəxslər] qətl edilmişlərdir. Erməni Hökuməti qət etmişdir ki, 7 nəfər müsəlman Ermənistandan çıxarılsınlar.

Ermənistan Hökumətinin cinayətlərini saymaqla qurtarammaz. Bir-birini mütəaqibən [bir-birinin ardınca] müdhiş və məxuf [qorxulu] hadisat törəməkdədir.

## BAKI XƏBƏRLƏRİ

**Parlaman iclası**

Məclisi-Məbusanın dünkü növbəti iclası üzv az gəldiyindən baş tutmamışdır. Sədr Parlamanın nəzəri-diqqətini son zamanlar müşahidə olunan absenteizmə cəlb etmişdir.

**Könüllü ordunun Bakıdan çıxması**

Azərbaycan Hökuməti tərəfindən verilən ultimatuma görə, keçən gün Bakıda olan Könüllü ordu dəstələrindən iki eşelon Bakıdan çıxmışdır. Eşelonlar özləri ilə bir çox mühimmati-hərbiyyə [hərbi sursat] və avtomobillər aparmışlar. Məlum olduğu üzrə, bu vaxtadək Bakıdan iki eşelon könüllülər Petrovska azim olmuşlar [yola düşmüşlər]. Onların bir hissəsi hələlik Bakıdadırlar ki, bugünlərdə onlar da çıxıb gedəcəklər.

**Müsəlman sosialistləri miyanında [arasında]**

Eşitdiyimizə görə, müsəlman sosialistləri bugünlərdə Parlamanda bir deklarasiya oxuyacaqlar. Deklarasiyada müsəlman sosialistləri Rusiyanın federasiya əsası üzərində qurulması əsasını qəbul eylədiklərini bəyan edəcəklərmiş. Rusiya sosialistləri ilə bu barədə etilaf [razılıq] əmələ gəlmişdir.

**Pristavın həbsi**

Aldığımız məlumata görə, Bakı qalabəyisi dairəsi 10-uncu uçastok [sahə] pristavı Muradov adam öldürməkdə müttəhim edilərək Bakı qubernatoru Rəşid bəy Axundzadənin binagüzarlığı [sərəncam] ilə xidmətdən əzl [kənar] edilmiş və həbsə alınmışdır.

## FƏHLƏ KONFRANSI

Martın 2-si, saat 1-də Fəhlə Konfransının təcili iclası dəvət edilmişdi. İclas açıldıqda Roxlin son iki günkü əhvalat barəsində məlumat verərək deyir ki:

Əvvəllərdə Biçeraxov Qafqaziya qoşunlarının komandanı olduğu halda Denikin ordusunun əleyhinə idi, Rusiya və Azərbaycan, xüsusən Bakı demokratiyası əleyhində deyildi. Biz sosialistlər bunu layiqincə bilirdik. Yoldaşlar! Bunu da dərmiyan etməliyiz [meydana qoymalıyız] ki, bolşeviklər də həman Rusiyanın böyük kütləsini təşkil edən kəndçilər və fəhlə nümayəndələridirlər. Biz onların da zorla denikinlərə baş əyməsinə ziddik. Biçeraxov Bakıdan getdi. Əvəzində Prjevalski gəldi. Bunların həpsi başda Denikin olmaq üzrə irticaçıdırlar. Buraya bunlar gələn kimi əhvalat dəyişdi. Müsəlmanların dediklərinə görə, bunlar burada ermənilərdən dəstələr tərtib verirdilər ki, müsəlmanların və türk demokratiyasının əleyhinə işlətsinlər. Bu şayiatın doğru-yalan olduğunu bilmirəm, fəqət əhvalın dəyişməsini hamımız görürdük.

Şimdi bütün həqiqi sosialistlər işbu məsələni həll etməlidirlər. Rusiya "Yedinaya Rossiya"nın Rusiyası olmamalıdır. Zira o Rusiyada da velikoruslar ağa olmalıdırlar. Xeyr, bizim əqidəmizdəki Rusiya bütün millətlər üçün bir olmalıdır! Bizim əqidəmizdəki Rusiyaya hamı xırda millətləri təbliğat və məsələni tənvir etməklə [aydınlaşdırmaqla, izah etməklə] mülhəq etmək [birləşdirmək] mümkün olacaqdı. Yumruq isə iş görəmməz. Biz bütün müsəlman sosialistlərinə xəbər verdik ki, yumruq ilə sizi Rusiyaya mülhəq etmək istəyənlər əleyhinə biz də sizlə bərabər iştirak edəcəyiz. Biz bunu daima türk istiqlaliyyətçiləri, türk sosialist yoldaşlarımıza demişik, yenə də deyiriz.

Şimdi Denikinin əlindəki bayraqda "Rusiyanı cəm" sözləri yazılmışdır. Hərgah, bütün xırda millətlər bizimlə olarsalar, o vaxt biz həman bayrağı onun əlindən qapmağa qadir olarız. O vaxt denikinlər heç şey yapmazlar.

Bəlkə bu sözləri biz ağır sözlərlə, kinayələrlə söylədik. Fəqət, həqiqət buradadır ki, biz söyləmişik. Biz onlara deyirdik ki, üçüncü bir qüvvəni aramıza aldıqca işimiz o qədər korlanacaqdır. Biz layiqincə anlayırız ki, Rusiya generalları və yaxud Rusiya Milli Komitəsi zəif Azərbaycan Hökumətini üçüncü bir qüvvə kənarına atacaqdır. Ona görə də öylə bir siyasət yürüdürdük ki, bu olmasın. Biz bilirdik ki, bizim firqəmizin Azərbaycan Parlamanına getmək qətnaməsi bir çoxunun xoşuna gəlməmişdir. Bunlardan bir parası bolşeviklər tərəfdarı olduqları üçün Parlaman qəbul etməzlər. Digərləri isə başqa parlamanları qəbul edirlər, fəqət Azərbaycan Parlamanını xeyr. Bu isə fəna bir hissdir, deyə biz təbliğatda bulunurduq.

Prjevalski iş başına gəldikdən sonra flotda [donanmada] siyasət yürütməyə başladı. Bunu da deməliyəm ki, Biçeraxov iş başında olduğu vaxt flot Denikindən para alırdı. Avtokolonna [avtomobil qatarı] da öylə idi. Fəqət Prjevalski isə işi dəyişdirməyə başladı. Yoldaşlarımız bəhriyyun [matroslar] və avtokolonnaçılar bizə müraciətən bizdən məsləhət sordular. Onların miyanında [arasında] bir neçə cərəyan var idi.

Birinci cərəyan deyirdi ki, Denikindən pul almaq olmaz. Digəri deyirdi, pulun qorxusu yoxdur, pulu alıb onların əmrlərinə itaət etməmək yaxşıdır. Üçüncü cərəyan flotu dağıtmaq tərəfdarı idi. Hacı-Tərxana getmək haqqında isə biz rədd cavab verdik. Zira kim bilir, Hacı Tərxana gedənlər, geri Bakı üzərinə qayıtmayacaqlardır?

Bir cərəyan var idi, deyirdi ki, [elə] bir qüvvədən pul almalıdır ki, o qüvvə az zərər versin. Bu cərəyan deyirdi ki, Denikin Azərbaycan üzərinə gələrsə, flot Azərbaycanla bərabər Denikin əleyhinə müharibə açar. Yox, Rusiya demokratik əsasları ilə təşkil taparsa, bəlkə də Azərbaycan Rusiyaya mülhəq olsun. Bir də Azərbaycan Hökumətini demokratik əsasları üzərində təşkil etmək mümkün olar və yaxud Azərbaycan, flotu bitərəf etsin.

Bizim əqidəmizcə Azərbaycan məhəlli [yerli] xəstəlikdir, Denikin isə ümumrusiya xəstəliyidir. Üçüncü qüvvə isə bizə də, Azərbaycana da mənfəətli deyildir. Binaənileyh [ona görə], Azərbaycan tərəfinə getmək yaxşıdır. Nə isə.

İki gün bundan əvvəl İngiltərə komandanlığı əmr etdi ki, flot tərk-silah etməlidir. Şayiata [şayiələrə] görə, Prjevalski xəbər vermişdir ki, "Mən bunu edə bilmərəm, etmək də istəmirəm." Bunun doğruluğunu biz bilməyiriz. Fəqət şayiat böylə idi. Bundan sonra İngiltərə komandanlığı bunlara da bir vaxt verib o vaxtadək Bakıdan çıxmağı tələb etdi. Prjevalski çıxıb getdi. Şayiata görə, hətta [hərbi] xəstəxanalar da 24 saatadək Bakıdan çıxmalıdırlar. Flota da xəbər verildi ki, tərk-silah etməlidirlər. Flotun bir hissəsi Nargin cəzirəsi [adası] arxasına çəkildi, bir hissəsi Bakıda qaldı. Flot inqilab vəziyyətini aldı. Əqidəmizcə, böylə də olmalıydı. Zira hamı flot [bütün donanmalar] düşmənə təslim olmaqdansa, çıxıb gedər.

İngilislər xəbər vermişdilər ki, flot tərk-silah etməzsə, tədabir ittixaz ediləcəkdir [tədbirlər görüləcəkdir].

Mən, Çurayev və Yevanqulov general Tomsonun yanına gedib bu barədə danışmaq istədik. General bizi təbəssümlə qarşıladı. Biz generalla inqilabçı lisanı ilə söyləşməyə başladıq. General bizə dedi ki, flot Biçeraxova da təbəiyyət etmədi [tabe olmadı], Prjevalskiyə də təbəiyyət etmək istəmədi. Biz əvvəllər bu işə qarışmaq istəməyirdik. Fəqət şimdi biz divanə deyiliz ki, həm pul verək, həm də təbəiyyət etməsinlər. Biz elam etdik [bildirdik] ki, flot hərb vəziyyəti almış, ola bilsin ki, yarım saatdan sonra qan tökülsün. Bizi buraxınız, flotla görüşüb danışaq. General təbəssümlə dedi ki, flot ya qayıtmış, ya qayıdır. Biz generala xəbər verdik ki, onlar Rusiya demokratiyası əleyhinə gedirlər. Bakı füqərayi-kasibəsi əleyhinə silah işlədəcək olarsanız, türk demokratiyası da buna razı olmaz. Müsəlmanlar anlayacaqdır ki, siz Rusiya demokratiyası əleyhinə silah işlədirsiniz. General axırüləmr [axırda] bizim flot yanına gedib danışığımıza riza verdi. General bizim üçün böylə bir kağız oxudu. Rus flotu öz komandanlığına itaət etmədiyi üçün tərk-silah etdirilib İngiltərə komandanlığı göstərəcək yerə gedəcəkdir. Bir hadisat baş verəcək olarsa, İngiltərənin lazımi qədər qüvvəsi vardır ki, hadisatı bərtərəf etsin [aradan qaldırsın].

Yoldaşlar, biz flot yanına getmədik. Zira flot özü qayıtdı. Avtokolonnanın da bir hissəsi vaporlara [gəmilərə] yerləşdirilmişdir ki, buradan göndərilsin.

Bundan sonra birinci dəfə olaraq avtokolonna məsələsi müzakirəyə qoyulur. Məlum olur ki, avtomobillər yüklənmiş gəmilər getməyib durmuşlar. Onlar konfransın qərarını gözləyirlər. Bu vaxtda bir nəfər bəhriyyun [matros] gəlib xəbər gətirir ki, vaporların üçü getmiş, dördünə də demişlər ki, getməsələr həbs ediləcəklər.

**Bir nəfər müsəlman** - Yoldaşlar! Burada danışıldığı üçün denikinlər Rusiya demokratiyası deyil, Azərbaycan üçün də qorxulu bir düşməndir. Şimdi həman avtomobilləri Rusiya demokratiyası üzərinə işlədəcəkdir. Burada qalacaq olarsa, bəlkə Azərbaycanın özü[nə], yaxud konfransa veriləcəkdir. Biz gəmiləri getməyə buraxmayalım. Bizim topumuz yoxdur, tüfəngimiz yoxdur. Fəqət tətilimiz var. Qoy, yoldaşlarımızı həbs etsinlər. Biz də mübarizə edəriz.

**Vələdzadə** - Yoldaşlar! Rusiyanın bir avtomobilləri deyil, bir çox başqa şeyləri də bizim pulumuzla alınmışdır. Denikinlər solları, yoldaşlarımız bolşeviklər[i] məğlub etdikdən sonra, mərkəzi də məğlub edib əzməyə çalışacaqdır. Biz razı olmarız ki, bizim paramızla alınan silah yoldaşlarımız bolşeviklərin əleyhinə işlədilsin. Tətilimiz müavinət [kömək] etməzsə əks-inqilabçılar üzərinə gedəriz.

Qət edilir ki, 5 nəfər nümayəndə seçilib getsin ki, vaporları getməyə buraxmasın. 5 nəfərdən 2-si Zülfüqar və Qarayev olmaq üzrə müsəlmandan intixab edilirlər [seçilirlər]. Heyəti-rüəsa [rəyasət heyəti] tərəfindən Qənizadə gedir. Bundan sonra Roxlin böylə təklif edir:

1. Həbslər olmasın, həbs edilənlər azad edilsinlər.
2. Bəhriyyun və avtokolonnaçılara məvacibləri və çıxmaq pulu verilsin.
3. Xəstəxanalar Bakıda qalsınlar.
4. Gəmilər konfrans nümayəndələri təhti-nəzarətində [nəzarəti altında] tərk-silah edilərək bitərəf saxlanılsın.
5. Bunlar qəbul edilməzsə, təcili iclas çağırılıb tədabir ittixaz edilsin.

Təklif ümumiyyətlə qəbul edilir

## GÜRCÜSTANDA

**General Prjevalski**

Tiflis qəzetələri yazırlar ki, Bakıdan verilən xəbərlərə görə, Qafqaziyada olan rus qoşunu komandanı general Prjevalskinin ərkanı[nı] [qərargahını] Bakıdan Petrovska nəql etmək təsəvvüratındadırlar. General Prjevalski Petrovskda Könüllü ordu təşkil etmək niyyətindədir.

## TEATRO VƏ MUSİQİ

Zaqafqaziya müsəlman mütəallimlərinin [tələbələrinin] Mərkəzi Komitəsi nəfinə [xeyrinə] səşənbə [çərşənbə axşamı] günü martın 4-ə Hökumət Teatrosunda oynanılması təyin edilən "O olmasın, bu olsun" operettası və şərqi müsamirə asılı olmayan səbəblərə görə təxirə salınmışdır. Tamaşa oynanan gün əlahiddəcə xəbər veriləcəkdir. Bilet alanlardan rica olunur öz biletlərini saxlasınlar.


**Talibə (kursistka)**

Ali-ibtidai məktəbinin hər siniflərinə şagirdlər hazır edir. Saat 11-dən 1-ədək, 4-dən 7-ədək. Adres: Qubernski və Sisyanovski küçələrin küncündə, nömrə 7, diş həkimi Levinin evində.

*5713*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9-2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Axşam tamaşası**
**Təzə opera**

Azərbaycan Hökuməti Teatrosunda Zülfüqar bəy və
Üzeyir bəy Hacıbəyli Qardaşları müdiriyyəti
tərəfindən cümə günü cəmadiyəlaxir
ayının 4-ündə martın 7-sində
1919-uncu sənəsi
*Müdiriyyətin dirijoru musiqişünas və bəstəkar*
*Müslüm bəy Maqomayev və məşhur artist Hüseynqulu*
*Sarablının şərəfinə (benefisinə)*
Müslüm bəyin təzə yazmış olduğu
**"Şah İsmayıl"**
operası birinci dəfə olaraq
mövqeyi-tamaşaya qoyulacaqdır.
6 pərdədə
Bəstəkarı Müslüm bəy Maqomayev,
sözləri Mirzə Qədir İsmayılovundur.
Bu tamaşada bir ildən ziyadə
səhnəmizdə iştirak etməyən
məşhur artistka Y. N. Olenskaya,
böyük xor və balet dəstəsi
iştirak edəcəkdir.
Biletlər teatrın kassasında
indidən satılmaqdadır.
Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.
Möhtərəm tamaşaçılardan
xahiş olunur ki, biletləri indidən
alsınlar ki, tamaşa günü bilet almaqda
müşkülata düşməsinlər.

*T-50 3-1*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.


**Sərablı Məşhədi Möhsün Əliyev**

Bunun ilə möhtərəm həmvətənlərinə elan edir bizim Sabunçu və şəhər idarələrimizdə 1918-inci ildə qarət hadisəsindən naşi təxirə düşən hesabları vermişik. Hər kəsin tətimmə [əlavə; tamamlanası] hesabı qalıbsa, təşrif gətirib alsın.

Adres: Kamenisti küçədə 132 nömrəli mülkdə Əliyevlərin qədim hücrəsi.

*Müvəqqəti müdir:*
*Hacıbəyli Üzeyir*

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Hökmət niyə istefa etdi?***

"M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

***Azərbaycan Məclisi-Məbusanında***

"…uzlaşma tezliklə qövldən feilə gətirilsin": qəzetdə "qövldən" yerinə səhvən "qüvvədən" getmişdir.

"poputnı sbor": put vergisi; xüsusən limanlarda bəzi ticarət mallarından put başına alınan vergi.

"promıslovıy naloq": "ticarət vergisi"; dövlətin ticarət və sənaye müəssisələrindən aldığı birbaşa vergi.

"traktir": yeməkxana, meyxana, mehmanxana kimi xidmət müəssisələri.

"Kazino": Bakıda, Malakan (indiki Xaqani) küçəsində mehmanxana.

"dəhyek": onda birlik vergi.

***Teleqraf xəbərləri: Zərərlər alınması***

"Avamlar Kamerası": Böyük Britaniya Parlamentinin İcmalar Palatası nəzərdə tutulur.

***Teleqraf xəbərləri: Burlar arasında***

"Burlar": Cənubi Afrika afrikanerlərinin subetnik qrupu.

"Cənubi Afrikada": qəzetdə səhvən "Cənubi Amerikada" getmişdir.

"Cənubi Afrika İttifaqı": qəzetdə səhvən "Cənubi Amerika İttifaqı" getmişdir.

***Teleqraf xəbərləri: Romaniyanın zərəri***

"Mərkəzi Dövlətlər" (yaxud İttifaq Dövlətləri): Birinci Dünya müharibəsinin tərəflərindən biri olan Almaniya, Avstriya-Macarıstan, Osmanlı imperiyası, Bolqarıstan.

***Teleqraf xəbərləri: Türkiyədə vüzəra böhranı***

"Tofiq paşa": 1909, 1918-1919 və 1920-1922-ci illərdə Osmanlı dövlətində Baş nazir olmuş Əhməd Tofiq paşa (Əhməd Tofiq Okday) nəzərdə tutulur.

"Təzə kabinə təşkilini sultan öz öhdəsinə alır.": 1918-1922-ci illərdə Osmanlı sultanı olan VI Məhməd Vəhidəddin nəzərdə tutulur.

***Teleqraf xəbərləri: Kiyev***

"Kiyevdə Direktoriya tərəfindən buraxılmış…": qəzetdə "Direktoriya" yerinə "Diktatoriya" getmişdir. Ukrayna Xalq Respublikasının ali hakimiyyət orqanı olan və 1918-ci ilin noyabr ayından 1920-ci ilin noyabr ayına qədər fəaliyyət göstərən Ukrayna Xalq Respublikası Direktoriyası nəzərdə tutulur.

***Teleqraf xəbərləri: Fastov***

"Fastov": qəzetdə səhvən "Kastov" getmişdir.

***Sülh ətrafında***

"Aharonyan": qəzetdə "Aranyan" getmişdir.

"Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən "Le Temps" qəzeti nəzərdə tutulur.

***Dağıstanda***

"Müridizm": Əslində bir sufizm cərəyanı olan müridizm 1820-1860-cı illərdə Şimali Qafqaz dağlılarının rus müstəmləkəçiliyinə qarşı milli azadlıq hərəkatının da adı olmuşdur.

***Nəzarətlərdə***

"Hərbi İnqilab Komitəsi tərəfindən verildiyinə görə…": belə başa düşülməlidir: "Hərbi İnqilab Komitəsi tərəfindən verilən öhdəliyə əsasən…"

***İrəvan müsəlmanlarının halı***

"…5000 nəfərdən ziyadə…": qəzetdə səhvən "500 nəfərdən ziyadə" getmişdir.

"Aralıq dairəsi": qəzetdə səhvən "Araq dairəsi" getmişdir.

"Xumblar": erməni könüllü hərbi dəstələri; ermənicə "xumb" (dəstə) sözündən.

"Yuxarı Necili": qəzetdə bu kəndin adı, ərəb qrafikasındakı hərflərinin nöqtələrinin bir-birinə qarışdırılması səbəbindən "Yuxarı Bəxli" kimi getmişdir.

***Bakı xəbərləri***

"absenteizm": seçkilərdə iştirakdan boyun qaçırmaq yaxud kollegial orqanların üzvlərinin iclaslarda iştirak etməməsi.



# ŞUŞA İslam dünyasının mədəniyyət paytaxtıdır



**Qarabağ Azərbaycandır!**

**Ümummilli Lider Heydər Əliyev deyirdi: "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir".**



## Şuşa hər bir azərbaycanlı üçün əziz şəhərdir

### Azərbaycan xalqının zəngin tarixinin ən möhtəşəm abidələrindən biri...

Bu qədim şəhərin zəngin milli-mənəvi irsinin təbliği və inkişafı istiqamətində hələ sovet dövründə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə məqsədyönlü tədbirlər həyata keçirilirdi. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə Qarabağa çox böyük diqqət və qayğı göstərirdi. Azərbaycan xalqının zəngin tarixinin ən möhtəşəm abidələrindən biri, qəhrəmanlıq rəmzi olan Şuşanın tarixində həmin illərdə unudulmaz səhifələr yazılırdı.

Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə xüsusi qərarlar qəbul edildi. Şəhərin qədim binaları, tarixi abidələri həmin qərarlara uyğun olaraq bərpa edildi, yeni çoxmərtəbəli yaşayış evləri, ayrı-ayrı inzibati binalar, böyük mehmanxana kompleksləri inşa olundu. Şuşa ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Nəinki Azərbaycanın müxtəlif yerlərindən, sovet ittifaqının digər respublikalarından Şuşaya istirahətə gələnlər, həm də Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti ilə yaxından tanış olmaq imkanı qazanırdılar.

Ümummilli Liderin iştirakı ilə 1979-cu il yanvarın 12-də Ağdam-Xankəndi dəmir yolu istifadəyə verildi. Heydər Əliyev dəmir yolu xəttinin açıldığı gün Şuşaya getdi. O, şəhərdə Azərbaycan xalqının tarixi abidələrinin qorunmasına qayğı göstərilməsi barədə xüsusi göstəriş verdi. Şuşada həyata keçirilən tikinti-quruculuq işləri ilə yaxından maraqlandı, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Molla Pənah Vaqifin və Xurşidbanu Natəvanın yaşayıb-yaratdığı yerlərlə tanış oldu. "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır", - Şuşa rayonunun rəhbərləri ilə keçirdiyi görüşdə Heydər Əliyevin tövsiyəsi belə oldu.

### Bütün azərbaycanlıları birləşdirən şəhər

1967-ci ildə Heydər Əliyev Şuşada olarkən şair Molla Pənah Vaqifin məzarını ziyarət etmək istədi, ancaq məzarı tapa bilmədi. Onun göstərişi ilə tez bir vaxtda məzar tapıldı. Heydər Əliyev bərbad halda olan, dağılmış məzarı ziyarət etdi. Ulu Öndər nitqlərinin birində gördüyü bu məzarın Vaqifə layiq olmadığını bildirdi. Ümummilli Liderin göstərişi ilə Vaqifin məzarı üstündə abidə və türbə inşa edildi.

1977-ci ildə Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin inşasına memar A.V.Salamzadə və E.İ.Kanukovun layihəsi əsasında başlanıldı. Kompleks Şuşa şəhərinin Cıdır düzünə yaxın ərazidə şairin məzarı üstündə tikildi. Molla Pənah Vaqifin Şuşa həyatını əks etdirən dövrə aid olan 80-ə yaxın eksponat muzeydə sərgilənirdi.

Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də Molla Pənah Vaqifin məqbərəsinin və Şuşada Poeziya Evinin təntənəli açılış mərasimi keçirildi. Həmin qarlı yanvar günündə düzənlənən tədbirdə Şuşaya tanınmış sənət adamları toplaşdı. O gün milli mədəniyyət və sənət bayramına çevrildi.

Heydər Əliyevin göstərişi ilə hər il avqust ayında Vaqif Poeziya Günləri təşkil edildi. Tədbirlərin proqramları zəngin və maraqlı olurdu. Vaqif Poeziya Günlərində şeir gecələri ilə yanaşı, konsertlər də təşkil edilirdi. Bu poeziya günləri hər il avqust ayında şairin vətəni Qazaxdan başlayır, Şuşada yekunlaşırdı.

Şuşada olarkən Ümummilli Lider Üzeyir bəy Hacıbəylinin və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla da tanış olmuş, onların qorunmasına dair tövsiyələrini vermişdi. 1982-ci ildə Şuşada ikinci dəfə avqust ayında olanda isə Heydər Əliyevin iştirakı ilə şair Xurşidbanu Natəvanın abidəsinin açılış mərasimi həyata keçirildi.

Ənənəyə çevrilən və hər il böyük təntənə ilə keçirilən Vaqif Poeziya Günləri Şuşa erməni qəsbkarları tərəfindən işğal olunanadək davam etdi. 1992-ci il mayın 8-də Şuşa yağıların əlinə keçdi. Təcavüzkar ermənilər Şuşadakı milli-mənəvi, dini və tarixi-memarlıq abidələrimizi taladılar, məhv etdilər. Azərbaycanın klassik şairi Molla Pənah Vaqifin məqbərəsini də dağıtdılar. Ermənistan silahlı qüvvələrinin işğalı altında qaldığı otuz ilə yaxın müddətdə Şuşa bir sıra ənənəvi mədəniyyət tədbirləri kimi Vaqif Poeziya Günlərinə də həsrət qaldı...

Şuşanın abidələr şəhəri olduğunu qeyd edən Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək dəyərləndirirdi: "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur", - deyirdi. Azərbaycan xalqı Şuşanın Ermənistanın işğalı altında olduğu illərdə bunu daha dərindən hiss etdi.

2020-ci ildə Ermənistan silahlı qüvvələrinin təxribatı ilə başlayan və rəşadətli Azərbaycan Ordusunun zəfəri ilə başa çatan İkinci Qarabağ müharibəsində qədim şəhərimiz Şuşa da azadlığına qovuşdu. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan xalqına gözaydınlığı verdi: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı qələbəmizin, zəfərimizin günüdür!"

Prezident İlham Əliyevin xalqa daha bir müjdəsi isə belə oldu: "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" Artıq Şuşa həmin günlərini yaşayır. İşğal olunanadək keçirilən ənənəvi tədbirlər azadlığı bərpa edilmiş Şuşada davam etdirilir. Şuşa bir sıra möhtəşəm beynəlxalq tədbirlərə evsahibliyi edir.

Şəhərdə tikinti-abadlıq, quruculuq işləri böyük həssaslıqla həyata keçirilir. Çünki Heydər Əliyevin dediyi kimi: "Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

**Yaddaş**

## Şuşanın epiqrafik abidələrində 1905-ci il soyqırımları

**Azərbaycan, ələlxüsus Şuşa şəhəri epiqrafik abidələrlə, inşaat kitabələri və məzar daşları üzərinə həkk olunmuş yazılarla zəngin bir məkandır. Maddi-mədəni və etnomədəni irsin ən mühüm və vacib nümunələrindən biri də epiqrafik abidələrdir. Epiqrafik abidələrin tədqiq edilməsi ona görə aktualdır ki, kitabələrdə cəmiyyət həyatının müxtəlif cəhətləri - siyasi, sosial, psixoloji, psixo-sosial, tarix, iqtisadi, dini və mədəni reallıqlar, inzibati bölgü və idarəetmə sistemləri haqqında digər qaynaqlarda olmayan zəruri məlumatlara rast gəlmək mümkündür.**

Kitabələr aid olduqları abidələrin şəxsiyyət vəsiqəsidir. Başqa bir ifadə ilə, tarixi tikililər haqqında ilk məlumatları həmin epiqrafik abidələr vasitəsilə əldə etmək mümkündür. Kitabələrin üzərinə həkk olunmuş yazılar vasitəsilə biblioqrafik, din və ictimai fikir, dil və ədəbiyyat, demoqrafik və ailə vəziyyətləri, əlamətdar tarixi hadisələr və sairə istiqamətlərdə sağlam məlumatları əldə etmək olar. Kitabələr, həmçinin məxsus olduğu məntəqənin və dövrünün memarlıq üslubları haqqında da geniş təsəvvürlər yaradır.

Bu istiqamətdə Yuxarı Gövhər ağa məscidinin həyətyanı sahəsində üzəri ərəb-fars dillərində yazılmış məzarları qeyd etmək olar. İlk dəfə tədqiqata cəlb edilən və tərəfimizdən oxunan bu yazılar XX əsrin əvvəllərində Qafqazda cərəyan edən bir çox hadisələrə işıq salır.

Yuxarı Gövhər ağa məscidinin həyətində mövcud olan kiçik məzarlığa aid bir sıra epiqrafik abidələrə həkk olunmuş yazılar erməni cinayətlərini sübut edəcək mühüm məlumatları özündə ehtiva edir. Belə ki, xatirə abidələrinə ərəb-fars dillərində həkk olunmuş yazıların tədqiqi zamanı məlum oldu ki, burada dəfn olunanların mütləq əksəriyyəti 1905-ci ildə ermənilərin Şuşa şəhərində azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində həlak olan şəxslərin qəbirləridir. Məsələn, həmin xatirə abidələrindən birinin üzərində bu cür qeyd edilib: Bu, 1323-cü il rəcəb ayının əvvəlində ermənilər tərəfindən qətlə yetirilmiş Məşədi Süleyman Kərbəlayi Rüstəm oğlunun qəbridir".

Məzarın üzərində göstərilən tarix miladi 1905-ci il avqust ayına təsadüf edir ki, bu ildə ermənilər tərəfindən müxtəlif bölgələrdə azərbaycanlılara qarşı kütləvi qətliamlar təşkil edilmişdir. Burada vacib olan məqam isə məzarın üzərində "ermənilər tərəfindən qətlə yetirilmişdir" ifadəsinin xüsusi qeyd edilməsidir. Bu informasiyalar özü-özlüyündə erməni vəhşiliyini və mənfur düşmənin xalqımıza qarşı törətdiyi cinayətləri sübut edən əyani faktlardır.

1905-ci ildə Rusiyada hakimiyyət əleyhinə üsyanların və iğtişaşların baş verməsindən və çarizmə qarşı narazılıq dalğasının güclənməsindən istifadə edən ermənilər Cənubi Qafqazın müxtəlif bölgələrində, o cümlədən Bakı, Şuşa, Zəngəzur və Azərbaycanın digər ərazilərində kütləvi qırğınlar törətmişlər. 1905-ci il fevralın 6-da Bakıda başlayan erməni-müsəlman davası, may-iyun aylarında İrəvan, Naxçıvan, Şuşa, Cəbrayıl və başqa bölgələri əhatə edirdi. Daha dəqiq desək, ermənilər 1905-1906-cı illərdə Cənubi Qafqazın 14 qəzasında - İrəvan, Naxçıvan, Şərur-Dərələyəz, Eçmiədzin, Aleksandropol, Sürməli, Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur, Gəncə, Qazax, Ərəş, Borçalı qəzalarında və 8 şəhərində - Bakı,



İrəvan, Naxçıvan, Gümrü, Gəncə, Şuşa, Qazax və Tiflis şəhərlərində qırğınlar törətmişlər.

Şuşa şəhərində ilk erməni daşnak silahlılarının təcavüzünə məruz qalan şəhərin küçələrinin çıraqlarını yandıran Kərbəlayi Məhəmmədhüseyn olmuşdur. Səhər tezdən küçələrin çıraqlarını söndürərkən, "Şahlıq" körpüsü yanında fənər nərdivanından yerə düşərkən üç erməni Kərbəlayi Məhəmmədhüseynə bir neçə yerdən ölümcül zərbə vurmuşlar. Kərbəlayi Məhəmmədhüseynin ölümündən bir az sonra Şuşa Realnı Məktəbinin təmirini edən on səkkiz iranlı fəhlənin qaldıqları evin sahibi onları erməni silahlılarına təhvil vermişdir. Müsəlmanlar iranlı fəhlələrin cəsədlərini çıxarıb gətirib Cıdır düzündə dəfn etmişlər.

1905-ci il avqustun 16-21-də Şuşada erməni silahlılarının təcavüzü nəticəsində müsəlman əhalisi müdafiə olunmaq üçün silaha sarılmışdır. Avqust ayının 16-da erməni daşnak silahlıları üç istiqamətdə Şuşanın müsəlman əhalisi üzərinə hücuma keçmişlər. Ermənilərin birinci dəstəsi Yuxarı Xəlfəli qapısına, ikinci dəstəsi meydana, üçüncü dəstəsi Köçərli məhəlləsinə hücum etmişlər. Ermənilər köçərli məhəlləsində on beşə qədər müsəlman evini qarət edib yandırmışlar.

Şuşanın türk-müsəlman əhalisi şəhərin strateji və döyüş üçün əlverişli yerlərində altı müdafiə və hücum səngəri qurmuşdu. Döyüş başlayanda ermənilər məhkəmə və duma divanxanasını yandırdılar. Avqust ayının 17-də "Difai" partiyasının rəhbərliyi altında yaxşı təşkil olunmuş müdafiə və hücumdan sonra ermənilər xeyli itki verərək geri çəkilməyə məcbur oldular.

Şuşa müsəlmanlarına köməyə gələn şəhərətrafı türk-müsəlman kəndlərinin silahlı dəstələri Tiflis və Gəncə şəhərlərindən və erməni kəndlərindən ermənilərə köməyə gələn yüzlərlə erməni silahlılarını məhv etmişlər. Avqust ayının 19-da Şuşanın türk-müsəlman əhalisinin özünümüdafiə dəstələri ermənilərin qərargah və silah anbarı kimi istifadə etdikləri Xandəmirov teatrına od



vurmuşlar. Şuşada döyüş üstünlüyünü saxlayan türk-müsəlman silahlı dəstələri avqust ayının 21-nə kimi erməni daşnak silahlı dəstələrini şəhərdən qovub çıxarmağa nail olmuşlar. 1905-ci il avqust hadisələrində Şuşa şəhərində yüzə kimi müsəlman erməni silahlıları tərəfindən öldürülmüş və iyirmiyə qədər müsəlman evi yandırılmışdır.

Sonda qeyd edə bilərik ki, bu xüsusda Azərbaycan tarixinin öyrənilməsi və tarixi sərhədlərinin müəyyənləşdirilməsində epiqrafik abidələr böyük əhəmiyyətə malikdir. Bu nöqteyinəzərdən, epiqrafik abidələrin tədqiqi və qəbirüstü abidələrdə əks olunmuş epitafiyaların yeni reallıqlar kontekstində oxunması müasir Azərbaycan elminin qarşısında duran aktual problemlərdən biridir. Belə ki, epiqrafik abidələrdə həkk olunmuş yazılar regionda yaşayan xalqların təşəkkülünün həm ilkin mərhələlərini, həm də əhalinin etnoqrafik, linqvistik və antropoloji xüsusiyyətlərinin formalaşması proseslərinin, eləcə də xalqın etnogenezinin, dini-milli dünyagörüşünün və əhali arasında hakim olan ideoloji məsələlərin müəyyənləşdirilməsində ən əlverişli vasitələrdən biridir.

*Elnur MUSTAFAYEV,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*

**Milli-mənəvi irsimiz**

## Hər ilməsində bir həyat var

**Şuşa tarixən Qarabağın əsas xalçaçılıq mərkəzlərindən biri olub. Əl işi texnologiyası, möhtəşəm dizaynı və gözəl rəngləri ilə daim diqqət çəkib. Bu şəhərdə xalça toxuculuğu XIX əsrdə tərəqqi dövrü keçib. Şuşa Qarabağ xalçalarının istehsal və əsas satış məntəqəsinə çevrilib. Gözəlliyi, rəngarəngliyi ilə hər zaman seçilən Şuşa xalçaları Azərbaycanın zəngin mədəni irsinin parlaq rəmzidir və dünya səviyyəsində də dəyərləndirilir.**



Şuşa qrupuna aid "Malıbəyli", "Ləmpə", "Bağçada güllər", "Bulud", "Saxsıda güllər" və "Nəlbəki gül" xalçaları hündür xovu, əlvan, şux koloriti, nazik və incə toxunuşu ilə seçilir. Bu ərazilərdə xanlara məxsus sarayların bəzədilməsi üçün böyükölçülü xalılar toxunmuşdur. "Bulud", "Bağçada güllər", "Saxsıda güllər" adlı Şuşa xalçaları məşhurdur.

Şuşa şəhərinin yaşlı ustaları Qarabağ tipinə aid xalçalara "Qoca" adını vermişlər. Əvvəllər xalçalar "Xocavənd", "Xocan", daha sonra isə "Qoca" adı ilə tanınıb. Vaxtilə belə nümunələr xüsusi sifarişlə toxunurdu. "Qoca" digər yerlərdə toxunan xalçalarla müqayisədə daha mürəkkəb və yüksəksəviyyəli bədii naxışlara malik olub. Bu xalçalar iri ölçüdə idi. Son zamanlar uzunsov və kiçikölçülü "Qoca" xalçaları da toxunur. Ənənəvi kompozisiyası geniş bir simmetriya və quruluş prinsiplərinə əsaslanır. Xalçanın əsasında ənənəvi Azərbaycan rəngləri istifadə olunur: qırmızı, boz, yaşıl və sarı. Bəzəklər geniş bir nümunə və motofonu ilə tanınır və əsasən geometrik formalar, rənglərin harmoniyası və kontrastları ilə diqqət çəkir. Bu bəzəklər xalçanın hər iki tərəfinə də oxşar şəkildə tətbiqlənir və simmetrik dizayn edilir. Xalça əl işi texnologiyaları ilə yaradılır və geniş bir keyfiyyət standartına malikdir. Şuşa şəhərinin ən məşhur xalça nümunələrindən biri



kimi tanınır və Azərbaycanın zəngin mədəni irsinin bir simvolu olaraq qiymətləndirilir.

"Bağçada güllər" XIX əsrin ikinci yarısından Şuşa xalçaçılıq mərkəzində toxunurdu. Əvvəllər bunları "Güllü yaylıq" adlandırırdılar. Qarabağ məntəqələrində yayılandan sonra isə indiki "Bağçada güllər" adı ilə tanınıb. Güllü naxışlar XIX yüzilliyin üçüncü rübündən etibarən artıq təkcə kiçik xalçalarda deyil, dəstxalı-gəbələrdə də tətbiq olunmağa başlanıb. "Bağçada güllər" xalça sənətinin ən gözəl nümunələrindən biridir, ənənəvi xüsusiyyətlərə malikdir. Bu xalçanın ən gözəl tərəflərindən biri rənglərin zənginliyidir. Alqırmızı, sarı və qəhvəyi tonlarla incə işlənmişdir. Texniki olaraq "Bağçada güllər" xalçası əl işi texnologiyaları ilə hazırlanır.

"Bulud" xalçası belə adlanmasına baxmayaraq, kompozisiyada bulud təsvirinə aid heç bir nümunə yoxdur. Xalçaya diqqətlə baxsaq, qarışıq şəkildə güllərdən ibarət olduğunu görə bilərik. Ornamentlərin qarışıq formada yerləşdirilməsi onu buluda bənzədir. Yerli çeşniyə uyğunlaşdırılaraq toxunur, iri yarpaq elementlərdən təşkil olunur, həmin hissələrə parlaq çiçək təsvirləri yerləşdirilir. Xalçanın haşiyəsi də bu tərzdə tərtiblənir, istifadə edilən rəng palitrası olduqca zəngindir. Bu palitra Qarabağ təbiətinin bütün rənglərinin ən zərif çalarlarını özündə əks etdirir. "Bağçada güllər" xalçası ilə eyni zamandan qaynaqlanır. Orta sahədə qoyulmuş medalyon formalı element Avropa dekorativ incəsənətinin bütün sahələrində istifadə olunan ornament tipidir.

Şuşa xalçalarının Azərbaycan mədəniyyətində olduğu kimi, bütün dünyada da zəngin mədəni və tarixi yeri var. Bu qrupa aid xalçalar tarixi əlyazma və xalça sənətinin birləşdiyi bir nümunədir. Dünya mədəniyyətində Şuşa xalçası Azərbaycanın sənət və ədəbiyyat mirasını təmsil edir və onu beynəlxalq aləmə tanıdır. Bu xalçalar tarixi və mədəni baxımdan önəmli bir simvoldur və dünya mədəniyyətində əhəmiyyətli mövqeyə malikdir.

*Qurban MƏMMƏDOV*



## Şuşa şəhərindəki "ASAN xidmət" mərkəzi iyunun sonlarınadək hazır olacaq

**Şuşa şəhərindəki "ASAN xidmət" mərkəzi iyunun sonlarınadək hazır olacaq. Həm Şuşa, həm də Xankəndi sakinləri həmin mərkəzin xidmətlərindən istifadə edə biləcəklər.**

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev deyib.

Onun sözlərinə görə, azad edilmiş ərazilərdə dörd "ASAN xidmət" mərkəzi fəaliyyət göstərəcək. Həmin mərkəzlər Ağdam, Cəbrayıl, Laçın və Şuşa şəhərlərində yerləşəcək. Ağdam, Cəbrayıl, Laçındakı mərkəzlər regional olacaq.

**Musiqi inciləri**

## Qəmərim, ay Qəmərim

**Xalq mahnısı kimi tanınan "Qəmərim" mahnısının yaradıcısı və ilk ifaçısı Xan Şuşinskidir. Musiqi tədqiqatçılarından Firudin Şuşinski "Xan Şuşinski" adlı yazısında bu barədə diqqətçəkən bir xatirə qələmə alıb.**

Həmin xatirədən bəlli olur ki, 1936-cı ildə Xan Şuşinski Şuşaya Firudin müəllimin yaxın qohumunun toyuna gəlibmiş. Firudin Şuşinski yazır: "Özü də məclisdə hamını yox, ən gözəl rəqs etməyi bacaranları oynadardılar. O zaman dəbdə olan oyun havalarından ən məşhuru "Qəşəngi" havası idi ki, qız və gəlinlərimizin əksəriyyəti bu havaya, özü də Xanın iştirak etdiyi toylarda oynamağa can atardılar. Yadımdadır: şirniçi Yunisin qızı Qəməri oynatdılar. Qəmər həm "Qəşəngi"ni oynamaqda, həm də gözəllikdə Qarabağda birinci sayılırdı...". 35 yaşlı Xan da son dərəcə gözəl və yaraşıqlı bir cavan idi. Qəmərin gözəlliyindən, şirin-şirin süzməsindən ruhlanan Xan bədahətən Qarabağ gözəlinə bu sözləri qoşaraq oxumağa başlayıb:

*Saçın uzun hörməzlər,*
*Səni mənə verməzlər,*
*Əyil, üzündən öpüm,*
*Qaranlıqda görməzlər.*
*Ay Qəmərim, Qəmərim,*
*Gözəl Qəmərim, Qəmərim!..*

İndi xalq mahnısı kimi dillər əzbəri olan "Qəmərim" ilk dəfə 1936-cı ildə Şuşada Köçərli məhəlləsində Xan Şuşinski tərəfindən bədahətən oxunaraq musiqi dünyamızın solmayan incilərindən birinə çevrilib.




# Kosmos üçün yeni skafandr

**"SpaceX" şirkəti "EVA" (Extravehicular Activity) adlı yeni skafandrını təqdim edib. Bütün testlərdən uğurla keçən "EVA" şirkətin uçuş missiyalarında istifadə etdiyi skafandrların əsasında hazırlanıb. "SpaceX" mühəndisləri yeni skafandrın hərəkət sahələrinin konstruksiyasını təkmilləşdiriblər. Nəticədə onu kosmik gəmidən kənarda istifadə etmək daha əlverişli olub.**



Skafandrın təkmilləşdirilmiş dəbilqəsi astronavtın gözlərinin günəş işığından qorunması üçün yeni növ örtüyə sahibdir. Dəbilqəyə proyeksiya ekranı da inteqrasiya edilib. Astronavt açıq kosmosa çıxan zaman skafandrın vəziyyəti ilə bağlı məlumatları həmin proyeksiya ekranında görə biləcək.

"EVA" ilk dəfə "Polaris" proqramının bir hissəsi olan "Polaris Dawn" adlı missiya çərçivəsində istifadə ediləcək. Proqram milyarder astronavt Cared Ayzekmen tərəfindən maliyyələşdirilir. O, 3 nəfərlə birlikdə kosmosa turistik uçuşda iştirak edəcək. Məhz həmin uçuş çərçivəsində "Crew Dragon" kosmik gəmisindən açıq kosmosa çıxışın reallaşdırılması planlaşdırılır.

## İnsan dərisinə bənzər elektron dəri

**ABŞ-nin Texas Universitetinin mütəxəssisləri tərəfindən hazırlanmış yeni elektron dəri insan dərisi ilə eyni yumşaqlıq və tekstil həssaslığına malikdir.**



Hazırkı elektron dərilər material uzandıqca öz həssaslığını və dəqiqliyini itirir. Lakin yeni məhsul dəri uzandıqdan sonra orijinal formasını bərpa edə və təzyiqə qarşı reaksiyasını qoruya bilir. Buna görə də o, dəqiqlik və güc nəzarəti tələb edən tapşırıqlar üçün yeni imkanlara yol açır.

Layihəyə rəhbərlik edən professor Nanşu Lu inkişaf etdirdikləri dərinin xəstələrin nəbzini yoxlayan, bədənlərini təmizləyən və masaj edən robotlarda da istifadə ediləcəyini deyir: "İnsanlarla səmərəli, həm də mehriban davranmağın yeni yollarını tapmalıyıq və robotlar bu tapmacanın vacib hissəsidir. Bu tip robotlar təbii fəlakətlər zamanı da istifadə edilə bilər. Məsələn, zəlzələdə və ya çökən binada yaralı və ya sıxışmış insanları axtara və yaralılara ürək masajı edə bilər".

Təcrübələr zamanı yeni elastik dərinin yerləşdirildiyi robot hətta kiçik yumurta və tako qabıqlarını belə zədələmədən götürə bilib.

## Birnəfərlik elektrikli təyyarə

**ABŞ-də birnəfərlik "Helix" elektrik təyyarələrinin satışına başlanılıb. Təyyarənin idarəsi üçün pilot lisenziyası tələb olunmur. Onunla ancaq aeroportlardan kənarda uçuşlara icazə verilir.**



Elektrik təyyarə şaquli olaraq yüksəkliyə qalxır və enir, sürəti 100 km/saata qədər çatır və bir dəfə doldurulmaqla 32 kilometrə qədər uça bilir.

## Peyklə ilk dəfə "Bluetooth" bağlantısı qurulub

**"Hubble" kosmosla "Bluetooth" bağlantısı quran ilk şirkət oldu. 2024-cü ilin əvvəlində şirkət "SpaceX"in "Transporter-10 rideshare" missiyası çərçivəsində ilk 2 peykini orbitə çıxartdı. O vaxtdan bəri şirkət 600 km məsafədə 3,5 mm-lik "Bluetooth" çipindən siqnal qəbul edə bildi.**



Şirkət mütəxəssislərinin məlumatına görə, istənilən "Bluetooth" cihazını "Hubble"ın peyk şəbəkəsinə proqram təminatı yeniləməsi və 20 dəfə az batareya sərfiyyatı ilə qoşmaq mümkündür. Az gücə malik və büdcəli sensorlarla, bahalı kosmik aparatlara ehtiyac olmadan saysız-hesabsız proqramlar inkişaf etdirilə bilər.

"Hubble" 2021-ci ildə "Life360"ın həmtəsisçisi Haro, "Iotera" qurucusu Ben Vayld və aerokosmik mühəndis Con Kim tərəfindən təsis edilib. "Bluetooth" çipini peykə qoşmaq ideyası ilk dəfə Haroya təqdim olunanda o, bunu absurd hesab edib. Lakin mövcud yerüstü və peyk şəbəkələrinin qeyri-bərabər olması, xüsusilə ucqar ərazilərdə əhatə dairəsi problemləri, həddindən artıq enerji sərfiyyatı və yüksək istismar xərcləri bu ideyanı cəlbedici edib.

# Unikal tərkibli plastik

**Plastikin yaradılmasında polimerlərdən istifadə edilir. Onların kimyəvi yol ilə parçalanması isə böyük enerji sərfiyyatını tələb edir. Buna alternativ qismində alimlər polimerlərin kimyəvi əlaqələrini xüsusi ferment sayəsində parçalamağa qadir olan bakteriyalardan istifadə ediblər.**




Mütəxəssislər "Bacillus subtilis" adlı bakteriya növünü ən geniş yayılmış plastik materiallardan biri olan termoplastik poliuretana yerləşdiriblər. Bu bakteriya növünün əsas özəlliyi ondan ibarətdir ki, o, insanın termoplastik poliuretan tərkibli məhsuldan istifadə etdiyi müddətdə "yatmış" olur. Məhsulun təkrar emalı zamanı isə bu bakteriya "oyanır" və polimerlərin parçalanması prosesinə başlayır.

Daha öncə güman edilirdi ki, plastikdə bioloji materialın istifadəsi plastik materialın dözümlülüyünü zəiflədəcək. Lakin sonradan məlum olub ki, tərkibində "Bacillus subtilis"in olduğu plastik analoqlarından daha dözümlüdür. Bu isə bakteriyanın su keçirməyən səthi ilə bağlıdır.

# Gələcəyin miniveni

**"Toyota"ya məxsus "Boshoku" brendi Çində keçirilən Pekin avtomobil sərgisində gələcəyin miniven avtomobil konseptini sərgiləyib. Qeyri-adi dizayna sahib olan miniven "Lounze" adlanır. O, uzaq gələcəkdə minivenlərin necə görünə biləcəyini əks etdirir.**



Avtomobilin gövdəsi simmetrik düz bucaq formalara sahib olduğu üçün onun ön və arxa hissələri oxşar görünüşdədir. Minivenin həm xarici, həm də daxili görünüşünə xüsusi diqqət yetirilib. Xüsusi işıqlandırma sistemi ilə daxili hissədən tavana ulduzlu səmanın proyeksiyası avtomobilə futuristik görüntü verir. Minivenin daxilində 3 cüt sərnişin oturacağı var. Hər bir oturacaq 360 dərəcə fırlanma özəlliyinə, istilik və ventilyasiya sisteminə, üstəlik masaj imkanına sahibdir. Avtomobildə ənənəvi idarəetmə sükanı mövcud deyil. Onu böyük ölçülü ekran əvəz edir.

Lakin bu, hələlik sadəcə bir konseptdir və o, yaxın illərdə kütləvi istehsal üçün nəzərdə tutulmayıb.

## Daha çox enerji saxlayan "su batareyası"

**Çin alimləri litium hüceyrələrindən daha çox enerji saxlaya bilən "su batareyası" hazırlayıblar. Yeni su əsaslı batareyaların ənənəvi akkumulyatorlardan iki dəfə çox enerji saxlamaq gücü olacaqdır.**

Tədqiqatçıların fikrincə, bu akkumulyatorlar elektrikli avtomobillərdə istifadə oluna bilər. Bu gün avtomobillərdən tutmuş smartfonlara qədər geniş çeşiddə məhsullarda istifadə edilən litium batareyalarına yüksək enerji sıxlığına malik olduğu üçün daha çox üstünlük verilir. Bununla belə, ənənəvi litium batareyalarını doldurmağa və boşaltmağa imkan verən bir komponent olan elektrolit yüksək alovlanma qabiliyyəti ilə risk faktoru olmağa davam edir. Yeni akkumulyatorlar isə bu baxımdan daha təhlükəsiz olacaq.

"Nature Energy" nəşrində dərc edilən araşdırmaya görə, su əsaslı akkumulyatorlar ənənəvi litium batareyaları ilə müqayisədə 1200 vatt-saat (Wh/L) daha çox enerji sıxlığına malikdir. Bu, batareyaların ömrünü 1000 dövrə qədər uzada bilər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Parisdə Olimpiya bayraqlarını yandırdılar

## Fransız xalqı Olimpiadanın keçirilməsinə etiraz edir

**Fransa Prezidenti Emmanuel Makron təhlükəsizlik riskləri səbəbindən 2024-cü il Olimpiya oyunlarının açılış mərasiminin Sena sularından "Stad de Frans" arenasına köçürülməsini istisna etməyib. Bu arada, tullantı yığanlar hökuməti iyulun 1-dən sentyabrın 8-dək tətil elan edəcəkləri ilə hədələyirlər.**



Parisdə Olimpiya oyunlarının başlamasına iki aydan bir qədər çox vaxt qalıb, lakin təşkilatçılar hələ də müxtəlif növ problemlərin həllində aciz qalıblar. Bunlardan ən əsası təhlükəsizlikdir. Bu səbəbdən iyulun 26-da keçiriləcək açılış mərasiminin ssenarisinə yenidən baxılması ehtimalı var. Məsələ burasındadır ki, o, adi qaydada, stadionların birində deyil, birbaşa Sena çayında keçiriləcək. İştirakçılar qayıqlarda üzəcək və onları təxminən yarım milyon insan izləyəcək.

BOK-un rəhbəri Tomas Bax da Prezident Makron kimi, alternativ variantların axtarıldığını etiraf edib.

Artıq qeyd olunan təhlükəsizlik problemini həll etmək daha çətindir. Bu, təkcə açılış mərasiminə aid deyil. Britaniyalı ekspertlərin fikrincə, Parisdə quraşdırılan pilotsuz uçuş aparatlarının aşkarlanması və zərərsizləşdirilməsi üçün Parade sistemi kifayət qədər effektiv deyil. Onun əsas çatışmazlıqları ilk növbədə sıx şəhər ərazilərində zəif işləməsidir. O, yalnız hər üçüncü pilotsuz təyyarəni aşkar edir ki, bu da açıq-aşkar kifayət deyil. İkincisi, o, cihazları yalnız 800 metrdən çox olmayan məsafədə aşkar edir. Üçüncüsü isə, kondisioner ventilyatoru kimi yad obyektləri səhv sala bilir. Lakin bununla belə Parade Olimpiadaya xidmət edəcək. İngiltərənin elektron dronları sıradan çıxarma sistemləri ona kömək etməlidir.

Ölkədə kiberhücumlarla bağlı risklər də var. Milli Kibertəhlükəsizlik Agentliyinin (ANSSI) rəhbəri Vinsent Strubel təşkilatçıların hər şeyə hazır olduğunu bildirib. Bununla belə o hesab edir ki, kiberhücumlar heç bir halda oyunlara təhlükə yaratmayacaq.

Bu arada yerli təhlükəsizlik qüvvələri sosial şəbəkələrin, o cümlədən şübhəli şəxslərin axtarışını diqqətlə izləyir. 16 yaşlı yeniyetmə bu plan üzrə aprelin sonunda Yuxarı Savoya departamentində saxlanılıb. Onun Olimpiya oyunları zamanı terror aktı törətməyi planlaşdırdığı bildirilib.

Ekoloji problem də az aktuallıq kəsb etmir. Səlahiyyətlilərdən hələ də Senadakı çirklənmə səviyyəsi - çayda həm açılış mərasiminin, həm də yarışların keçirilməsinin mümkün olub-olmayacağı barədə rəy verilməsi tələb olunur.

Ekoloji problemlər şəhərdə su məsələsi ilə bitmir. Xüsusilə hakimiyyət kütləvi qida zəhərlənməsindən çox ehtiyatlanır. Ona görə də Olimpiya obyektlərinin yaxınlığında yerləşən bütün iaşə obyektlərində sanitar nəzarəti maksimum dərəcədə gücləndirilib. Qeyd olunur ki, ilin əvvəlindən artıq İl-de-Fransda 1,5 min yoxlama aparılıb.

Parisdə əsl xaos isə tullantı yığan işçilərin tətili ilə yarana bilər. Fransanın ən böyük həmkarlar ittifaqı CGT (Ümumi Əmək Konfederasiyası) bildirib ki, tətil iyulun 1-dən sentyabrın 8-dək davam edəcək. Ən böyük idman forumu zamanı şəhərin həyatını iflic etməmək üçün tullantı yığanlar ayda 400 avro əlavə ödəniş, eləcə də oyunlar zamanı işləməli olanlara 1,9 min avro birdəfəlik mükafat verilməsini tələb edirlər. Tərəflər arasında danışıqlar hələ də davam edir.

Xatırladaq ki, bu günlərdə Parisdə genişmiqyaslı nümayiş keçirilib və iştirakçılar 2024-cü il Olimpiya oyunlarına münasibət bildiriblər. Tədbir müxtəlif hesablamalara görə, təxminən 18 min insanı bir araya gətirib. İştirakçılar şəhərdə oyunların təşkilinə etiraz olaraq müxtəlif əşyalarla yanaşı, Olimpiya bayraqlarını da yandırıblar.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Ölkə ərazisində hava şəraiti dəyişkən buludlu olacaq

**Azərbaycanda mayın 12-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, mayın 12-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Gecəyə doğru intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Mülayim cənub-qərb küləyi axşama doğru arabir güclənən şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 13-17°, gündüz 20-25° isti olacaq. Atmosfer təzyiqi 756 millimetr civə sütunundan 753 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 55-60 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, axşam yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 13-17°, gündüz 25-30° isti, dağlarda gecə 3-8°, gündüz 10-15° isti olacağı proqnozlaşdırılıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyevaya əzizi

**ÇİNGİZ HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Vəkil Taleh İbrahimov "Yelobank"ASC-nin İdarə Heyətinin sədri Anar Həsənova atası

**ÇİNGİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4353
Sifariş 1014

Qiyməti 60 qəpik